Xalqın qəzeti!

# Xalq qəzeti

№ 13 (30707) 22 yanvar 2025-ci il, çərşənbə

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti


**70 illik aldanışın son gecəsi**

Səhifə ⇨ 9



# Azadlıq mübarizlərinin xatirəsi ölməzdir

## Prezident İlham Əliyev 20 Yanvar şəhidlərinin xatirəsini yad edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Şəhidlər xiyabanında 20 Yanvar şəhidlərinin əziz xatirəsini yad edib. Dövlətimizin başçısı "Əbədi məşəl" abidəsinin önünə əklil qoydu. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildi.**

Qanlı 20 Yanvar faciəsindən 35 il keçir. Azərbaycanın müasir tarixinə ən faciəli günlərdən biri, eyni zamanda, xalqımızın qəhrəmanlıq səhifəsi kimi daxil olan 20 Yanvar hadisələri milli müstəqillik, azadlıq uğrunda mübarizənin və yenilməz iradənin rəmzinə çevrilib. Keçmiş sovet ordusunun cəza tədbirlərinə məruz qalan xalqımız azadlıq əzmini itirməmiş, əksinə, haqq səsini daha ucadan bəyan etmişdi. Düz 35 il əvvəl doğma yurdunun, xalqının azadlığını, şərəf və ləyaqətini hər şeydən uca tutan vətənpərvər Azərbaycan övladları həmin qanlı gecədə canlarından keçərək şəhidlik zirvəsinə ucaldılar. Sovet qoşunlarının Azərbaycanda törətdiyi qanlı qırğından uzun illər keçməsinə baxmayaraq, xalqımız o dəhşətli günlərin ağrı-acısını unutmur, öz vətəndaşlarına divan tutan sovet imperiyasının ovaxtkı rəhbərlərinə və onların Azərbaycandakı əlaltılarına dərin nifrətini bildirir.

**(ardı 4-cü səhifədə)**

# Azərbaycan ABŞ ilə dostluq və əməkdaşlığa böyük önəm verir

## *Amerika Birləşmiş Ştatlarının Prezidenti Zati-aliləri cənab Donald Trampa*



**Hörmətli cənab Prezident!**

Amerika Birləşmiş Ştatlarının 47-ci Prezidenti kimi fəaliyyətə başlamağınız münasibətilə Sizə ən səmimi təbriklərimi çatdırmaqdan məmnunluq duyur, dost Amerika xalqının rifahı naminə qarşıdakı məsul ali dövləti fəaliyyətinizdə uğurlar arzulayıram.

Əminəm ki, Sizin gələcək fəaliyyətiniz dünyada sülhün təşviqində, beynəlxalq təhlükəsizliyin gücləndirilməsində önəmli rol oynayacaqdır.

Azərbaycan ilə Birləşmiş Ştatlar özlərinin milli təhlükəsizlik maraqları əsasında qlobal çağırışlara və təhdidlərə, beynəlxalq terrorizmə və onun müxtəlif təzahürlərinə qarşı mübarizədə daim sıx əməkdaşlıq etmişlər.

ABŞ-nin müttəfiqlərinin enerji təhlükəsizliyinin təmin olunmasına xidmət edən, enerji sahəsində xoş ənənələrə əsaslanan və möhkəm təməllər üzərində qurulmuş əməkdaşlığımızı yüksək qiymətləndirirəm, ölkəmizin enerji siyasətinə Sizin verdiyiniz daimi dəstəyi xüsusi vurğulamaq istərdim.

Biz həm ənənəvi, həm də yeni əməkdaşlıq sahələri üzrə Birləşmiş Ştatlar ilə fəal və səmərəli birgə işimizi, qarşılıqlı inam və etimada əsaslanan tərəfdaşlığımızı bundan sonra da qətiyyətlə davam etdirmək və Sizinlə bu istiqamətlərdə sıx işləmək niyyətindəyik.

İnanıram ki, Sizin yeni prezidentliyiniz dövründə Azərbaycan Respublikası ilə Amerika Birləşmiş Ştatları arasında dostluq və əməkdaşlıq münasibətləri daha da möhkəmlənəcək və yeni məzmun kəsb edəcəkdir.

Bir daha Sizi ürəkdən təbrik edir, möhkəm cansağlığı, xoşbəxtlik, işlərinizdə müvəffəqiyyətlər, dost Amerika xalqına daim əmin-amanlıq və firavanlıq diləyirəm.

**Hörmətlə,**

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 21 yanvar 2025-ci il**

## Gedənləri yola salan oldumu?



Səhifə ⇨ 8

## İz azdırmaq oyunu



Səhifə ⇨ 8

## Karbamid zavodu ölkəmizin tələbatını tam ödəyir



Səhifə ⇨ 12

## Makron niyə ordunu gücləndirmək istəyir?



Səhifə ⇨ 15

# Azərbaycan və Davos Forumu: iqtisadi amillər və siyasi prioritetlər

## *Ölkəmizin nüfuzlu toplantıya marağını şərtləndirən məqamlar*

**Azərbaycan hər il İsveçrənin Davos şəhərində keçirilən, dünya liderləri və tanınmış iş adamlarının bir araya gəldikləri Davos İqtisadi Forumunun (DİF) fəal iştirakçılarındandır və ənənəsinə sadiqdir. Prezident İlham Əliyevin mötəbər toplantıya növbəti dəfə qatılması da ölkəmizin ona marağının müstəsna göstəricisidir. Nəzərə alaq ki, DİF iştirakçılarının da Azərbaycana marağı var və yazımızda bu barədə də söz açacağıq.**

Bu il yanvarın 20-dən 24-dək keçiriləcək böyük nüfuza malik DİF dünyanın yüksək reytinqli toplantılarının ön sıralarındadır. Forum çərçivəsində təşkil olunan ayrı-ayrı iclas və müzakirə panelləri aktual əhəmiyyət daşıyır. Ötən illərin təcrübəsi göstərir ki, Prezident İlham Əliyev bu aktuallığa ayrıca Azərbaycan nəfəsi gətirməyi bacarıb. Dövlətimizin başçısının görüşlərinin say çoxluğu və əhatəliliyi Davos İqtisadi Forumunu ölkəmiz üçün müstəsna platformaya çevirib.

Məlum olduğu ki, Azərbaycanın Davos Forumunda ilk iştirakçılığı 1995-ci ildə qeydə alınıb. 2007-ci ildən isə bu iştirakçılıq mütəmadi xarakter daşıyıb. Mütəmadilikdə isə zərurət var. Yəni, əvvəldə də vurğuladığımız kimi, forum həm bizə lazımdır, həm də bizi dünyanın tərkib hissəsi sayanlara. Yeri gəlmişkən, ikinci məqamın üzərində dayanaraq deyə bilərik ki, əslində, Davos Forumu özlüyündə Azərbaycanla bağlı reallıq indikatorudur.

Məsələ ondadır ki, xaricdəki anti-Azərbaycan dairələr ölkəmizi gözdən salmaq, onun nüfuzuna xələl gətirmək üçün var gücləri ilə çalışırlar. Onlar elə görüntü formalaşdırırlar ki, sanki Azərbaycan beynəlxalq aləmdən təcrid durumdadır və sair və ilaxır. Təsəvvür edin, bu cür yaramaz ritorika fonunda Prezident İlham Əliyev Davosda böyük rəğbətlə qarşılanır və nəticə etibarilə ölkəmizlə bağlı təsəvvürlərin gerçək və real müsbət təzahürləri meydana çıxır. Nəinki meydana çıxır, hətta ön planda olur. Bütün bunlar isə dövlətimizin başçısının liderlik xüsusiyyətinin nəticəsidir.

Bəli, Prezident İlham Əliyev DİF çərçivəsində dünya liderləri və aparıcı şirkət rəhbərləri ilə görüşlər keçirməklə yanaşı, eyni zamanda, təşkil olunan panellərə qatılır, sualları cavablandırır, ziddiyyətli sayılan məsələlərə aydınlıq gətirir. Dövlətimizin başçısı Cənubi Qafqazın lider ölkəsi sayılan Azərbaycanın sosial-iqtisadi, siyasi, enerji, nəqliyyat və digər sahələrdəki uğur və nailiyyətlərini təfsilatı ilə diqqətə çatdırır ki, bu, ölkəmizin beynəlxalq birlik üçün vaciblilik parametrini müfəssəl şəkildə vurğulayır, Azərbaycan DİF-in fəal iştirakçısı imicində təqdim olunur, ona etimad güclənir. Bakının 2013-cü ildə forumun iştirakçılarını qəbul etməsi də bu etimadın nəticəsi idi.




Azərbaycan DİF-in iqtisadiyyatın rəqabətə davamlılığı indeksi üzrə MDB məkanında lider ölkələrdəndir. Nəzərə alaq ki, rəqabətə davamlılıq ölkəmizin iqtisadi inkişafını şərtləndirən mühüm cəhətlərdəndir. O da nəzərə alınmalıdır ki, Azərbaycan inkişafının dayanıqlılıq parametrini dünyaya fayda amili üzərində də qurur. Xaricə ixracımız hər il genişlənir, paralel olaraq ölkəmizin dünyanın enerji təhlükəsizliyinin təminatındakı rolu artır. DİF-in prioritetləri sırasında isə həm qlobal enerji layihələrinin şaxələndirilməsi, həm də bölgədə və dünyada mövcud istiqamətdəki əməkdaşlığın genişləndirilməsi mühüm yer tutur. Prezident İlham Əliyev Azərbaycan qazı üçün qapıların, yeni tranzit yolların açıldığını heç də əbəs yerə vurğulamır. Axı Avropa İttifaqının "mavi yanacaq"la təminatı məsələsi də DİF-in başlıca diskussiya mövzuları sırasındadır və Avropa dövlətlərinin Azərbaycanla bu sahədə əməkdaşlığı genişləndirməyə çalışmaları qaçılmazdır. Ona görə ki, birincisi, Azərbaycan qazı həm öz keyfiyyəti ilə fərqlənir, ikincisi isə daşınma marşrutuna görə Aİ üçün cəlbedicidir.

Ümumən, ölkəmizin liderinin DİF çərçivəsindəki fəaliyyəti onu göstərir ki, Azərbaycan sözügedən platformaya yalnız iqtisadi nöqteyi-nəzərdən yanaşmır və bu təbiidir. Əvvəla, dəyişən dünyanın reallıqları var və həmin reallıqlar iqtisadi amilləri siyasi amillər üçün təsir vasitəsinə çevirməkdədir. Azərbaycan özünün siyasətində bu iki xətti bir-birindən ayrı saxlasa da, obyektiv situasiyalar barədə düşünmək zərurəti yaranır.

Beləliklə, mövcud reallıqlar pəncərəsindən baxsaq, deyə bilərik ki hazırda DİF-in dünya siyasətinə, beynəlxalq münasibətlər sisteminə təsiri böyükdür və təsir ildən-ilə artır. Nəticədə bu platforma, eyni zamanda, dünyanın güc mərkəzlərinin də qlobal dialoq müstəvisinə çevrilir. Hesab edirik ki, bu baxımdan da Azərbaycanın forumdakı yüksək səviyyəli təmsilçiliyində böyük dividend var.

Qeyd edək ki, dünya çağırışlarla üz-üzədir. Bu baxımdan qlobal iqtisadi böhranı, silahlı münaqişələri, ərzaq çatışmazlığını və sair məsələləri vurğulamaq mümkündür. Problemlər milyonlarla insanın həyatına mənfi təsirini göstərməkdədir. Əlbəttə, durum dünyanı düşündürməlidir və Davos Forumunun beynəlxalq aləmin fikir sahiblərinin bir araya gəlməsindəki missiyası müstəsnadır. Ən başlıca məqam isə bu platformanın haqqında söz açdığımız problemlərin müzakirəsi xüsusundakı etibarlılığıdır. Nəzərə alaq ki, iqtisadi və siyasi sahədə fəaliyyət göstərən nüfuzlu beynəlxalq və regional səviyyəli təşkilatların rəhbərlərinin toplaşdıqları DİF interaktiv dialoqlarla yanaşı, həm də qeyri-rəsmi təmasların gerçəkləşdirildiyi əlverişli müstəvidir.

Onu da bildirək ki, 2025-ci ilin Davos Forumunun hədəflərində müəyyən fərqlilik var. Əgər əvvəlki bir neçə forumda xüsusən süni intellekt, iqlim dəyişikliyi, insan kapitalı və texnoloji yeniliklər kimi mövzuların müzakirəsi ön planda idisə, bir çox ekspertlərin qənaətincə, hazırda göstərdiyimiz istiqamətlər üzrə yalnız müzakirələrin aparılması deyil, habelə konkret və strateji yanaşmaların müəyyənləşdirilməsi əsas götürülür. Məsələn, iqlim dəyişikliyi həmişə prioritet mövzulardandır, ancaq DİF-də bu mövzuya innovativ tərəfdaşlıqlar və yaşıl sənaye sahəsində konkret həllər seqmenti qazandırmaq da prioritet seçilir. Bu isə o deməkdir ki, artıq forum müəyyən mənada diskussiya klubu təsiri bağışlayan ampluadan çıxır, belə demək mümkünsə, qərarverən imicə köklənir.

***XQ-nin analitik qrupu***

# Davos Forumu qlobal iqtisadi dialoq platformasıdır

## Azərbaycan Prezidenti İlham Əliyevin İsveçrəyə səfəri

### Çinin CGTN telekanalına müsahibə



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Dünya İqtisadi Forumunda iştirak etmək üçün yanvarın 20-də İsveçrə Konfederasiyasına səfərə gəlib.**

Dövlətimizin başçısı yanvarın 20-də Davosda CGTN (China Global Television Network) telekanalına müsahibə verib.

### Latviya Prezidenti ilə işgüzar söhbət

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 21-də Davosda qarşı tərəfin müraciəti əsasında Latviya Respublikasının Prezidenti Edqars Rinkeviçs ilə görüşüb.**



Edqars Rinkeviçs dövlətimizin başçısı ilə bundan əvvəlki görüşlərini məmnunluqla xatırladı.

Latviya Prezidenti bugünkü görüşün ikitərəfli əlaqələrin müzakirəsi üçün yaxşı imkan yaratdığını dedi.

Edqars Rinkeviçs təyyarə qəzasında həlak olanlarla bağlı Azərbaycan Prezidentinə başsağlığı verdi.

Dövlətimizin başçısı başsağlığına görə minnətdarlığını bildirdi.

Prezident İlham Əliyev də öz növbəsində bugünkü görüşün əməkdaşlığımızın perspektivlərinin müzakirəsi baxımından önəmini vurğuladı.

### İraq Prezidenti ilə fikir mübadiləsi



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 21-də Davosda qarşı tərəfin müraciəti əsasında İraq Respublikasının Prezidenti Əbdüllətif Camal Rəşid ilə görüşüb.**

COP29-da Azərbaycana səfərini məmnunluqla xatırlayan Əbdüllətif Camal Rəşid bu mühüm tədbirin uğurla keçirilməsi münasibətilə dövlətimizin başçısına təbriklərini çatdırdı. İraq Prezidenti, eyni zamanda, təyyarə qəzası ilə əlaqədar bir daha başsağlığını ifadə etdi.

Prezident İlham Əliyev başsağlığına görə minnətdarlığını bildirdi.

Dövlətimizin başçısı İraq Prezidenti ilə görüşlərini və bu görüşlər əsnasında aparılmış müzakirələri məmnunluqla xatırladı.

Görüşdə Azərbaycanla İraq arasında ikitərəfli əlaqələrin inkişaf etdirilməsi, birbaşa təyyarə reyslərinin təşkili və hökumətlərarası komissiyanın fəaliyyəti ilə əlaqədar məsələlərə toxunuldu. Həmçinin Yaxın Şərqdəki vəziyyət müzakirə edildi, regionda sülhün və sabitliyin bərqərar olunmasının vacibliyi bir daha vurğulandı.

Söhbət zamanı qarşılıqlı maraq doğuran məsələlər barədə fikir mübadiləsi aparıldı.

### “OliverWyman Group” şirkətinin baş icraçı direktoru ilə görüş



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 20-də Davosda “OliverWyman Group” şirkətinin baş icraçı direktoru Nik Studer ilə görüşüb.**

Nik Studer “OliverWyman Group” şirkətinin beynəlxalq strateji idarəedici şirkət olaraq ölkəmizdə müxtəlif qurumlarla mümkün əməkdaşlıq istiqamətlərinə toxundu, Azərbaycanın iqtisadi transformasiya prosesinin, sığorta, maliyyə bazarının müxtəlif istiqamətlərinin inkişafı, enerji sektorunda, o cümlədən ənənəvi və yaşıl enerji sahələrində həyata keçirilən layihələrə, kənd təsərrüfatı məhsullarının ixracına, bölgədə yeni ticarət imkanlarını əhatə etməklə dəyər zəncirinin lokallaşdırılmasına maraq göstərdiklərini qeyd etdi. O, Azərbaycanın əldə etdiyi uğurları yüksək qiymətləndirdi.

Dövlətimizin başçısı şirkətin Azərbaycana marağını dəstəkləyərək, ölkəmizin müvafiq qurumları ilə “OliverWyman Group” arasında əməkdaşlığın qurulması məsələlərinə toxundu.

### “The Goldman Sachs Group Inc.” şirkətinin qlobal məsələlər üzrə prezidenti ilə dialoq



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 21-də Davosda qarşı tərəfin müraciəti əsasında “The Goldman Sachs Group Inc.” şirkətinin qlobal məsələlər üzrə prezidenti Cared Kohen ilə görüşüb.**

Görüşdə Azərbaycan ilə “The Goldman Sachs Group Inc.” şirkəti arasında əməkdaşlığın mövcud vəziyyəti və inkişaf perspektivləri ətrafında geniş fikir mübadiləsi aparıldı.

Ölkəmizlə şirkət arasında 2010-cu ildən uğurlu əməkdaşlığın həyata keçirildiyi məmnunluqla vurğulandı.

Azərbaycan Respublikası Dövlət Neft Fondunun “The Goldman Sachs Group Inc.” ilə uğurlu tərəfdaşlığının ölkənin maliyyə sektorunun inkişafı və beynəlxalq investisiya imkanlarının genişləndirilməsi baxımından əhəmiyyəti qeyd olundu.

Cared Kohen təmsil etdiyi şirkətin qlobal miqyasda maliyyə və investisiya sahələrində fəaliyyətindən danışaraq, Azərbaycanla əməkdaşlıqdan məmnunluğunu ifadə etdi. O, regionda baş verən iqtisadi proseslərin şirkət üçün böyük maraq kəsb etdiyini və gələcəkdə yeni layihələr çərçivəsində tərəfdaşlığın inkişafı istiqamətində potensial imkanların araşdırıldığını bildirdi.

Qeyd edək ki, 1869-cu ildə təsis edilmiş və mənzil-qərargahı ABŞ-ın Nyu-York şəhərində yerləşən “The Goldman Sachs Group Inc.” investisiya və istehlak bankçılığı, qiymətli kağızlar, aktivlərin idarə edilməsi sahələrində xidmət göstərən aparıcı qlobal maliyyə institutudur. Şirkət hazırda 40-dan çox ölkədə fəaliyyət göstərir və müxtəlif siniflər üzrə 2,8 trilyon ABŞ dolları dəyərində aktivləri idarə edir.

### “DP World” şirkətlər qrupunun sədri və icraçı direktoru ilə müzakirə



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 21-də Davosda qarşı tərəfin müraciəti əsasında “DP World” şirkətlər qrupunun sədri və icraçı direktoru Sultan Əhməd bin Sulaim ilə görüşüb.**

Görüşdə “DP World” şirkətlər qrupunun ölkəmizdəki fəaliyyətinin perspektivləri, Şimal-Cənub və Şərq-Qərb nəqliyyat dəhlizlərinin yaratdığı imkanlar barədə müzakirələr aparıldı. Azərbaycanın regional nəqliyyat qovşağı kimi rolu xüsusi vurğulandı, mümkün əməkdaşlıq istiqamətləri müzakirə olundu.

Qeyd edək ki, “DP World” dünyanın ən böyük liman operatorlarından biridir. Şirkət coğrafi cəhətdən şaxələndirmə baxımından da liderlər sırasındadır.

Hazırda “DP World” dünyanın müxtəlif yerlərində 80-ə yaxın limanın operatorluğu ilə məşğuldur.

# Davos: qlobal iqtisadi inteqrasiya çağırışları

## İlham Əliyevin İraq Kürdüstan Regionunun Baş naziri ilə fikir mübadiləsi



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 21-də Davosda qarşı tərəfin müraciəti əsasında İraq Kürdüstan Regionunun Baş naziri Məsrur Bərzani ilə görüşüb.**

Məsrur Bərzani İraq Kürdüstan Regionunun başçısı Neçirvan Bərzaninin salamlarını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Neçirvan Bərzaniyə çatdırmağı xahiş etdi.

Məsrur Bərzani vurğuladı ki, İraq Kürdüstan Regionunun başçısı Azərbaycana səfərlərindən, o cümlədən COP zamanı ölkəmizə gəlməsindən çox məmnundur.

Söhbət zamanı Azərbaycan ilə İraq Kürdüstan Regionu arasında iqtisadi, ticari, mədəni, humanitar əlaqələrin inkişaf etdirilməsi barədə fikir mübadiləsi aparıldı. Biznes dairələrinin qarşılıqlı səfərlərinin təşkilinin, onların arasında birbaşa təmasların yaradılmasının və biznes-forumların keçirilməsinin vacibliyi qeyd olundu.

## "Carlsberg Group" şirkətinin baş icraçı direktoru ilə dialoq



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 21-də Davosda qarşı tərəfin müraciəti əsasında "Carlsberg Group" şirkətinin baş icraçı direktoru Yakob Aarup-Andersen ilə görüşüb.**

Yakob Aarup-Andersen rəhbərlik etdiyi şirkətin Azərbaycanda uğurlu fəaliyyətinə toxunaraq, ölkəmizdə mövcud olan investisiya mühitindən razılığını ifadə etdi, xüsusilə mülkiyyət hüquqlarının qorunması istiqamətində Azərbaycanın xarici investorlara təqdim etdiyi çərçivəni yüksək qiymətləndirərək, yaradılmış şəraitə görə Prezident İlham Əliyevə təşəkkürünü bildirdi.

"Carlsberg Group"un ölkədə istehsal olunan məhsullarının lokallaşdırılma səviyyəsinin artırılması və şirkətin Azərbaycandakı fəaliyyətinin genişləndirilməsi ilə bağlı niyyəti barədə dövlətimizin başçısına məlumat verildi.

Görüşdə "Carlsberg Group" şirkəti ilə əməkdaşlıq məsələlərinə toxunuldu.

***AZƏRTAC***

## Əli Əsədov Türkiyənin Vitse-prezidentinə başsağlığı göndərib

**Azərbaycanın Baş naziri Əli Əsədov yanvarın 21-də Türkiyənin Vitse-prezidenti Cevdet Yılmaza başsağlığı məktubu ünvanlayıb.**

Nazirlər Kabinetindən verilən məlumata görə, Ə.Əsədov Türkiyənin Bolu vilayətində yerləşən xizək mərkəzində baş verən yanğın nəticəsində insan tələfatı və yaralananlar barədə xəbəri dərin kədər hissi ilə qarşıladığını bildirib. Bu ağır faciə ilə əlaqədar Türkiyənin Vitse-prezidentinə, həlak olanların ailələrinə və yaxınlarına, qardaş Türkiyə xalqına dərin hüznlə başsağlığı verib, bütün yaralılara şəfa diləyib.

***XQ***

## Sahibə Qafarova TBMM-in sədrinə başsağlığı verib

**Yanvarın 21-də Milli Məclisin sədri Sahibə Qafarova Türkiyə Böyük Millət Məclisinin (TBMM) sədri Numan Kurtulmuşa başsağlığı məktubu ünvanlayıb.**

Bu barədə Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən məlumat verilib.

Bildirilib ki, Parlamentin sədri məktubda Türkiyənin Bolu vilayətinin Kartalkaya dağ-xizək mərkəzinin otelində baş vermiş yanğın nəticəsində çox sayda insan itkisi ilə əlaqədar TBMM-in sədrinə və deputatlarına, həlak olanların ailələrinə və yaxınlarına, qardaş Türkiyə xalqına öz adından və Milli Məclisin deputatları adından dərin hüznlə başsağlığı verib, həlak olanlara Allahdan rəhmət diləyib, xəsarət alanlara şəfa arzulayıb.

***XQ***

## Azərbaycan Prezidentinin Almaniya Kansleri ilə görüşü




**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 21-də Davosda qarşı tərəfin müraciəti əsasında Almaniya Federativ Respublikasının Kansleri Olaf Şolts ilə görüşüb.**

Almaniya Kansleri təyyarə qəzası ilə əlaqədar araşdırmaların gedişi ilə maraqlandı.

Görüşdə Azərbaycan Prezidenti ilə Olaf Şoltsun əvvəlki görüşləri və aparılmış müzakirələr məmnunluqla xatırlandı.

Söhbət zamanı ikitərəfli münasibətlərə, eyni zamanda, Azərbaycanın Avropa İttifaqı ilə əməkdaşlığının inkişaf etdirilməsi perspektivlərinə dair fikir mübadiləsi aparıldı, qarşılıqlı maraq doğuran məsələlər müzakirə olundu.

Kansler Almaniyanın Cənubi Qafqaz regionunda davamlı sülhün və sabitliyin təmin olunması istiqamətində səyləri dəstəklədiyini bildirdi.

## İsrail Prezidenti ilə səmimi söhbət



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 21-də Davosda qarşı tərəfin müraciəti əsasında İsrail Dövlətinin Prezidenti İsxak Hersoq ilə görüşüb.**

Görüşdə Azərbaycan ilə İsrail arasında ikitərəfli münasibətlərin uğurla inkişaf etdiyi qeyd olundu.

İsxak Hersoq ölkəmizə rəsmi səfərini məmnunluqla xatırladı.

Söhbət zamanı iqtisadi-ticari sahədə əməkdaşlığın yaxşı səviyyədə olduğu bildirildi, hökumətlərarası birgə komissiyanın işi yüksək qiymətləndirildi.

Azərbaycanlılarla yəhudilər arasında ənənəvi, tarixi dostluq münasibətlərinin mövcud olduğu vurğulandı, ölkəmizdə digər icmaların nümayəndələri ilə yanaşı, yəhudi icmasının nümayəndələrinin də sülh, əmin-amanlıq və qarşılıqlı anlaşma mühitində yaşamaları üçün hərtərəfli şəraitin yaradıldığı məmnunluqla qeyd edildi.

## Milli Məclis sədrinin İtaliyaya rəsmi səfəri




**Yanvarın 21-də Milli Məclisin sədri Sahibə Qafarovanın başçılığı ilə parlament nümayəndə heyəti İtaliya Respublikasına rəsmi səfərə gəlib.**

Səfər çərçivəsində Milli Məclisin sədri Sahibə Qafarovanın bir sıra görüşləri nəzərdə tutulur.

# Prezident İlham Əliyev 20 Yanvar şəhidlərinin xatirəsini yad edib



(əvvəli 1-ci səhifədə)

Keçmiş SSRİ rəhbərliyinin Azərbaycana qarşı qərəzli, ermənipərəst siyasətinə, əzəli torpaqlarımıza iddia edən təcavüzkar Ermənistanın açıq-aşkar dəstəklənməsinə və respublikanın ozamankı rəhbərliyinin xəyanətkar mövqeyinə etiraz olaraq ayağa qalxmış geniş xalq kütlələrinə qarşı sovet ordusunun iri hərbi birləşmələrinin yeridilməsi Azərbaycanda, xüsusilə Bakıda misli görünməmiş faciə, günahsız insanların həlak olması ilə nəticələndi. Sanki bunları görməyən Azərbaycanın ovaxtkı səriştəsiz rəhbərlərinin yenə də xalqla bir olmağa cəsarəti çatmadı.

Həmin vaxt Moskvada yaşayan Ümummilli Liderimiz Heydər Əliyev həyatını təhlükə altında qoyaraq, faciənin ertəsi günü Azərbaycanın daimi nümayəndəliyinə gəldi, Qanlı Yanvar qırğınını törədənləri pisləyən kəskin bəyanatla çıxış etdi, xalqımızın başına gətirilən müsibəti dünyaya çatdırdı. Bununla da Ulu Öndər cəsarətini, mərdliyini, xalqının sədaqətli oğlu olduğunu bir daha sübut etdi.

Əslində, ermənilərin fitvası ilə törədilmiş bu cinayət Azərbaycan xalqının iradəsini qıra, azadlıq eşqini söndürə bilmədi. Xalqımız qanı bahasına da olsa istəyinə - azadlıq və müstəqilliyinə qovuşdu və bu nailiyyəti heç vaxt əlindən verməyəcək.

Ümummilli lider Heydər Əliyev Azərbaycanın rəhbərliyinə qayıtdıqdan sonra - 1994-cü ildə 20 Yanvar hadisələrinə siyasi-hüquqi qiymət verildi və cinayəti törədənlərin adları ictimaiyyətə çatdırıldı. 20 Yanvar Ümumxalq Hüzn Günü elan edildi.

Bu gün Azərbaycan xalqı 20 Yanvar faciəsi qurbanlarının xatirəsini dərin ehtiramla yad edir. Vətənimizin azadlığı uğrunda mübarizədə canlarından keçən şəhidlərin xatirəsi daim əziz tutulduğu kimi, onların ailə üzvləri, doğmaları da hər zaman dövlət qayğısı ilə əhatə olunub. 20 Yanvar hadisələrində sağlamlığını itirən əlillərin də sosial müdafiəsi, pensiya təminatı hər zaman Azərbaycan Prezidenti İlham Əliyevin diqqətindədir. 20 Yanvar şəhidlərinin ailə üzvlərinin və əlillərin sosial müdafiəsinin təmin olunması istiqamətində mütəmadi tədbirlər həyata keçirilir. Şəhid ailələrinin pensiya təminatı, mənzil şəraitinin yaxşılaşdırılması, yaşayış səviyyəsinin yüksəldilməsi ilə bağlı mükəmməl qanunvericilik bazası yaradılıb.

Əminliklə deyə bilərik ki, ulu Öndər Heydər Əliyevin, ölkəmizin müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizədə canlarından keçmiş bütün şəhidlərin ruhları bu gün şaddır. Çünki 2020-ci ildə Azərbaycan Ordusu xalqımızın 30 illik həsrətinə son qoydu, torpaqlarımızı erməni işğalından azad etdi. 2023-cü ilin sentyabrında həyata keçirilən uğurlu antiterror tədbirləri nəticəsində isə suverenliyimiz tam bərpa olundu. İndi bütün ərazilərimizdə Azərbaycanın üçrəngli Bayrağı dalğalanır. İşğaldan azad edilmiş ərazilərdə genişmiqyaslı quruculuq işləri sürətlə davam edir, Böyük Qayıdış Proqramı uğurla icra olunur. Bunun nəticəsidir ki, işğaldan azad olunmuş ərazilərdə hazırda ümumilikdə 30 mindən çox insan yaşayır.

Azərbaycanın ərazi bütövlüyünün və suverenliyinin tam bərpa olunması bütün şəhidlərimizin, o cümlədən 20 Yanvar faciəsi qurbanlarının qanının yerdə qalmadığının sübutudur. Buna görə də xalqımız 20 Yanvar faciəsinin 35-ci ildönümünü də xüsusi qürur hissi ilə qeyd edir.

***AZƏRTAC***

# Dövlət və hökumət rəsmiləri Şəhidlər xiyabanını ziyarət ediblər



**Yanvarın 20-də - Ümumxalq Hüzn Günündə Baş nazir Əli Əsədov, Milli Məclisin sədri Sahibə Qafarova, Prezident Administrasiyasının rəhbəri Samir Nuriyev, digər dövlət və hökumət rəsmiləri Şəhidlər xiyabanını ziyarət ediblər.**

Dövlət və hökumət rəsmiləri Azərbaycanın azadlığı uğrunda həlak olan qəhrəman Vətən övladlarının məzarları üzərinə tər güllər düzüb, əziz xatirələrini ehtiramla anıblar.

# Prokurorluq əməkdaşları şəhidləri yad ediblər



**Azərbaycan Respublikasının Baş Prokurorluğunun rəhbərliyi və kollektivi 20 Yanvar faciəsinin 35-ci ildönümü ilə əlaqədar Şəhidlər xiyabanını ziyarət edib.**

Prokurorluq əməkdaşları şəhidlərimizin məzarları üzərinə gül dəstələri qoyub, ölkəmizin azadlığı uğrunda həlak olanların xatirəsini hörmət və ehtiramla yad edib.

# Türkiyə Respublikasının Prezidenti Zati-aliləri cənab Rəcəb Tayyib Ərdoğana

**Hörmətli cənab Prezident, əziz Qardaşım!**

Bolu vilayətinin Kartalkaya dağ-xizək mərkəzinin otelində baş vermiş yanğın nəticəsində çox sayda insanın həlak olması xəbəri bizi olduqca sarsıtdı.

Bu faciə ilə əlaqədar dərdinizi bölüşür, Sizə, həlak olanların ailələrinə və yaxınlarına, qardaş Türkiyə xalqına öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verir, xəsarət alanlara şəfa diləyirəm.

**Allah rəhmət eləsin!**

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 21 yanvar 2025-ci il**




# Prezident İlham Əliyev 20 Yanvar faciəsi ilə əlaqədar paylaşım edib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 20 Yanvar faciəsi ilə əlaqədar sosial şəbəkə hesablarında paylaşım edib.**

# Mehriban Əliyeva 20 Yanvar faciəsinin ildönümü ilə bağlı paylaşım edib

**Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva sosial şəbəkə hesablarında 20 Yanvar faciəsinin 35-ci ildönümü ilə bağlı paylaşım edib.**

Paylaşımda deyilir: "20 Yanvar faciəsinin günahsız qurbanlarının əziz xatirəsini ehtiramla yad edirəm. Allah bütün şəhidlərimizə rəhmət eləsin!".




# Birinci vitse-prezident Mehriban Əliyeva Türkiyədə baş verən yanğınla bağlı paylaşım edib

**Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva Türkiyədə baş verən yanğınla bağlı rəsmi sosial şəbəkə səhifələrində paylaşım edib.**

Paylaşımda deyilir: "Başın sağ olsun, Türkiyə! Yanğın nəticəsində həlak olanların doğmalarına və yaxınlarına dərin hüznlə başsağlığı verir, onlara güc və səbir diləyirəm. Yaralananların tezliklə şəfa tapmasını arzulayıram. Uca Tanrı xalqlarımızı bütün bəlalardan və bədbəxtliklərdən qorusun!".

# DTX əməkdaşlarının Vətən qurbanlarına ehtiramı



**20 Yanvar faciəsinin 35-ci ildönümü ilə əlaqədar Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi general-polkovnik Əli Nağıyev və Xidmətin əməkdaşları Şəhidlər xiyabanında Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarını fəda etmiş qəhrəman Vətən övladlarının əziz xatirəsini dərin hüznlə yad etmiş, məzarları üzərinə qərənfillər düzmüşlər.**

Dövlət Təhlükəsizliyi Xidmətinin şəxsi heyəti adından "Əbədi məşəl" abidəsinin önünə əklil qoyulmuşdur.

Şəhidlər xiyabanında dəfn edilmiş təhlükəsizlik orqanları əməkdaşlarının məzarları da ziyarət olunmuşdur.

# DTX və XİN-in birgə məlumatı

**Azərbaycan Respublikası Prezidentinin tapşırığına uyğun olaraq, Azərbaycan vətəndaşı, 2023-cü ildə İran İslam Respublikasında saxlanılmış Səfərli Fərid Qabil oğlu beynəlxalq hüquqi əməkdaşlıq və qarşılıqlı prosedur çərçivəsində 18 yanvar 2025-ci il tarixində İrandan təhvil alınaraq ölkəmizə qaytarılmışdır.**

Fərid Səfərli tibbi müayinədən keçdikdən sonra ailəsinə qovuşmuşdur.

Azərbaycan Respublikasının vətəndaşlarının ölkə hüdudlarından kənarda hüquq və mənafelərinin qorunması istiqamətində zəruri tədbirlərin görülməsi bundan sonra da davam etdiriləcəkdir.

**XQ**



# İran Prezidenti Azərbaycan nümayəndə heyətini qəbul edib



**İran İslam Respublikasının Prezidenti Məsud Pezeşkian Azərbaycanla İran arasında iqtisadi, ticarət və humanitar sahələrdə əməkdaşlıq üzrə Birgə Dövlətlərarası Komissiyasının 16-cı iclasında iştirak etmək məqsədilə İranda səfərdə olan, Azərbaycan Respublikasının Baş nazirinin müavini, komissiyanın Azərbaycan tərəfindən həmsədri Şahin Mustafayevin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.**

Görüşdə Azərbaycan-İran əlaqələrinin mövcud vəziyyəti və gələcək inkişaf perspektivləri müzakirə olunub, o cümlədən iqtisadiyyat, nəqliyyat, energetika, ticarət, investisiya və humanitar sahələrdə əməkdaşlığın daha da genişləndirilməsi və həyata keçirilən birgə layihələrin önəmi vurğulanıb.

Görüşdə, həmçinin regional və qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da fikir mübadiləsi aparılıb.

# Kəmaləddin Heydərov Əli Yerlikayaya başsağlığı verib



**Azərbaycanın fövqəladə hallar naziri general-polkovnik Kəmaləddin Heydərov Türkiyənin Bolu vilayətinin Kartalkaya xizək mərkəzində yerləşən hoteldə baş vermiş yanğınla əlaqədar qardaş ölkənin daxili işlər naziri Əli Yerlikayaya və Türkiyənin Bakıdakı Səfirliyinə başsağlığı məktubu göndərib.**

Nazir yanğın nəticəsində çox sayda insanın həlak olması ilə bağlı başsağlığını çatdırıb, yaralananların tezliklə sağalmasını dilədiyini bildirib.

*XQ*

# Mikayıl Cabbarovun ABŞ-ın "Planet Labs PBC" şirkətinin direktoru ilə görüşü



**Azərbaycanın iqtisadiyyat naziri Mikayıl Cabbarov Prezident İlham Əliyevin Davos İqtisadi Forumunda iştirakı çərçivəsində ABŞ-ın "Planet Labs PBC" şirkətinin baş maliyyə və əməliyyatlar direktoru Eşli Conson ilə görüşüb.**

Bu barədə nazir "X" hesabında paylaşıb.

Görüşdə energetika, ekologiya, sahibkarlıq və digər sahələrdə innovativ həllərin tətbiqi ilə resursların optimallaşdırılmasının önəmi qeyd olunub, şirkətlə əməkdaşlıq perspektivləri nəzərdən keçirilib.

*XQ*

# DİN heyəti hüzn mərasimində



**Daxili İşlər Nazirliyinin şəxsi heyəti 20 Yanvar faciəsinin 35-ci ildönümü ilə əlaqədar Şəhidlər xiyabanında Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizədə şəhid olmuş qəhrəman Vətən övladlarının məzarlarını ziyarət ediblər.**

*XQ*

# Hərbi Prokurorluğun illik hesabatı





**Yanvarın 21-də Azərbaycan Respublikasının Hərbi Prokurorluğunda cinayətkarlığa qarşı mübarizə, qanunçuluq və hüquq qaydasının möhkəmləndirilməsi, insan və vətəndaş hüquqlarının, azadlıqlarının qorunması sahəsində 2024-cü ildə görülən işlərin və qarşıda duran vəzifələrin müzakirəsinə həsr olunan geniş kollegiya iclası keçirilib.**

Baş prokuror, I dərəcəli dövlət ədliyyə müşaviri Kamran Əliyev dünya şöhrətli siyasətçi, xalqımızın və dövlətimizin xilaskarı Heydər Əliyevin mükəmməl siyasətini dövrün tələbləri ilə uzlaşdıraraq yüksək məharətlə davam etdirən Prezident İlham Əliyevin rəhbərliyi ilə ötən 21 ildə ölkəmizdə bütün sahələrdə əldə olunmuş böyük uğurlardan danışıb. Baş prokuror Kamran Əliyev bildirib ki, əldə olunan uğurlarda Birinci vitse-prezident Mehriban xanım Əliyevanın çoxşaxəli fəaliyyəti mühüm əhəmiyyət kəsb edir.

Daha sonra hesabat məruzəsi ilə çıxış edən baş prokurorun müavini, hərbi prokuror, ədliyyə general-leytenantı Xanlar Vəliyev qeyd edib ki, 2024-cü ildə Hərbi Prokurorluq orqanlarının fəaliyyəti uğurlu olmaqla Silahlı Qüvvələrdə nizam-intizamın davamlılığına, cinayətkarlığın və digər hüquqazidd əməllərin qarşısının alınmasına, qanunçuluq və hüquq qaydasının möhkəmləndirilməsinə, insan və vətəndaş hüquq və azadlıqlarının qorunmasına yönəldilib. Vurğulanıb ki, qeydə alınan cinayətlərin, ümumilikdə, 98,8 faizi, o cümlədən bəzi qəbildən olan cinayətlərin 100 faizi açılıb.

Xanlar Vəliyev bildirib ki, insan hüquq və azadlıqlarının daha etibarlı müdafiəsi, nizam-intizamın və qanunçuluğun möhkəmləndirilməsi, eləcə də cinayətkarlığa qarşı mübarizə istiqamətində əldə olunan müsbət nəticələrdə Hərbi Prokurorluq orqanları ilə Müdafiə Nazirliyi, Dövlət Sərhəd Xidməti, Daxili Qoşunlar və digər hərbi qurumlar, həmçinin qeyri-hökumət təşkilatları arasında yaranan qarşılıqlı sağlam və işgüzar əlaqələrin də çox böyük əhəmiyyəti olub. Belə ki, hər il olduğu kimi, 2024-cü ildə də aidiyyəti dövlət orqanları ilə birgə hazırlanan müvafiq tədbirlər planları əsasında mütəmadi olaraq hərbi qulluqçularla görüşlər təşkil olunub, onların qayğı və problemləri ilə maraqlanılıb, həmçinin fərdi qəbullar keçirilib.

Hərbi prokuror vurğulayıb ki, hesabat dövründə qeydə alınan cinayətlər əvvəlki illə müqayisədə ümumilikdə 19,3 faiz, qeyri-hərbi cinayətlər 21,5 faiz, hərbi xidmət əleyhinə olan cinayətlər isə 17,5 faiz azalıb.

Eyni zamanda, 2023-cü illə müqayisədə 2024-cü ildə qeydə alınan özünü öldürmə həddinə çatdırma cinayətləri 20,0 faiz, rüşvət alma və rüşvət vermə cinayətləri 53,4 faiz, hərbi xidmətdən yayınma cinayətləri 33,6 faiz, hərbi xidmət vəzifələrinin icrasından boyun qaçırma cinayətləri 52,9 faiz, hərbi hissəni və ya xidmət yerini özbaşına tərk etmə cinayətləri 31,1 faiz, qulluğa səhlənkar yanaşma cinayətləri 21,4 faiz, silahla və ətrafdakılar üçün yüksək təhlükə törədən əşyalarla davranış qaydalarını pozma cinayətləri 71,4 faiz, maşınları idarəetmə və istismar qaydalarını pozma cinayətləri 88,2 faiz, odlu silahı, döyüş sursatını, partlayıcı maddələri və qurğuları talama və ya hədə-qorxu ilə tələb etmə cinayətləri 33,3 faiz, yol hərəkəti və nəqliyyat vasitələrinin istismarı qaydalarını pozma cinayətləri 20,4 faiz, mülkiyyət əleyhinə olan cinayətlər 4,4 faiz, və xuliqanlıq cinayətləri 60,0 faiz azalıb.

Sonra məruzə ətrafında çıxışlar olub.

*XQ*

# Mərkəzi Seçki Komissiyasının növbəti iclası

**Məzahir Pənahovun sədrliyi ilə yanvarın 21-də Mərkəzi Seçki Komissiyasının növbəti iclası keçirilib.**



Əvvəlcə komissiyanın 2025-ci il 14 yanvar tarixli iclas protokolu təsdiq edilib.

Sonra 2025-ci il yanvarın 29-na təyin edilmiş bələdiyyə seçkilərində seçki məntəqələrində veb-kameraların quraşdırılması məsələsinə baxılıb. Bildirilib ki, Azərbaycanda keçirilən seçkilərdə bütün digər vasitələrlə bərabər, informasiya-kommunikasiya texnologiyalarının ən son innovativ nailiyyətlərindən də daim geniş və səmərəli istifadə edilib. Xüsusilə qeyd olunub ki, 2008-ci ildən etibarən ölkəmizdəki seçkilərdə uğurla tətbiq olunan veb-kamera layihəsi səsvermə günü şəffaflığın daha böyük miqyasda təmin edilməsinə mühüm töhfə verməklə, seçkilərin izlənməsinə qatılan çoxsaylı aşkarlıq institutları, müşahidəçilər, media nümayəndələri, habelə peşəkar seçki mütəxəssisləri tərəfindən təqdirlə vurğulanıb və yüksək qiymətləndirilib.

İclas iştirakçılarının diqqətinə o da çatdırılıb ki, qarşıdan gələn bələdiyyə seçkiləri ilə əlaqədar veb-kameraların tətbiqi layihəsi Mərkəzi Seçki Komissiyasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi və Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti ilə sıx qarşılıqlı faydalı əməkdaşlığı şəraitində gerçəkləşdirilib.

Aparılan geniş müzakirələrin ardınca Mərkəzi Seçki Komissiyası bələdiyyə seçkiləri ilə əlaqədar seçki günü səsvermə məntəqələrində proseslərin əvvəldən axıradək, birbaşa və arasıkəsilmədən izlənilməsi məqsədilə, keyfiyyətli və fasiləsiz yayım imkanlarının təmin edilməsi üçün zəruri olan texniki və digər şərtlər çərçivəsində bələdiyyə seçkiləri keçirilən 118 seçki dairəsi əhatə olunmaqla, 1000 seçki məntəqəsində veb-kamera quraşdırılmasını qərara alıb. Komissiyanın qərarında veb-kameraların quraşdırılması üçün zəruri olan fəaliyyətin təmin edilməsi istiqamətində müvafiq tədbirlərin həyata keçirilərək başa çatdırılması və veb-kamera quraşdırılan seçki məntəqələrinin siyahısının dərc edilməsi də nəzərdə tutulub.

İclasda, eləcə də qarşıdan gələn bələdiyyə seçkilərində əraziləri bir neçə seçki dairəsi arasında bölünmüş bələdiyyələrə seçkilərin yekunlarının müəyyən olunması məsələsi müzakirə edilib. Mərkəzi Seçki Komissiyasının qərarı ilə bu cür bələdiyyələr üzrə səsvermə protokollarını tərtib etməli olan dairə seçki komissiyaları müəyyənləşdirilib.

Media subyektləri nümayəndələrinin də bilavasitə iştirakı ilə keçirilən iclasda, həmçinin bəzi seçki dairələri dairə seçki komissiyalarının tərkibində dəyişiklik olunub və cari məsələlərə baxılıb.

*XQ*

# Yeni geosiyasi trendlər: Cənubi Qafqaz konteksti




## I məqalə

### "Yeni Böyük Oyun": dəyişmə dinamikası

Bu məqalədə hazırda müşahidə olunan geosiyasi proseslər realpolitika kontekstində təhlil edilir. Öncə, məqalədə istifadə etdiyimiz bir sıra anlayışların izahını verək.

"Yeni Böyük Oyun" termininin əsasında XIX əsr boyu Böyük Britaniya ilə Rusiya arasında Yaxın Şərq, Qafqaz və Mərkəzi Asiyanın mühüm strateji məkanına nəzarət uğrunda aparılan mübarizəni əks etdirən "Böyük Oyun" (Great Game) anlayışı dayanır (Artur Konollinin məktubları və Redyard Kiplinqin kitabları əsasında). "Yeni Böyük Oyun" isə indiki mərhələdə ABŞ, Rusiya, Çin və bir sıra regional güclərin bütövlükdə Avrasiyaya, o cümlədən Cənubi Qafqaz və Mərkəzi Asiyaya nəzarət uğrunda apardıqları mübarizəni (rəqabəti) ifadə edir.

Burada Avrasiya kontekstinə X. Makinder, Z.Bzejinski, H.Kissincer və başqalarının fikirləri kontekstində baxmırıq. Lakin bizim üçün Z.Bzejinskinin "Azərbaycan Avropa ilə Asiya arasında açar geosiyasi körpüdür" tezisini aksiom kimi qəbul edirik. Yəni bu fikir təkzibi olmayan, coğrafi və geosiyasi baxımdan avtomatik qəbul edilməli yanaşmanı ifadə edir.

Ümumi səviyyədə "Yeni Böyük Oyun" Avrasiyada geosiyasi durumun dinamikasının dəyişməsinə hədəflənmiş bir neçə gücün fəaliyyətlərinin yekun geopolitik effektidir. Yekun mənzərəni siyasi-nəzəri ifadə etmək üçün isə "geosiyasi proses", "dünya siyasi düzəninin transformasiyası", "dünyanın yenidən bölüşdürülməsi", "nüfuz uğrunda fövqəldövlətlərin rəqabəti", "məkan genişlənməsi və sıxılması", "yüksələn nüfuz mərkəzləri" və s. kimi anlayışlardan istifadə olunur. Vurğulanan anlayışların geosiyasi təlimlərdə və politologiyada müəyyən olunmuş məzmunlarından kənara çıxmalar məqalədə yer almamışdır. Eyni zamanda, hazırkı mərhələnin bir sıra xüsusiyyətləri əsasında onlara yeni məzmun çalarları verilə bilər. Bununla nəzəri izahı sonlandırırıq.

Praktiki aspektdə "Yeni Böyük Oyun"un dəyişmə dinamikası dedikdə hazırda müşahidə edilən geosiyasi trendlərin qarşılıqlı münasibətləri fonunda Yaxın Şərq-Qafqaz-Mərkəzi Asiya geosiyasi "zəncirində" özünü göstərən proseslərin qarşılıqlı təsirlərinin yekun mənzərəsi nəzərdə tutulur. Bu məqam Azərbaycan Respublikasının müstəqil dövlət kimi artıq hətta "Yeni Böyük Oyun" səviyyəsində təsiri olan geosiyasi aktor statusunda olduğu tezisimizə əsaslanır.

### Qlobal trendlər: Azərbaycanın geosiyasi statusu

Bu tezis müasir mərhələdə Böyük Oyunda təbii və insan resursları uğrunda mübarizənin daha da aktuallaşmasına əsaslanır. Azərbaycan həm təbii resurslar, həm də insan kapitalı uğrunda aparılan mübarizədə təsirli mövqeyə malikdir. Praktika göstərir ki, rəsmi Bakı Avropadan tutmuş Uzaq Şərqə qədər geniş bir məkanda təbii resurslardan istifadə, onların nəqli, logistikası və başqa aspektlərdə kifayət qədər fəal mövqe tutmaqdadır. Bakının təsiri davamlı olaraq bu istiqamətlərdə artır.

Paralel olaraq, Azərbaycan insan kapitalı sferasında yeni səviyyədə regionlararası miqyasda təsirə malikdir. Həmin kontekstdə Azərbaycanın BMT, Qoşulmama Hərəkatı, Türk Dövlətləri Təşkilatı, COP platforması kimi mühüm istiqamətlərdə humanitar xarakterli ədaləti təmin etmək, dövlətlərin hüquqlarının qorunması (məsələn, müstəmləkəçiliyə qarşı mübarizə) istiqamətində apardığı mübarizə xüsusi önəm kəsb etməkdədir.

Bunun fonunda bütövlükdə Avropa-Yaxın Şərq-Cənubi Qafqaz-Mərkəzi Asiya geosiyasi məkanında Bakının həyata keçirdiyi qarşılıqlı paylaşma, yardımlaşma və bərpa işlərində fəal iştirak xətti əhəmiyyətlidir. Türkiyədə zəlzələdən zərər çəkənlərə yardımlar, onlar üçün binaların tikilməsi, Gürcüstana hərtərəfli dəstəyin verilməsi, Ukraynaya humanitar yardımların davamlı olaraq göstərilməsi, Suriyaya humanitar yardım karvanının göndərilməsi və həmin ölkədə də bərpa-quruculuq prosesində iştirak əzmkarlığı və s. kimi faktlar inkaredilməzdir.

Azərbaycan praktiki olaraq Mərkəzi Asiya və Avropa istiqamətində geosiyasi çəkisi yüksək olan addımları ardıcıl olaraq atır. Son olaraq Serbiyanın Azərbaycan qazına olan ehtiyacının çətinliklərə və maneələrə baxmayaraq, rəsmi Bakı tərəfindən məsuliyyətlə diqqətə alınması nümunəvi geosiyasi addım kimi qəbul edilməlidir.

Gürcüstan rəhbərliyi seçkidən sonra ilk olaraq Azərbaycanla geniş tərkibli əməkdaşlıq müqavilələri imzalamışdır. Onların məzmununda humanitarlıq, qarşılıqlı faydalı əməkdaşlıq, sabitliyin təmini, nəqliyyat-kommunikasiya infrastrukturunun yeni səviyyəyə yüksəldilməsi, təhlükəsizlikdə əməkdaşlıq əsas yer tutur.

Bunların fonunda Azərbaycan Respublikasının türk dövlətləri təşkilatı çərçivəsində fəaliyyətinin humanitar, əməkdaşlıq istiqamətlərinin əhəmiyyəti ayrıca görünür. Bakı faktiki olaraq Türk Dünyasının aparıcı dövləti kimi geosiyasi kontekstdə xalqların əməkdaşlığı, rifahı, insan faktorunun ön plana çıxarılması və qarşılıqlı yardımlaşma prosesini motivə edərək onların geosiyasi sabitlik və təhlükəsizlik sferaları ilə vəhdətinə nail olmuşdur!

Müstəqil dövlət üçün kifayət qədər ciddi nailiyyətdir. Onun politoloji təhlili vacibdir. Bu bağlılıqda indi müşahidə edilən qlobal trendlərin ümumi siyasi, geosiyasi və praktiki xüsusiyyətləri üzərində dayanaq.

### Amerika: "məqsədli destruktivlik"?

Belə bir fikir vardır ki, Vaşinqton müəyyən regionlarda gərginliyin artırılmasına, böhranların artmasına, hərbi toqquşmaların davam etməsinə təkan verən addımlar atır. Bu, bir tərəfdən, konkret regionlarda (o cümlədən Cənubi Qafqazda) qeyri-müəyyənliyi və həyəcanı artırır, digər tərəfdən isə başqa regionlarda sabitliyin pozulmasına təsir edə bilir.

Nümunə kimi, ABŞ-ın hələ də Suriyada müəyyən terror qruplarına dəstəyi davam etdirməsini və Cənubi Qafqazda hərbi kontingent yerləşdirmək haqqında informasiyalar yayılmasını göstərmək olar. Ayrıca, Uzaq Şərq istiqamətində ABŞ–Çin qarşıdurması yeni intensivlik alır. Ukrayna-Rusiya hərbi toqquşmasında proseslərin dinamikası aydın deyildir.

Bunlar dünyanın ən güclü dövlətinin qlobal miqyasda "məqsədli destruktivlik" xəttini seçdiyinimi təsdiq edir? Eyni zamanda, bu, tendensiyadır, yaxud artıq trenddir? Məsələnin bu tərəfi bizi xüsusilə Cənubi Qafqaz kontekstində çox maraqlandırır. Əgər Amerika vurğulanan anlamda geosiyasi xəttini bizim regionda hərbi kontingenti yerləşdirməyi birbaşa Ermənistanla strateji tərəfdaşlıq xartiyası bağlılığında davam etdirməkdə israrlı olsa, yuxarıda işarə etdiyimiz anlamda trenddən danışa bilərik.

Təəssüf ki, bunun belə olmayacağına təminat verə biləcək əlaməti hələlik görə bilmirik. Vaşinqton və İrəvan amerikan hərbi kontingentinin adını "gömrük və sərhəd mühafizəsi komandası" qoyması prosesin mahiyyətini dəyişmir. Çünki öncədən bu ifadənin məzmununa regionda ayırıcılıq ruhu qoyulmuşdur. Amerika Ermənistan gömrük və sərhədini kimlərdən qorumaq arzusundadır? Burada öncədən məqsədli destruktivlik olmasa, əsas olaraq birləşdiricilikdən, sabitlikdən, əməkdaşlıqdan bəhs edilərdi.

O cümlədən, real olaraq məqsəd regionun bütövlükdə sabitliyi, təhlükəsizliyi və inkişafına nail olmaqdırsa, onda bölgənin hər bir dövlətinin maraqları nəzərə alınmalı idi. ABŞ bir tərəfdən Gürcüstanı hədələyir, digər tərəfdən, Azərbaycana qarşı Ermənistanı dəstəkləyir və həm də İrəvanda aqressiv əhval-ruhiyyəni artıran addımlar atır. Vaşinqtonun regionda məhz Ermənistanı strateji tərəfdaş seçməsi bunun əlamətidir.

### Avropa İttifaqı: genişlənmə siyasəti trend kimi

Hiss olunur ki, rəsmi Brüssel özünün genişlənmə siyasətinə yeni nəfəs verməyə çalışır. Bunun fonunda Ermənistan parlamentinin Aİ-yə üzv olma iddiası diqqət çəkir. Baş nazir N.Paşinyan da rəsmi olaraq buna dəstək verir. Deməli, Aİ Cənubi Qafqazın bir ölkəsini heç bir real əsas olmadan öz himayəsinə götürmək iddiasını açıqlamışdır. Bir qədər öncə bu keyfiyyətdə Gürcüstanı görürdülər, hətta Tbilisi ilə dnaışıqların aparılmasından dəm vururdular. Gürcüstanda seçkiöncəsi vəziyyət və onun nəticələri fonunda isə Brüsselin mövqeyi tam dəyişdi – indi Gürcüstan "demokratik deyildir", "avtoritar rejimlərin yanındadır" və buna görə də arzuolunan deyil. Buna paralel olaraq sosial, iqtisadi, siyasi, idarəetmə və digər aspektlərdə uğurlu olmayan, yeni heç bir dəyəri ortaya qoya bilməyən Ermənistan Aİ-yə "layiq" olmuşdur!

Cənubi Qafqaz kontekstində bu gedişat Avropa İttifaqının genişlənmə siyasətini daha böyük miqyasda özünün strateji geosiyasi məqsədlərinə sırf eqoistik dövlət identikliyi kontekstində həyata keçirməyə qərar verdiyini göstərir. Eqoistik dövlət identikliyi (A.Vendt) dövlətin beynəlxalq münasibətlərdə əməkdaşlıq, sabitlik və kollektiv təhlükəsizliyə deyil, sırf eqostik maraqlarının təmininə istiqamətləndirdiyini ifadə edir.

Belə çıxır ki, Avropa İttifaqı qlobal miqyasda özünün geosiyasi statusunu yüksəltmək naminə Cənubi Qafqazda eqoistik mövqe tutmağa üstünlük verməkdədir. Bu mövqeyin də keçici olduğuna dəlalət edən fakta rast gəlmirik.

### Rusiya və İran: geosiyasətin "nostalji trendi"

Söz yox ki, Rusiya və İran kollektiv Qərb və İsrail tərəfindən küncə sıxışdırılmışlar. Moskva və Tehran bu vəziyyətdən çıxmaq üçün ölüm-qalım savaşı verirlər. Onun təzahürlərindən biri Rusiyada strateji tərəfdaşlıqla bağlı sənədin imzalanmasını göstərmək olar. Bu sənədin müəmmalı cəhətlərindən danışılır. Orada tərəflərin həqiqi mənada strateji tərəfdaş olmalarından çox, birinə təcavüz olarsa, digərinin təcavüzkara dəstək verməməsi öhdəliyi vardır. Bundan başqa, hərbi sahədə əməkdaşlıq məqamı mövcuddur.

Belə alınır ki, son bir neçə əsrdə Cənubi Qafqaza təsirləri böyük olan bu iki güc keçmiş vaxtların nostaljisi xəyalı ilə sənəd imzalamışlar – nə risk edib Qərbin qarşısına çıxa bilirlər, nə də ötmüş nüfuzdan imtina etmək niyyətində deyillər. Bu da iki dövlətin geosiyasi kontekstdə tərəddüdlü mövqe tutmasından xəbər verir. Bu isə Böyük Oyunda qeyri-müəyyən mövqedə olmaq anlamına gəlir. Həm də Cənubi Qafqaz dövlətlərinə münasibətdə Rusiya ilə İranın yanaşmasında ciddi fərqlər mövcuddur. Deməli, həmin dövlətlərin Cənubi Qafqaz üçün faydalı əməkdaşlıq edə bilməsi ehtimalı yüksək deyildir. Bu, daha çox qısa müddətli geosiyasi dividentlərə hesablanmış mövqedir. Əlbəttə, Böyük Oyunda belə bir mövqeni konstruktiv adlandırmaq çox çətindir.

### 3 trendin "geosiyasi kəsişmə sahəsi"

Cənubi Qafqazda vurğulanan trendləri hazırda birləşdirən ortaq geosiyasi faktor mövcuddurmu? Bizcə, mövcuddur və təəssüf ki, geosiyasi aspektdə müsbət qiymətləndirilə bilən amil deyildir. Diqqət etsək, görərik ki, ABŞ, Aİ, Rusiya və İranın yaratdıqları geosiyasi trendlərdə Cənubi Qafqazın maraqları ikinci plana atılır. Onlar üçün başlanğıc regionda özlərinin maraqlarının təmini ilə bağlıdır. Bu təminatın fonunda regional maraqları qiymətləndirməyə çalışırlar. Belə yanaşmada regional faktorlar kənar geosiyasi aktorların istəklərindən asılı olur – onlara sərf edənə müsbət, sərf etməyənə mənfi qiymət verirlər.

Geosiyasətdə bu yanaşma mütləq surətdə risklərə, qeyri-müəyyənliyə və parçalanmağa aparıb çıxarır.

Vurğulanan trendlər üçün başqa ortaq xüsusiyyət sabit və qalıcı təhlükəsizlik modelinin yoxluğu ilə bağlıdır. Əgər geosiyasi aktorların ortaq təhlükəsizlik anlamı yoxdursa, onların regionda mübarizəsi əsas olaraq qarşıdurmaya, konfrontasiyaya və toqquşmalara istiqamətlənəcək. Bu mənada yuxarıda vurğuladığımız 3 trendi riskli adlandırmaq olar.

Ancaq geosiyasi aspektdə xoşbəxtlikdən regionun ümumi geosiyasi mənzərəsi bununla məhdudlaşmır.

*Füzuli QURBANOV,*
*XQ-nin analitiki,*
*fəlsəfə elmləri doktoru*

# Trampın andı – Makronun "Hitlerliyi" və Hüqonun Avropası

*ABŞ "köhnə qitə"ni Fransanın ambisiyaları ilə baş-başa buraxır?*

**Viktor Hüqo deyirdi ki, avropalılar arasında istənilən müharibə vətəndaş müharibəsidir. Əlbəttə, Hüqo Avropanın təəssübünü çəkirdi və istəmirdi ki, qitədə savaş baş qaldırsın. Görünür, müharibənin mövcud məkanı necə bir acınacaqlı hala salacağını bilirdi və rasional düşünürdü. Ona görə də Fransanın xaricdəki ekspansiyalarına haqq qazandırırdı. Hətta o qədər güclü haqq qazandırırdı ki, ölkəsinin müsəlmanalara qarşı həyata keçirdiyi vəhşilikləri açıq şəkildə təqdir etməyi də yaddan çıxarmırdı.**




Deyəsən, Fransa Prezidenti Emmanuel Makron da qitədaxili müharibə perspektivindən qaçmaq fikrindədir. Onun söylədikləri Avropanın konsolidasiyasına xidmət təsiri bağışlayır. Yəni, vəhdət olmasa, daxili müharibə qaçılmazdır. Nəzərə alaq ki, Avropada müharibə və münaqişə ocaqları, kifayət qədərdir. Əlbəttə, Makron bilavasitə bunu bildirmir. O, loru dildə desək, ABŞ-ın əlini qitənin üzərindən götürməsindən söz açır və belə bir vəziyyətin müsbət heç nə vəd etmədiyini, əksinə çətinliklər yaradacağını vurğulayır. Niyə?

Çünki İkinci Dünya müharibəsindən sonra Avropa özünün təhlükəsizlik parametrləri barədə yetərincə düşünmədi. Düşünməyi, böyük ölçüdə, Birləşmiş Ştatların öhdəsinə buraxdı. Onu da nəzərə alaq ki, E.Makron fikirlərini ABŞ Prezidenti Donald Trampın vəzifə səlahiyyətlərinin icrasına başlaması ilə eyni vaxtda açıqlayıb. Özü də hərbçilər qarşısında çıxış etməklə. Fransız liderin nələrdən söz açdığına diqqət yetirəcəyik. Ancaq əvvəlcə Trampın bildirdiklərinin üzərində dayanaq. Tramp inauqurasiya nitqində deyib ki, Amerikanın qızıl dövrü indi başlayır.

İlk baxışdan, Birləşmiş Ştatların yeni-köhnə liderinin söylədikləri sanki pafos pəncərəsindən verilən bəyanatdır. Hərçənd, bu qənaətə gəlməmək üçün əsaslar yetərincədir. Çünki Tramp özünü, belə demək mümkünsə, itirilmişlərin bərpasına kökləyir və bəzi həqiqətləri açıqlayır: "Bu gündən ölkəmiz çiçəklənəcək və bir daha dünyada hörmət qazanacaq. Bütün dövlətlər bizə həsəd aparacaq. Biz imkan verməyəcəyik ki, öz maraqları naminə bizdən istifadə etsinlər".

E.Makron isə Avropanın hazırda ABŞ üzərinə köklənmiş təhlükəsizlik sisteminin əhəmiyyətini itirdiyinin fərqindədir. Belə bir durumda qitənin təmərküzləşməsinə, daxili müqavimətinin formalaşdırılmasına ehtiyac var. Deməli, Avropa yaşamaq uğrunda mübarizəyə qalxır. Mübarizə orta əsrlər xarakteri almasa, daxili çəkişmələr başlayacaq. Yəni, V.Hüqonun təsvir etdiyi durum formalaşacaq. Səriştəsiz Makron nəyi bilməsə də, bunu dərk edir. Çünki ölkəsindəki vəziyyət son dərəcə acınacaqlıdır. Bu səbəbdən Fransa neokolonializmdən əl çəkmir. Makron öz ordusu qarşısındakı çıxışında isə Avropanı "ayılmağa" və müdafiəyə (əslində hücuma) çoxlu pul xərcləməyə çağırıb. Fransız liderin verdiyi başlıca sual isə budur: "Amerikalı müttəfiqimiz Aralıq dənizindən hərbi gəmilərini geri çəksə, sabah Avropada nə edəcəyik?"

Daha sonra Makron bildirib ki, "gəlin özümüzü aldatmayaq", Ukraynadakı müharibə "sabah və ya o biri gün" bitməyəcək. Bu, nə deməkdir? Məlumdur ki, D.Tramp Rusiya-Ukrayna müharibəsinin başa çatmasının tərəfdarıdır. O, savaşı ABŞ-ın maraqları baxımından qeyri-məqbul saydığını açıqlayıb. Tramp, həmçinin, müharibənin qlobal xarakterinin olduğu düşüncəsindədir. Belə qənaətə gəlmək mümkündür ki, onun "kimlərinsə ABŞ-dan öz maraqları naminə istifadə etməsi" məntiqi məhz Avropanın savaşdan qazanc əldə etdiyinə işarədir. Tramp loru dildə desək, təxminən bunu deyir: Amerika nə üçün "köhnə qitə" naminə çarpışmalıdır? Axı onun öz problemləri var. Yeri gəlmişkən, Tramp andiçmə nitqində problemlər barədə də söz açıb.

ABŞ Prezidentinin Qrenlandiyanı Birləşmiş Ştatlara ilham etmək istəməsini bilirik. İndi Panama da bu sıradadır. Üstəlik, Tramp milli fövqəladə vəziyyət elan etdiyini və ABŞ qoşunlarını ölkənin cənub sərhədlərinə göndərdiyini vurğulayıb. Deməli, Vaşinqton milli maraqlar bucağını daraldır. Hesab edir ki, təhlükə uzaqda - İraqda, Əfqanıstanda və dünyanın hansısa digər bölgəsində deyil, yaxındadır və ölkənin sərhədləri möhkəmləndirilməlidir. Möhkəmləndirilməlidir ki, qeyri-qanuni miqrant axını olmasın. Axı bu axın ABŞ-ın iqtisadi sitеminə ciddi zərər vurur.

Əlbəttə, düşünmək olmaz ki, Birləşmiş Ştatlar dünya ağalığından, qlobal iddialardan kənar duracaq. Tramp da bunu demir. O, sadəcə, iddianın yeni formulunu irəli sürür. Bu formula görə, ABŞ daxili çətinliklərini aradan qaldıracaq, məsələn, ölkənin "Ədliyyə Nazirliyinin siyasi sui-istifadələrinə son qoyulacaq", ədalət və suverenlik təhlükəsizliyi bərpa olunacaq, "biz əmin olacağıq ki, Amerika həmişə birinci yerdədir" (iqtisadiyyatda, siyasətdə və sair – red.). Daha sonra isə ABŞ daha da böyüyəcək və "tarixdə heç vaxt olmadığı qədər güclü dövlətə çevriləcək". Nəhayət, Trampın düşüncəsinə görə, "milli uğurun yeni dövrünə başlamaq" ölkəyə dəyişiklik dalğası gətirəcək və bu, "bütün dünyanı bürüyəcək", "Amerika tarixdə heç vaxt olmadığı qədər imkanlardan istifadə edəcək". İndilik isə "qarşılaşdığımız problemləri təhlil etməliyik", "biz onların öhdəsindən gələcəyik. Bu, qürurlu ABŞ adımızı geri qaytarmağımıza imkan verəcək". Bəs D.Tramp hansı səbəbdən belə düşünür? Çünki onun fikrincə, Birləşmiş Ştatların sabiq idarəçilik komandası hakimiyyəti xalqın əlindən alıb, cəmiyyətin strukturu dağıdılıb: "Ölkə daxilində böhranın öhdəsindən gələ bilməyən hökumətimiz var idi. Biz həmçinin xaricdə baş vermiş bir sıra fəlakətli hadisələri qeyd edə bilərik".

Məlumdur ki, ABŞ-ın yeni Prezidenti üçün xaricdəki fəlakət Rusiya-Ukrayna müharibəsidir. Əvvəldə də bildirdik ki, Tramp bu savaşı dayandırmağın vacibliyini vurğulayıb. Ancaq Makronun ordu qarşısındakı çıxışına diqqət yetirəndə təsəvvür formalaşır ki, Fransa müharibənin dayanmasını istəmir. Ona görə də Avropanın ABŞ olmadan hansı tərzdə davranacağının anonsunu verir. Bu, müharibə ritorikasını təbliğ etməkdir. Mövcud təbliğatda "köhnə qitə"nin öz müdafiəsi üçün üzərinə daha çox məsuliyyət götürməsinə çağırış yükü və əlbəttə ki, ucuz populizm var: "Avropalılar olmadan Avropada sülh və təhlükəsizlik ola bilməz".

Əlbəttə, Makron Hüqo deyil, Avropanın təəssübünü çəkmir və qitəni ikincinin barəsində danışdığı daxili müharibə aqibətindən xilas etmək barədə düşünmür. Mümkündür ki, bu perspektivi ağlının ucundan da keçirmir. O, sadəcə belə demək mümkünsə, ABŞ-sızlığı görür, özünün sərsəm ambisiyasını həyata keçirməyə çalışır və bir növ, Napoleonluq iddiasına düşür. Ukrayna müharibəsinin davamı ilə bağlı çağırış da ambisiyadan qaynaqlanır. Görəsən, Napoleon Fransasının yekunda hansı hala düşdüyünü bilmirmi?

Bəs ABŞ nəyi düşünür? Əlbəttə, durumdan maksimum dərəcədə uduşlu çıxmağı. İkinci Dünya müharibəsindən sonra da belə olmuşdu. Avropa fazişmin öldürücü təsiri altında qalmış, SSRİ Hitler Almaniyası ilə mübarizədə böyük enerji sərf etmişdi. Birləşmiş Ştatlar Avropanı dirçəltmiş, eyni zamanda Sovetlər Birliyinə qarşı mübarizə aparmışdı və nəticədə SSRİ-nin süqutu reallığı formalaşmışdı. Amma fakt faktlığında qalır ki, süqut müharibə nəticəsində baş verməmişdi. İndi də görünən budur ki, Ukrayna müharibəsi Rusiyanın məhvi reallığını doğurmur. Tramp bunu bilir və ABŞ-ı müharibədən uzaq tutur. Napoleona oxşamağa çalışan Makron isə faktiki olaraq Hitler kimi davranır və qitənin potensialının hərbi xərclərə yönləndirilməsini təklif edir, Birləşmiş Ştatlarsız mövcudiyyət formuluna əsaslanaraq silahlanmanı və güclənməni irəli sürür.

Deməli, fransız lider Avropanı müstəqil surətdə Rusiyaya qarşı qoymağa çalışır. Rusiyaya gəldikdə, ölkə qitəyə qaz nəqlini dayandırırsa, özünün real təsir rıçaqlarını işə salır. Üstəlik, Rusiya Prezidenti Vladimir Putinin Avropa paytaxtlarında bombaların partlayacağına dair hədəsini yada salaq. Nəticədə gözlərimiz önündə İkinci Dünya müharibəsindən sonra xarabazara dönmüş Avropa şəhərləri canlanır.

Belə düşünmək olar ki, Tramp ilə daxili problemləri yoluna qoyacaq, itirdiklərini kontinental maraqların bərpası – Panamaya sahiblənmək və sair hərəkətlərdə bərpa edərək güclənəcək ABŞ Avropanı Rusiyanın əlindən xilas etməklə, özünün böyüklüyünü göstərmək istəyəcək. Yəni, bunu Ukrayna müharibəsinin qlobal təsirlərinə son qoyaraq edəcək və İkinci Dünya müharibəsindən sonra olduğu kimi, zəifləmiş, gücdən düşmüş "köhnə qitə"yə himayədarlıq yolu tutacaq. Əlbəttə, "soyuq müharibə" dövrünü bərpa edərək Rusiyanın məhvinə də çalışacaq. İndiki halda isə bu mümkünsüzdür. Çünki Tramp Birləşmiş Ştatların özündən əvvəlki administrasiyasının hər şeyi bərbad kökə saldığı qənaətindədir.

Bəli, əvvəl səsləndirdiyimiz məqama qayıdaraq deyək ki, Makronun söylədikləri Avropanın öz təhlükəsizliyinin qayğısına qalması deyil. Çünki onun bildirdiklərinə ambisiya ruhu hakimdir, praqmatizm yox. Fransa prezidenti ötən əsrin 80-90-cı illər Avropasının siyasi liderlik ənənələrini heçə endirib. Halbuki, həmin liderlər bu məkanın, müəyyən mənada, ayaqda qalmasını təmin edirdilər və get-gedə ABŞ-dan olan asılılığı aradan qaldırırdılar. İkinci Dünya müharibəsindən sonrakı Avropa o qədər güclü inkişaf yoluna düşmüşdü ki, sərhəd anlayışı aradan qalxdı. Vahid Avropa evi ideyası möhkəmləndi. Bu, Avropa liderlərinin bacarığı idi. Hərçənd, əvvəldə də bildirdik ki, mövcud istiqamətdəki səylər "köhnə qitə"nin müstəqil təhlükəsizlik sistemini formalaşdırmadı.

Bəli, Trampın təhlükəsizlik klişesi ilə faktiki olaraq xəyalların Amerikasını dünyadan təcrid etmək mesajlarını verdiyi indiki durumda Avropa siyasi liderlik böhranı yaşayır. Nəticədə avantürist Makron boş qalmış müqəddəs yeri sərsəm baxışları ilə doldurmağa çalışır. Onun irəli sürdüyü formul müharibədir və qitə bu şəxsin sözlərinə uyacaqsa, mövcud məkandakı gərginlik daxili çəkişmə durumu da formalaşdıracaq. Necə? Çox sadə.

Makron Ukrayna müharibəsinin fonunda qılıncı Rusiyaya qarşı qaldırmağa çağırır. Rusiya hərbi gücdən əlavə iqtisadi təsir alətlərini işə salırsa, bildirdiyimiz kimi, Avropaya qaz nəqlini dayandırırsa, demək çətindir ki, soyuqdan donmuş ac avropalı qılıncı kimə qaldıracaq. Avropa şəhərlərinə raket tuşlayacaq Rusiya uzaqdadır, Makronun timsalında Avropanın iflasda olan siyasi liderləri və liderlik institutu isə yaxında. Deməli, arxasında ABŞ-ın dayanmadığı Fransanın siyasi ambisiyasının necə bir durum formalaşdıracağını düşünmək o qədər də çətin deyil. Makron Hüqonun kitablarını oxumayıb, əvəzində Hitleri və Napoleonu ehkamlaşdırsa, deyiləcək başqa söz qalmır.

*Ə.CAHANGİROĞLU*
*XQ*

# Ermənistanın hərbi təcavüzü nəticəsində çoxsaylı cinayətlər törətməkdə təqsirləndirilən şəxslərin məhkəməsi davam etdirilir

**Yanvarın 21-də Ermənistan dövləti və onun silahlı qüvvələri, o cümlədən Ermənistan tərəfindən vaxtilə Azərbaycanın işğal olunmuş ərazilərində yaradılmış qondarma "Dağlıq Qarabağ respublikası" və onun qanunsuz silahlı birləşmələri tərəfindən Azərbaycana və Azərbaycan xalqına qarşı sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, o cümlədən təcavüzkar müharibə aparma, soyqırımı, əhalini məcburi köçürmə, təqib, işgəncə, hərbi soyğunçuluq və digər qanunsuz əməllərə dair cinayət işi üzrə açıq məhkəmə hazırlıq iclası davam etdirilib.**



Bakı Məhkəmə Kompleksində yerləşən Bakı Hərbi Məhkəməsində hakimlər Zeynal Ağayevin sədrliyi, Camal Ramazanovdan və Anar Rzayevdən ibarət tərkibdə keçirilən məhkəmə iclasında təqsirləndirilən şəxslər erməni dilində tərcüməçilərlə, habelə müdafiə üçün vəkillərlə təmin olunub.

Prosesdə zərərçəkmiş qismində tanınmış 531 mindən artıq şəxsdən 350 nəfəri iştirak edib.

Budəfəki məhkəmə prosesində müdafiə tərəfinin vəsatətlərinə baxılıb.

Məhkəmədə Davit Babayanın vəkili vəsatətlə çıxış edib. O, müdafiəçisi olduğu şəxslə konfidensial görüş verilməsini xahiş edib. İttiham tərəfi vəsatətə etiraz etməyib.

Hakim Davit Babayanın vəkilinin vəsatətini təmin edib və konfidensial görüş üçün məhkəmədə fasilə elan olunub.

Fasilədən sonra təqsirləndirilən şəxslərin əksəriyyətinin vəkilləri müdafiə etdikləri şəxslərin barəsində həbs qətimkan tədbirlərinin ev dustaqlığı ilə əvəz olunmasını xahiş ediblər.

Dövlət ittihamını müdafiə edən prokuror vəsatətlərə münasibət bildirərək təqsirləndirilənlərin şəxsiyyətinin, onların ittiham olunduqları əməllərin ağırlığının və xarakterinin, habelə həbsin ev dustaqlığı ilə əvəz olunmasının obyektiv məhkəmə baxışının aparılmasına mane olacağını nəzərə alaraq, qətimkan tədbirinin dəyişdirilmədən saxlanmasını və vəsatətin təmin olunmamasını xahiş edib.

Daha sonra zərərçəkmiş şəxslərin nümayəndələri və zərərçəkmiş şəxslər, o cümlədən Azərbaycan dövləti adından zərərçəkmiş qismində Nazirlər Kabineti Aparatının rəhbəri Rüfət Məmmədov çıxış edərək vəsatətlərin təmin olunmamasını və təqsirləndirilən şəxslərin həbsdə qalmasını xahiş ediblər.

Zərərçəkmişin nümayəndəsi Arzu Cavadov deyib ki, ölkədəki təcridxanalarda kifayət qədər savadlı həkimlər var: "Kifayət qədər dava-dərmanla təchiz olunub. Vaxtlı-vaxtında tibbi yardım göstərilir... Qətimkan tədbirinin dəyişdirilməsi ilə bağlı heç bir prosessual əsas yoxdur... Beynəlxalq Qırmızı Xaç Komitəsi tərəfindən onların sağlamlığı nəzarətdədir. Buna görə də məhkəmədən xahiş edirəm ki, verilmiş vəsatətlər təmin edilməsin".

Zərərçəkmişin nümayəndəsi Şahin Hüseynov deyib ki, təqsirləndirilən şəxslərin ağır və xüsusilə ağır cinayətlərdə ittiham olunduqları nəzərə alınmalıdır:



"Təqsirləndirilən şəxslərin hüququ olduğu kimi, zərərçəkmişlərin də hüququ var. Burada minlərlə zərərçəkənin hüquqlarının müdafiəsindən söhbət gedir. Ev dustaqlığı ilə bağlı verilən vəsatət əsassızdır. Təmin olunmamasını xahiş edirəm".

Zərərçəkmişin nümayəndəsi Cavanşir Məmmədov bildirib ki, təqsirləndirilən şəxslər ölkəni tərk edərkən saxlanılıblar: "Onların məhkəmədən gizlənməsi, ədalət mühakiməsindən yayınması təhlükəsi qalır".

Hakim Zeynal Ağayev təqsirləndirilən şəxslərin hər birinə vəsatətlərə münasibət bildirmək üçün söz verib.

Təqsirləndirilən şəxs Arayik Harutyunyan digər təqsirləndirilənlərdən fərqli olaraq ev dustaqlığına buraxılması barədə vəkili və ya özü tərəfindən vəsatət verilmədiyini, eləcə də səhhəti ilə bağlı şikayətinin olmamasını qeyd edib: "Sağlamlıqla bağlı problem olduqda təcridxanada həll olunur. Ümumiyyətlə, digər təqsirləndirilən şəxslərdən sağlamlıqları ilə bağlı şikayət eşitməmişəm".

İttiham olunanlar Arkadi Qukasyan, Bako Sahakyan, Melikset Paşayan, Davit Allahverdiyan vəsatətlərin təmin olunaraq ev dustaqlığına buraxılmalarını xahiş edib.

Digər təqsirləndirilən şəxslər vəsatətin təmin olunub-olunmamasını məhkəmənin mülahizəsinə buraxıb.

Məhkəmənin növbəti iclası yanvarın 27-də keçiriləcək və həmin prosesdə vəsatətlərlə bağlı qərarlar elan olunacaq.

Xatırladaq ki, Ermənistan Respublikası və onun silahlı qüvvələri, o cümlədən Ermənistanın yaratdığı qanunsuz "Dağlıq Qarabağ respublikası" və onun qanunsuz silahlı birləşmələr tərəfindən törədilən cinayətlərdə ittiham olunan 15 nəfər - Harutyunyan Arayik Vladimiri, Qukasyan Arkadi Arşaviri, Sahakyan Bako Sahaki, İşxanyan Davit Rubeni, Manukyan David Azatini, Babayan Davit Klimi, Mnatsakanyan Levon Henrikoviç, Beglaryan Vasili İvani, Qazaryan Erik Roberti, Allahverdiyan Davit Nelsoni, Stepanyan Qurgen Homeri, Balayan Levon Romiki, Babayan Madat Arakeloviç, Martirosyan Qarik Qriqori, Paşayan Melikset Vladimiriyə qarşı Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 100 (təcavüzkar müharibəni planlaşdırma, hazırlama, başlama və aparma), 102 (beynəlxalq müdafiədən istifadə edən şəxslərə və ya təşkilatlara hücum etmə), 103 (soyqırımı), 105 (əhalini məhvetmə), 106 (köləlik), 107 (əhalini deportasiya etmə və ya məcburi köçürmə), 109 (təqib), 110 (insanları zorakılıqla yoxa çıxarma), 112 (beynəlxalq hüquq normalarına zidd azadlıqdan məhrumetmə), 113 (işgəncə), 114 (muzdluluq), 115 (müharibə qanunlarını və adətlərini pozma), 116 (silahlı münaqişə zamanı beynəlxalq humanitar hüquq normalarını pozma), 118 (hərbi soyğunçuluq), 120 (qəsdən adam öldürmə), 192 (qanunsuz sahibkarlıq), 214 (terrorçuluq), 214-1 (terrorçuluğu maliyyələşdirmə), 218 (cinayətkar birlik (təşkilat) yaratma), 228 (qanunsuz olaraq silah, onun komplekt hissələrini, döyüş sursatı, partlayıcı maddələr və qurğular əldə etmə, başqasına vermə, satma, saxlama, daşıma və gəzdirmə), 270-1 (aviasiya təhlükəsizliyinə təhdid yaradan əməllər), 277 (dövlət xadiminin və ya ictimai xadimin həyatına sui-qəsd etmə), 278 (hakimiyyəti zorla ələ keçirmə və onu zorla saxlama, dövlətin konstitusiya quruluşunu zorla dəyişdirmə), 279-cu (qanunvericiliklə nəzərdə tutulmayan silahlı birləşmələri və qrupları yaratma) və digər maddələri ilə ittiham olunurlar.

***XQ***

# Reyunyonun Fransa zülmündən qurtuluş yolu




**Yanvarın 21-də Bakı Təşəbbüs Qrupunun təşkilatçılığı ilə Fransanın müstəmləkəçiliyi altında olan Reyunyon adasına həsr olunmuş beynəlxalq konfrans keçirilib.**

Əvvəlcə Reyunyon adasına həsr edilmiş videoçarx nümayiş olunub. Sonra çıxış edən Bakı Təşəbbüs Qrupunun icraçı direktoru Abbas Abbasov bildirib ki, Fransanın dünyada 13 koloniyası var. Bu koloniyalardan ikisində insanlar məskunlaşmayıb, digər ərazilərlə əməkdaşlıq edirik. Reyunyon Fransa və Niderland müstəmləkəçiliyindən əziyyət çəkir. Orada insanlığa qarşı amansız cinayətlər törədilib. Bu gün də Reyunyonda müstəmləkəçilik davam edir.

"Ka Ubuntu" müstəqillik hərəkatının sədri Romen Katambara deyib ki, bəzi Afrika ölkələrinin azad olması fikri yanlışdır. Çünki müstəqil ölkənin ərazisində başqa ölkələrin hərbi bazası yerləşmir və onların mədəniyyətinə təsir etmir. O deyib: "Fransa mədəniyyətimizi assimilyasiyaya uğratmaq istəyir ki, kimliyimizi unudaq. Fransanın imperialist siyasəti Reyunyon iqtisadiyyatına mənfi təsir göstərir. Reyunyonda gənclərin əksəriyyətinin təhsilə əlçatanlığı təmin edilməyib. 200 min insan yaşayış yeri problemi ilə üzləşib, 45 minə yaxın insan ev gözləyir. Buradakı böhran iqtisadi müstəmləkə sisteminə çox bağlıdır. Əhalinin sosial-iqtisadi tələblərinə cavab verilmir. Ona görə də özümüz bunu formalaşdırmalıyıq. Fransa Reyunyon əhalisinin azadlıq meyillərinin qarşısını almağa çalışır".

"Ka Ubuntu" təşkilatının Reyunyon bölməsinin koordinatoru Benjamin Kleman bildirib: "1960-cı illərdə Reyunyon adası Fransanın departamenti olaraq ciddi sosial və iqtisadi problemlərlə qarşılaşmışdı. Yerli əhalinin sayı artmaqda davam edirdi ki, bu da adada sosial problemlərin kəskinləşməsinə səbəb olurdu. Fransa Reyunyonda uşaqların öz kimliyini unutması üçün məqsədli şəkildə addımlar atırdı. Belə ki, Reyunyona xas olan Afrika mənşəli adlara malik uşaqlara Fransa metropoliyasına xas adlar verilərək təzə adlarla şəxsiyyət vəsiqələri paylanırdı. 1982-ci ilə qədər davam etmiş bu məqsədyönlü köç nəticəsində öz ailə bağlarını itirmiş uşaqlar çox ciddi psixoloji problemlər yaşayıblar".

Konfransda Milli Məclisin deputatları, müstəmləkəçilik əleyhinə fəaliyyət göstərən təşkilatların rəhbərləri, hüquq müdafiəçiləri, qeyri-hökumət təşkilatlarının rəhbərləri, dekolonizasiya üzrə ekspertlər və tədqiqatçılar Reyunyon xalqının öz müqəddəratını təyin etmək hüququnun tanınmasının aidiyyəti beynəlxalq təşkilatların gündəliyinə çıxarılması istiqamətində görülən işlər və bu xüsusda beynəlxalq hüquqi mexanizmlər barədə müzakirələr aparıblar.

Konfransın yekunu olaraq Bakı Təşəbbüs Qrupu və "Ka Ubuntu" Müstəqillik Hərəkatı arasında Anlaşma Memorandumu imzalanıb. Sənədi BTQ-nin icraçı direktoru Abbas Abbasov və "Ka Ubuntu"nun sədri Romen Katambara imzalayıblar.

Qeyd edək ki, Anlaşma Memorandumu yalnız siyasi müstəvidə deyil, qurumlar arasında təhsil və səhiyyə sahələrində də əməkdaşlığı əhatə edəcək.

***XQ***

# "Böyük manipulyator"

**Ma k ENDEVELD**

*(əvvəli qəzetin ötən saylarında)*

## Makron piyadalarını Ədliyyə Nazirliyində yerləşdirir

Hüquq sahəsində Emmanuel Makron, piyadalarını Daxili İşlər Nazirliyindəkindən daha tez yerləşdirdi. 2017-ci ildə o, şəxsən Ədliyyə Nazirliyinin mərkəzi aparatının üç yeni direktorunu Yelisey sarayına dəvət edir: cinayət və əfv işləri üzrə direktor Remi Hetzi, həbsxana administrasiyasının direktoru Stefan Bredanı və məhkəmə işləri üzrə direktor Peyman Qaleh-Marzbanı. Bir ildən sonra – yeni dərs ilinin başlamasından bir neçə gün sonra baş verən hadisələrdən istifadə edən prezident, ədliyyə naziri Nikol Bellubetin Parisin prokuroru vəzifəsinə təklif etdiyi bir neçə namizədi kənara qoyub, bu vəzifəyə kassasiya məhkəməsinin prokuroru Fransua Molan adlı bir yaxınını təyin edir.

Bundan sonra dövlət başçısı Ədliyyə Nazirliyindəki çox mühüm bir vəzifəyə özünün yeni bir adamını təklif edir: cinayət və əfv işləri üzrə direktor Remi Hetz, prezidentin əmri ilə Ədliyyə Nazirliyi, Respublika Prokurorluğu, eləcə də kassasiya məhkəməsi arasındakı əlaqələrin təmin edilməsinə cavabdeh olan məsul bir vəzifəyə keçir. 1993-cü ildə sağçılar partiyasından olan nazir Paskal Klemantın, eləcə də 2002-ci ildə Baş nazir Jan-Pier Raff aranın müşaviri olan Remi Hetz, nazirliyin ən mürəkkəb və qalmaqallı dosyeləri ilə məşğul olurdu. İndi prezident tərəfindən onun belə bir vəzifəyə təyin olunması, ən azından çox qəribə və ağılasığmaz görünür. Prezidentin bu seçimi hüquqşünasların həmkarlar ittifaqı tərəfindən kəskin tənqid edilir: Onlar bəyan edirlər ki, "icra hakimiyyəti ilə məhkəmə hakimiyyəti arasında heç bir əlaqə olmamalıdır. Heç kəsin şübhəsi yoxdur sədri Fransua Beynel, eləcə də Fiyyon Baş nazir olanda onun ədliyyə məsləhətçiləri və bir sıra digər majistr və hakimlər, Fransua Fiyyonla bağlı qalmaqal ortaya çıxanda və hüquq orqanları tərəfindən onun qanundankənar işlər tutması sübut olunandan sonra ondan üz döndərib Makrona yaxınlaşdılar. "Əvvəllər Fiyyonu dəstəkləyənlərin hamısı indi Makronun ətrafında birləşmişdilər", – deyə atelyenin bir iştirakçısı xatırlayır.

Düzdür, hüquqşünaslar arasında "neytrallıq" var, yəni o sağçılar partiyasındandır, bu solçular partiyasındandır söhbəti, demək olar ki, yoxdur. Bu neytrallıq onların karyeralarının yüksəlməsi üçün vacib şərtlərdən biridir. Makron onlara xalq arasında populyar olan ekstremist solçu Jan-Lük Melenşon və ekstremist sağçı Marin Lö Pen kimi namizədlərin qarşısını kəsən bir divar kimi görünür. Bir sözlə, Makron hüquqşünaslar arasında özünü dəryada balıq kimi hiss edir.

Lap əvvəldən, ədliyyə naziri Nikol Bellubet Benalla məsələsi ilə bağlı fikirlərini heç kimdən çəkinmədən, heç bir kompleks olmadan mətbuatda deyir. Böhranın lap qızğın çağında, müxalifət Milli Assambleyada Benalla problemini "dövlət problemi" kimi qələmə verəndə, ədliyyə naziri onlara qoşulub öz cəbhəsindən olan həmkarları ilə mübahisəyə çıxır. Bundan başqa, Parisin ovaxtkı prokuroru Fransua Molan Benalla işi ilə bağlı polis həmkarlar birliyi tərəfindən tələb olunan sənəd və materialları onlara verməkdən imtina edir. Bu tələb sonradan yeni prokuror Remi Hetz tərəfindən də rədd edilir. Ona görə də prokurorluq istintaq zamanı Aleksandr Benallanın evindəki seyfin sirli şəkildə yoxa çıxması ilə bağlı heç bir araşdırma aparmadı. Qəribə də burasındadır ki, o seyf Benallanın evində aparılan axtarışdan cəmi bir neçə saat əvvəl yoxa çıxdı. (!) Polis həmkarlar birliyinin vəkili Yassin Buzru heç nə başa düşə bilmir: "Biz prokurorluqdan xahiş elədik ki, istintaq müddətini uzatsın, tək may ayının 1-dəki hadisəni yox, 18-20 iyul tarixləri arasında baş verən hadisələri də araşdıraq. Prokuror heç bizə cavab da vermədi, halbuki qanuna görə o bizim xahişimizi qəbul etməliydi!".




ki, onların hər ikisi azad və ayrı olmalıdırlar. Bu fundamental bir nəzəriyyədir...". Bir çox vəkillər prezidentin bu hərəkətini qınayır və öz aralarında kinayə ilə deyirlər ki, "prezident yavaş-yavaş hər şeyi öz əlinə keçirir".

Parisin baş prokuroru kimi Remi Hetz də Fransada ən vacib bir tribunalın – paytaxtın yüksək məhkəmə tribunalının (TGI) cədvəlini təşkil edir. Parisin 17-ci rayonunun Batinyol məhəlləsində yerləşən yeni TGI binasının, zirehli qapıları olan iri bir otağında, məhkəmə qərarını gözləyən yüzlərlə sənəd var. Hər həftə hansı sənədin nə vaxt məhkəməyə göndərilməsinə şəxsən Paris prokuroru özü qərar verir, xüsusən də ən vacib sənədləri – iqtisadi və siyasi-maliyyə sənədlərini 31-ci və 32-ci hüquq orqanlarına göndərir. Nə qədər ki, mühakimə tarixi Parisin baş prokuroru tərəfindən müəyyən edilməyib, heç bir hakim bu sənədlərə baxa bilməz. Ancaq Baş Prokurorluq buna sərəncam verə bilər. Tribunal məhkəmələrinin hansı sənədə nə vaxt və hansı müddətdə baxılacağına qərar verməyə ixtiyarları yoxdur. Hər şey prokuror Hetzin əlindədir, Ədliyyə Nazirliyinin saatını indi bu adam tənzimləyir...

Emmanuel Makronun Ədliyyə Nazirliyinin yüksək iyerarxiyasına özünü soxması ilk dəfə deyil. O, hüquq institutunun incəliklərinə Sarkoziyə yaxın olan bəzi şəxsiyyətlərin köməyi ilə bələd olur. Hələ 2008-ci ildə Rotşild bankında çalışan gənc bankir (Makron) hüquqşünasların komissiyasında məruzəçi kimi iştirak etmişdi. Bu missiya Sarkozi tərəfindən Jan-Mişel Darrua adlı bir hüquqşünasa həvalə edilmişdi. Makron onunla Att ali komissiyasında çalışanda tanış olmuşdu. O vaxt Makron bu komissiyaya digər bir məruzəçi, majistr Kristof İnqran tərəfindən daxil edilmişdi. Bu sonuncu Yelisey sarayında Nikola Sarkozinin ədliyyə müşaviri idi.

Prezidentliyə seçki kampaniyası zamanı namizəd Fransua Fiyyon haqqında qalmaqallı məsələlər ortalığa çıxanda, bir çox hakimlər, hüquqşünaslar və vəkillər, namizəd Makronun proqramını dəstəkləmək üçün hərəsi ayrı-ayrılıqda öz adlarından "Ədalət" tematik atelyesinə daxil oldular. Bu atelye üç nəfər tərəfindən idarə olunurdu: vəkil Julia Minkovski (Benjamin Qrivonun həyat yoldaşı) keçmiş müstəntiq Erik Halfen və Makron iqtisadiyyat naziri olanda, onun ədliyyə müşaviri olan Ksaviye Hüber. Bu atelyenin iştirakçıları arasında xeyli hüquqşünaslar da vardı: Paris məhkəmə tribunalının prezidenti Jan-Mişel Hayat, həmçinin ovaxtkı Paris prokuroru Fransua Molan, eləcə də tanınmış vəkil Rişard Malka və biznes advokatı Jan-Mişel Darrua. Kristian Tobiranın (2012-2016-cı illərdə ədliyyə naziri) keçmiş məsləhətçisi Nail Burişa, Qrenobl şəhərindəki Apellyasiya Məhkəməsinin

2019-cu il maliyyə məsələləri ilə də bağlı xüsusi bir il olacağını vəd edir. Respublika Milli Maliyyə Qurumunun direktoru Elian Huletin mandatı sona yaxınlaşır. Ancaq onun yenidən bu posta qalmağa imkanı var. Bundan əlavə, maliyyə mərkəzindəki müstəntiqlərdən biri Serj Turner son 10 ildə Sarkozinin gördüyü işləri araşdırmaq istəyir. Ancaq bu iş ondan alınıb 32-ci palatanın keçmiş hakimi Benedik Pertüsə tapşırılır. Bu kitab da bağlanır. Hər halda, Nikola Sarkozi və onun dostları buna ümid edirlər... görək, tale nə göstərəcək.

## Vitse-prezident

O, hələ ki fransızların gözündə naməlum bir şəxsdir. 2012-ci ilin may ayında Emmanuel Makron prezident Fransua Hollandın əməkdaşı olur – Yelisey sarayında iqtisadiyyat üzrə baş katibin müavini vəzifəsinə keçir. Rotşild bankının keçmiş əməkdaşı (Makron) özünü o dəqiqə gözə soxmaq istəyir. Bu lap yerinə düşür, çünki hər həftəsonu Fransua Holland ictimai rəydə imicini saxlamaq üçün anketçiləri və digər sorğuçuları qəbul edir. Hollandın prezidentliyinin ilk illərində Emmanuel Makron ancaq prezidentin yaxın çevrəsinin xəbərdar olduğu bu görüşlərdə həvəslə iştirak etsə də, bir müddətdən sonra daha bu iclaslara ayaq basmır. Niyə? Ona görə ki, bu ambisiyalı cavan oğlan (Makron) iddialı və bic həyat yoldaşının məsləhəti ilə özünün imici ilə məşğul olmağa başlayır. 2013-cü ilin payızından etibarən o da öz növbəsində anketçiləri, əhali arasında sorğu aparanları, həmçinin ölkənin biznes liderlərini Yelisey sarayına dəvət edib özünün və həyat yoldaşı Brijitin siyasi gələcəyi haqqında onlarla danışıqlar aparır. Hər bazar axşamı bu cütlüyün (Emmanuel və Brijit Makron) təşəbbüsü ilə Yelisey sarayının şərq qanadındakı zallardan birində gizli görüşlər təşkil edilir. "Ünsiyyət baxımından mən nə etməliyəm ki, bir neçə ildən sonra məni tanısınlar?", – deyə o iştirakçılardan birinə sual verir. Təbii ki, rəsmi olaraq prezident Hollandın ətrafı dəvət olunan anketçilərdən, əhali arasında sorğu keçirənlərdən xahiş edirlər ki, fransız cəmiyyətinin, eləcə də əhalinin əhval-ruhiyyəsi barəsində analizlərini onlara təqdim etsinlər ki, prezident reallıqdan nəticə çıxarıb 5 illik mandatına yeni bir nəfəs versin...

**(ardı var)**

# İz azdırmaq oyunu

## *Rusiyada bəzi şəxslərin “AZAL”ın qəzaya uğramış təyyarəsi ilə bağlı cəfəng fikirlərini başqa cür şərh etmək mümkün deyil*

**2024-cü il dekabrın 25-də səhər saatlarında Bakı-Qroznı marşrutu üzrə J2-8243 saylı sərnişin reysini həyata keçirən “Azərbaycan Hava Yolları” Qapalı Səhmdar Cəmiyyətinin “Embraer E190” təyyarəsinin Qazaxıstanın Aktau hava limanı yaxınlığında qəzaya uğramasına Rusiyadan verilən rəsmi və qeyri-rəsmi reaksiyalar qətiyyən adekvat sayıla bilməz.**

Rusiyanın xarici işlər naziri Sergey Lavrov yanvarın 14-də keçirdiyi illik mətbuat konfransında Moskva və Bakının istənilən məsələləri həll edə biləcəyini bildirdi. Maraqlıdır ki, o, buna misal olaraq İkinci Qarabağ müharibəsində səhvən Rusiya vertolyotunun vurulmasını, Azərbaycan təyyarəsinin qəzaya uğramasını göstərdi. S.Lavrov jurnalistləri Bakı–Qroznı reysini yerinə yetirən təyyarənin qəzaya uğraması ilə bağlı araşdırmanın nəticələrini gözləməyə və facia haqqında məlumat yaymamağa (?) çağırdı. O, həmin məlumatların “qara qutu”ların məlumatları ilə faktiki olaraq təsdiqini tapmadığını (?) söylədi. Rusiya XİN rəhbəri bildirdi ki, Aktauda qəzaya uğrayan təyyarənin “qara qutu”ları çox maraqlı (?) məlumatlar verib. Onun sözlərinə görə, bu təhqiqat başa çatana qədər gözləmək vacibdir və “qara qutu”ların məzmunu bütövlükdə, hazırda fəlakətlə bağlı mətbuatda yayılan versiyaların çoxunu təsdiqləmir. S.Lavrov Azərbaycan tərəfinin təyyarə qəzasının araşdırılmasında Rusiya tərəfinin iştirakını dəstəkləməsini Moskvanın qiymətləndirdiyini də sözlərinə əlavə etdi.

Bundan sonra Rusiyada bəzi siyasi ekspertlər, media orqanları və teleqram kanalları təyyarə qəzası ilə bağlı müxtəlif ehtimallar və fərziyyələr irəli sürməyə başladılar. Bu istiqamətdə “Baza” teleqram kanalını xüsusi qeyd etmək lazımdır. Bir neçə gün öncə həmin teleqram kanalında təyyarənin ekipajının Rusiya və Qazaxıstandakı hava limanlarında dispetçerlərlə danışıqlarının yazısının stenoqramını dərc edib. Bu məlumatın dərhal ardınca “yuxarıdan” ötürülən narrativlər əsasında Rusiya media məkanında çox sayda məqalələr dərc edildi. Müəlliflər sevincək olaraq bir ağızdan bildirirlər ki, “şifrənin açılması Bakının səhv olduğunu göstərdi”. Onlar sanki bir-biri ilə yarışa giriblər. Yeri gəlmişkən, heç də təəccüblü deyil ki, necə deyərlər, bu dalğa Ermənistanda dərhal tutuldu və onlar da eyni tonda, necə deyərlər, ağız-ağıza verməyə başladılar. Teleqram kanallarından biri hətta, bu paylaşımdan sonra Bakının Moskvadan onun barəsində yayılan “böhtana” görə üzr istəyib-istəməyəcəyini istehza ilə soruşmağa başladı.

Əlbəttə, “Baza”nın bu danışıqları necə, haradan əldə etməsi sual doğuran məsələdir. Yayılan bu məlumatın təyyarənin ekipajına aid olması məsələsi də mübahisəlidir. Guya, təyyarənin “qara qutu”sunun deşifrə olunmasının Azərbaycanın mövqeyinin əksini sübut etdiyinin bildirilməsinin də heç bir əsası yoxdur. Qazaxıstanlı politoloq Dimaş Aljanov da bu fikirdədir. O bildirib ki, təyyarənin ekipajı ilə Rusiya hava limanlarının yerüstü xidmətləri arasında, guya, baş tutmuş danışıqların dərc



edilməsi Qazaxıstan və Azərbaycana qarşı əsl informasiya təzyiqi aktıdır. Onun sözlərinə görə, pilotlarla yerüstü xidmətlərin deşifrə edilmiş danışıqları rəsmi təsdiqini tapmayıb: “Bu cür deşifrələrin meydana çıxması araşdırmanı aparan Qazaxıstana və təyyarəsi qəzaya uğrayan Azərbaycana qarşı informasiya təzyiqi cəhdindən başqa cür qiymətləndirilə bilməz”.

Politoloq deyib ki, deşifrə edilmiş danışıqlar Rusiya isteblişmentinin müəyyən dairələrinə yaxın olduğu iddia edilən teleqram kanallarında yayılıb: “Qazaxıstan hökumətinə yönəlmiş təzyiqdən danışsaq, onun hansı mövqe tutacağı hələ məlum deyil. İnternetdə stenoqramın dərc edilməsindən sonra nə Qazaxıstan, nə də Azərbaycan tərəfindən hələ heç bir rəsmi şərh verilməyib”. Politoloq yanvar ayının sonunda açıqlanacaq rəsmi hesabatı gözləməyin lazım olduğunu qeyd edib. Onun sözlərinə görə, Qazaxıstan istənilən gedişatda həm Azərbaycan, həm də Rusiya ilə normal münasibətləri qorumağa çalışacaq.

Azərbaycanın ünvanına böhtan atan şəxslərdən biri də Rusiya Federasiyası İctimai Palatasının Koordinasiya Şurasının üzvü, politoloq Vladimir Karasyovdur. Əlbəttə, əgər V.Karasyov və Rusiya İctimai Palatası bu çıxışı etik normalara uyğun hesab edirlərsə, o zaman onların hazırda hansı səviyyədə olduğu aydındır. Sadəcə, müasir Rusiyada ictimai şəxslərin və yüksək sosial statuslu insanların kobudluqdan və təhqiramiz ritorikadan istifadə etməsinin getdikcə geniş yayılmasına təəssüf etmək qalır. V.Karasyov yürütdüyü bu mühakimə ilə mənəvi dəyərlərdən uzaq olan şəxs təəssüratı yaradır.

Amma yaxşı ki, Rusiyada heç də hamı belə düşünmür. Məsələn, Rusiya İctimai Palatasının üzvü, Ümumrusiya Dövlət Televiziyasında (“Rossiya-1”) “Həftənin xəbərləri” (“Vesti nedeli”) proqramının müəllifi və aparıcısı Dmitri Kiselyov bildirib ki, “politoloq” V.Karasyovun təhqiramiz ifadələri heç bir şəkildə İctimai Palatanın mövqeyini əks etdirmir və qəti şəkildə qınanmalıdır: “Vladimir Karasyovun təhqirləri kontekstində Rusiya İctimai Palatasının adının hallanması təəssüf doğurur. Vladimir Karasyov İctimai Palatanın üzvü deyil. Yəni bu, həm Rusiyada, həm də Azərbaycanda kifayət qədər olan adi informasiya leşi şəbəkəsidir. Onunla qidalanmağa dəyərmi? O, daha heç kimi sağlam etməyəcək”.

Rusiyalı jurnalist “AZAL”ın təyyarəsinin qəzaya uğraması nəticəsində həlak olanların ailələrinə bir daha başsağlığı verib, ədalətli araşdırmanın nəticələrini və günahkarların cəzalandırılmasını gözləməyə çağırıb. Kiselyov ümidvar olduğunu bildirib ki, bədxahlar “AZAL”ın təyyarəsi ilə bağlı faciədən Rusiya və Azərbaycan arasındakı müttəfiqlik münasibətlərinə qarşı istifadə etməyəcəklər.

Məsələ ilə bağlı fikirlərini XQ ilə bölüşən **politoloq İlyas Hüseynov** bildirdi ki, “AZAL”ın təyyarəsinin Rusiya səmasında vurulması və sonrakı proseslər kifayət qədər ciddi maraq doğurur. Onun sözlərinə görə, təyyarənin qalıqlarında fiziki və texniki xarici müdaxilənin nişanəsi, yəni hava hücumundan müdafiə sisteminin hava gəmisini zədələməsi ilə bağlı izlər hər kəsə bəllidir: “Belə görünür ki, “qara qutu”nun deşifrə olunmasından sonra həqiqəti gizlətmək üçün fikirlər genişlənməkdədir. Hətta, konkret olaraq Rusiyada bəzi ekspertlər, hərbi blogerlər Azərbaycanı və ölkə rəhbərliyini hədəfə alırlar. Bu, tamamilə yolverilməzdir. Çünki həqiqəti hər kəs bilir və istintaq sirri olduğu üçün bu barədə danışmaq doğru deyil. Lakin bu qaydaları pozan bəzi şəxslərə də rast gəlinir. Hesab edirəm ki, bu prosesə kifayət qədər obyektiv, Azərbaycanın tələblərinin yerinə yetirilməsi ilə məntiqi cavab verilməlidir. Çünki Rusiya Prezidenti dekabrın 28-də Azərbaycan Prezidentinə zəng edərək üzrxahlıq etdi. Bundan sonra müvafiq addımların atılması önəmlidir. Yəni, məsələnin yalnız bu səviyyədə qalması, eyni zamanda həqiqəti ört-basdır etmək üçün cəhdlər münasibətlərə zərbə vurur. Bir hadisəyə görə ikitərəfli münasi-



bətləri bu cür zərbə altında qoymaq olmaz. Mehriban qonşuluq siyasəti, eyni zamanda, 2022-ci il fevralın 22-də Moskvada imzalanmış “Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında müttəfiqlik qarşılıqlı fəaliyyəti haqqında Bəyannamə”nin ruhundan irəli gələn addımlara böyük ehtiyac var”.

Politoloq təəssüflə bildirdi ki, biz hazırda bunu görmürük. Rusiya daxilində müxtəlif qüvvələr iki ölkə arasında münasibətlərə zərbə vurmağa çalışırlar. Onlar müxtəlif manevrlər edir, açıqlamalar verirlər. Eyni zamanda, ikitərəfli münasibətlərə zərbə vura biləcək fərziyyələr irəli sürürlər: “Bütün bunlar aradan qaldırılmalıdır. Bu əsassız yanaşmalara son qoymaq mühüm əhəmiyyət kəsb edir. Hesab edirəm ki, burada açıq şəkildə müxtəlif versiyaların irəli sürülməsi, yəni təyyarənin quş dəstəsi ilə toqquşması, yaxud oksigen balonunun partlaması kimi cəfəng versiyaların genişləndirilməsi, bu ölkəmizi qane etməyəcək. Bu, həm də ikitərəfli münasibətlərə zərbə vura bilər. Hələ ki, proses yekunlaşmayıb. Amma kifayət qədər vaxt keçib. Bu müddət münasibətləri test etmək üçün də bir imkandır. Rusiya bu fürsəti əldən buraxmamalıdır. Çünki hazırda bütün dünyada çox həssas geopolitik durum müşahidə olunmaqdadır. Bu durumda dövlətlər yalnız dost, tərəfdaş tapmağa çalışırlar. Münasibətlərə zərbə vurmaq, əlbəttə, heç bir tərəfin maraqlarına uyğun deyil”.

*Səxavət HƏMİD*
*XQ*

# Gedənləri yola salan oldumu?

## *Ağ evin sabiq yiyələrini buna layiq görmədilər*



**ABŞ tarixində ən bahalı andiçmə mərasimi baş tutdu. Bu tədbir ənənəvi olaraq Ağ evdə deyil, bu dəfə Kapitolidə – qanunverici palataların yerləşdiyi, Vaşinqtonun ən hündür binasında keçirildi. Artıq iki gündür respublikaçı Donald Tramp ABŞ-ın 47-ci prezidenti kimi fəaliyyətə başlayıb. İndi bütün dünya nəfəsini dərib Trampın Bayden–Blinken “cütlüy”ünün son 4 ildə həyata keçirdiyi bədnam siyasətini durduracağını, inkişafa və sabitliyə töhfə verəcəyini gözləməkdədir. Demokrat Co Bayden və onun uğursuz komandasının müharibələrə, qanlı qarşıdurmalara, yüz minlərlə insanın ölümünə, ABŞ-ın iqtisadi cəhətdən çöküşünə bais olduğunu sıravi amerikalılar da etiraf edirlər...**

Dörd il bundan əvvəl 78 yaşında prezidentlik kürsüsünə yiyələnəndə Co Baydenin həm fiziki, həm də mənəvi cəhətdən bu posta layiq olmadığı bəlli idi. Qoca veteranın bu ayıbını ört-basdır etməkdən ötrü həkimləri, imicmeykerləri xeyli əziyyət çəkməli oldular. Amma onun sıyrılmaqda olan sifətinə kosmetik müdaxilələr edilsə də, pozulmuş beynini, yaddaşını bərpa etməyi bacarmadılar. Məhz bu səbəbdən Cozef Bayden yaddaşlara siyasi xarakterə malik lider kimi deyil, “marionet” kimi yazılacaq. Son iki ildə 46-cı prezident fiziki cəhətdən o dərəcədə zəifləmişdi ki, yeridiyi zaman qəfildən yıxılır, çıxışını kağızdan belə düzgün oxumağı bacarmırdı. Baydenin düşdüyü gülünc vəziyyətlər hələ bundan sonra məzəli əhvalatların, lətifələrin mövzusu olacaq. Amma onun ABŞ tarixində məsuliyyətsiz, ölkə adına ləkə gətirən dövlət başçısı kimi düşəcəyini indidən demək mümkündür. Birbaşa Dövlət katibi Antoni Blinken tərəfindən idarə olunan Baydenin aşkar yanlış qərarları, ikiüzlü xarici siyasəti, Azərbaycan–Ermənistan münasibətlərinin normallaşması istiqamətində ikili standartlara söykənən məkrli yanaşması da yaddaşlardan silinməyəcək.

### Bütün layihələri iflasa uğrayan cütlük

Bu cütlüyün ən biabırçı və ağır fəsadlara gətirib çıxaran “layihələrindən” biri Ukraynanı Rusiyaya qarşı qanlı müharibəyə təşviq və təhdid etməsi sayılmalıdır. Məhz rəsmi Vaşinqtonun şirnikləndirməsi ilə 2022-ci ilin fevralında Ukrayna Rusiya ilə hələlik sonu görünməyən və yüz minlərlə insanın ölümünə səbəb olan müharibəyə sürükləndi. Bunun nəticəsində Kiyev 20 faiz ərazisini itirdi, ölkə əhalisinin 30 faizi yurdundan, evindən didərgin düşdü. Onlarla şəhər, yüzlərlə qəsəbə, yaşayış məntəqəsi bayquşların uladığı xarabalığa çevrildi. Ukraynanın iqtisadiyyatı, demək olar ki, tamamilə məhv edildi. Bir vaxtlar ərazisinə, təbii sərvətlərinə görə Avropanın ən zəngin dövləti hesab olunan Ukrayna indi Qərbin təmənnalı yardımlarının, maliyə borclarının altında inləməkdədir. Bu ölkəyə nə hərbi köməyin, nə də maliyyə yardımlarının faydası var. Əminliklə deyə bilərik ki, xarabazarlığa və cəhənnəmə çevrilmiş Ukrayna Bayden–Blinken cütlüyünün “şah əsəri” sayılmalıdır.

### Onların əli fələstinli uşaqların qanına batıb

ABŞ tarixinin ən bədnam cütlüyü başqa bir cəhənnəm ocağını Yaxın Şərqdə qaladı. 2023-cü ilin oktyabr ayında HƏMAS-la İsrail arasında mənasız və məntiqsiz müharibə məhz Vaşinqtonun növbəti ssenarisidir. Bu qanlı qarşıdurmanın başlanğıcında Bayden bir tərəfdən durmadan siyasi bəyanatlar verməklə müharibəni daha da qızışdırmağa çalışırdısa, digər tərəfdən Blinken Vaşinqtonla Tel-Əviv arasında “siyasi poçtalyona” çevrilmişdi. Dünya görürdü ki, bu cütlük hər vasitə ilə bölgədə dini-etnik qarşıdurmanı daha da dərinləşdirməyə çalışır. Etiraf etmək lazımdır ki, onlar, qismən də olsa, öz istəklərinə nail oldular. Müharibənin qara statistikası gözü deşir: 1 il 3 ay davam edən müharibədə 50 mindən artıq dinc fələstinli qətlə yetirilib. Bunun üzərinə Livanda və digər qonşu ərəb ölkələrində öldürülən minlərlə insanı da gəlsək, dəhşətli mənzərənin miqyası tam aydın olar. Lap əvvəldən bu münaqişənin mənasız və nəticəsiz olacağının hamı fərqində idi. Amma qana susamış Bayden–Blinken tandemini nəticə yox, mahiyyət və qanlı sonluq maraqlandırırdı. Siyasi uzaqgörənlikdən məhrum bu adamlar hakimiyyətlərinin ömrünü uzatmaq, miskin varlıqlarını sübut etmək üçün nəinki sağlam siyasi məntiqə, insanlıq qanunlarına sığmayan çaxnaşmalara, qarşıdurmalara rahatlıqla imzalarını qoydular. Bu cütlüyün tarixin yaddaşında daha çox qırğınların və qətllərin müəllifi qalacağına şübhə yoxdur. Artıq bunu da deyə bilərik ki, onlar Üçüncü Dünya müharibəsinin fitilini alışdırıblar. Təəssüf ki, bu fitilin tezliklə söndürüləcəyi o qədər də ağlabatan görünmür. Bundan daha dəhşətlisi isə odur ki, Bayden–Blinken cütlüyü özündən sonra təkcə Asiyada, Avropada, Afrikada deyil, hətta Cənubi Amerikada xeyli sayda “barıt çəllәkləri” basdırdı. İndi həmin bölgələrdə ən bəsit bir səbəbdən o çəlləklərin alışacağı, müharibənin başlaması ehtimalı yüzə bərabərdir.

### Fəlakətlər, qırğınlar və iqtisadi tənəzzül

Ekspertlərin gəldiyi qənaət budur ki, dünya iqtisadiyyatı özünün tənəzzül mərhələsini yaşamaqdadır. Rəsmi Vaşinqtonun ona boyun əyməyən bir sıra ölkələrə qarşı məhz korporativ maraqlar üçün tətbiq etdiyi sanksiyalar, dolların məzənnəsinin süni şəkildə qaldırılması yolu ilə dünyanın iqtisadi nizamını pozdu. Sirr deyil ki, Avropanın inkişaf etmiş ölkələri belə hazırda tarixin ən çətin iqtisadi böhranı ilə üzləşib.

Üstəlik, Avropaya miqrant axını bir sıra ölkələrdə ucuz iş yerlərinin yaranmasına səbəb oldu. Nəticədə “köhnə qitə”nin əksər ölkələrində yerli sakinlərinin həyat şəraiti kəskin şəkildə pisləşdi.

İllik infilyasiyanın yüksək olması insanların ehtiyat yığımlarını tükətdi. Təsadüfi deyil ki, Avropada son bir neçə ildə qiymətlər kəskin şəkildə artıb. Xüsusən də, daşınmaz əmlak sahibi olmaq avropalıların əksəriyyəti üçün artıq bir yuxudur. Bununla paralel olaraq, Rusiyanın, İranın, Türkiyənin və digər ölkələrin milli valyutaları məqsədyönlü şəkildə dəyərsizləşdirilir.

Göründüyü kimi, Bayden-Blinken cütlüyünün apardığı siyasət dünyanın bir çox ölkəsində mənfi fəsadlar yaratdı, iqtisadi tənəzzülü daha da dərinləşdirdi. Həm də ekoloji problemlərin miqyası görünməmiş həddə çatdı. Skeptiklər Los-Anceles yanğınlarını ABŞ-a Tanrının cəzası kimi mənalandırırlar...

### Cənubi Qafqaz “cütlüyün” üz qarası oldu

Son dörd ildə Ağ evə sahiblik edənlərin ən böyük zərbə vurduqları, bəd əməllərinin “yadigarlarını” buraxdıqları bölgələrdən biri də Cənubi Qafqazdır. Ermənistanı açıq şəkildə silahlandırmağa başlamış rəsmi Vaşinqton bölgədə yenidən münaqişə ocağını qalamağa çalışmaqla yanaşı, Azərbaycan və Ermənistan arasında sülh sazişinin imzalanmasına açıq-aydın maneçilik törətdi. Bu azmış kimi, son nəfəslərində Baydenin xeyir-duası və Blinkenin iştirakı ilə ABŞ-la Ermənistan arasında strateji müttəfiqlik adlı xartiya imzalandı. Məqsəd bölgəmizdə qarşıdakı illər üçün gərginliyin saxlanmasına “etibarlı” zəmin yaratmaqdır.

Bayden-Blinken cütlüyünün üz qarasına çevrilmiş, Ermənistana münasibətdə sərgilədiyi mövqe, əslində, Azərbaycana və Gürcüstana qarşı olan nifrətindən “su içir”. Bəli, Bakının son illərdə apardığı müstəqil və qətiyyəti siyasəti Vaşinqtonun Cənubi Qafqazla bağlı hazırladığı planlarını pozdu. Bundan savayı, Azərbaycanın regionun şəriksiz liderinə, güc sahibinə çevrilməsi Bayden və Blinken üçün o qədər də arzuedilən geosiyasi mənzərə deyildi. Məhz buna görə onlar təkcə Ermənistanı yox, Gürcüstanı da Azərbaycana qarşı münaqişəyə təşviq etməyə çalışırdılar. Amma bacarmadılar. Çünki rəsmi Tiflisin uzaqgörən və milli maraqlara söykənən siyasəti ilə Vaşinqtonun planlarına qarşı çıxdı. Nəticədə Tbilisini hər tərəfdən təcrid etməyə başladı, Gürcüstana bütün maliyyə yardımlarına STOP işarəsi qoydu. İntəhası, atılan bütün addımların səmərəsiz olduğunu görən rəsmi Vaşinqton Gürcüstanda növbəti dəfə “rəngli inqilab” təşkil etməyə çalışdı. Bu ssenari də baş tutmadı.

Bütün bu sadaladıqlarımız onu göstərir ki, Bayden-Blinken cütlüyü dünyanın bütün bölgələrində, eləcə də Cənubi Qafqazda ölkələrin və xalqların rahatlığını pozdu, minlərlə insanı məhrumiyyətlərə düçar etdi.

Çıxarılan nəticə birmənalıdır: Bayden–Blinken iqtidarı ABŞ tarixində ən uğursuz, biabırçı və təxribatçı kimi qalmaqla bərabər, yaxın gələcək üçün dünyanı layiq olmadığı aclıq və təhdidlərlə üz-üzə qoyan bədnam cütlük imicini qazanmış oldu. Onların urvatsızcasına yola salınması isə supergücün liderlər muzeyində xüsusi guşədə qeyd olunacaq...

**P.S. Sabah ABŞ-ın Azərbaycanın Müstəqilliyini tanıdığı gündür. 32 il bundan əvvəl dünyanın nisbətən sakit dövrü idi. İndi isə hamı bu ölkənin tarixində yeni dönəmin başlayacağından danışır. ABŞ tarixində ikinci dəfə prezident kürsüsündə əyləşməyi bacaran Donald Tramp ölkəsini yenidən güclü, sağlam, zəngin və hörmətli edəcəyinə vəd verib. Həm də dünyaya sülh çağırışı edib, özünü sülhməramlı adlandırıb. Çıxışında sələfi Cozef Baydenin bütün dünyada silahlı münaqişələrə səbəb olan səhv addımlarına da diqqət çəkib. Görünən odur ki, Tramp ikinci prezidentlik müddətində “sülhməramlı və barışdırıcı” missiyanı yerinə yetirmək niyyətindədir. Azərbaycan Prezidenti İlham Əliyev ABŞ-ın 47-ci prezidentinə göndərdiyi təbrik məktubunda onun yeni prezidentliyi dönəmində iki ölkə arasında dostluq və əməkdaşlıq münasibətlərinin daha da möhkəmlənəcəyinə və yeni məzmun kəsb edəcəyinə inandığını bildirib.**

*İ.HƏSƏNQALA*
*XQ*

**20 Yanvar faciəsindən 35 il keçir**

# 70 illik aldanışın son gecəsi

## *“Kommunist” necə “Xalq qəzeti”nə çevrildi?*

**Qarabağ münaqişəsi 70 illik sovet imperiyasının zəifləyib çökməsinin ilk addımı və həlledici zərbəsi oldu. Onilliklər boyu “qardaşlıq ailəsi” adlandırılmış qapalı bir imperiyada qardaşlardan birinin o birinə ərazi iddiası ilə düşmən kəsilməsi adi bir tələb, normal qarşılanası bir iddia deyildı.**

Ötən 70 ilin qanlı təcrübəsi deyirdi ki, belə bir qarşıdurma qətiyyən yolverilməzdir. Münaqişənin günlərlə, aylarla, illərlə şiddətlənərək davam etməsi isə göstərirdi ki, diktatura üsulu ilə idarə olunan bir dövlətdə ya kəsər qalmayıb, ya da onun mütləq hökm verəni dramatik və qanlı hadisələrə tərəfkeşliklə dirijorluq edir. Hadisələr sonda göstərdi ki, sovet sistemi tədricən çöksə də, hər iki amil ayaq üstündə imiş.

Bəs hakim Kommunist Partiyasının nəzarətində olan ittifaq və respublika mediası imperiyanı iflasa aparan bu “separatçı xərçəngi” necə görür, qəbul edir və işıqlandırırdı? Xristian çoxluğun ittifaqında “erməni qardaşlığı” həmişə açıq-gizli şəkildə “türk-müsəlman” xalqlara münasibətdən üstün tutulduğuna görə hakim rejimin göstərişlərinə əməl edən mərkəzi media ağalarının “ikili standart” və gizli tərəfkeşlik mövqeyinə uyğun olaraq “imperiyanı selə verən” erməni separatçı hərəkatına qarşı çıxmadı, Azərbaycanın haqq işinə isə göz yumdu.

Yerli kommunist funksionerlərin rəhbərliyi altında olan media isə “Xankəndi” qiyamı başlayan gündən xalqımızla birgə həyəcanlanıb ayağa qalxdı. Lakin jurnalistlərimizin mübariz ruhu yuxarıdan müxtəlif üsullarla cilovlanır, xalq hərəkatının yönü “səbr və təmkin”ə, “korafəhm ümid”ə, “ədalətin bərpa ediləcəyi inamı”na yönləndirilirdi. Bütün bunlara baxmayaraq, milli jurnalistikamız çap mətbuatı, teleradio verilişləri ilə yalnız hadisələrin dramatik xronikasını, gərgin mənzərəsini yaradır, necə deyərlər, qırmızı xətti keçmirdi.

1989-cu ilin sonlarından isə qarşıdurma ən yüksək həddə çatdı. Ermənipərəst M.Qorbaçov rejimi Azərbaycan xalqını 2 illik baş qatmaqla, yuxuya verməklə yorduğunu zənn edib məsələni ermənilərin xeyrinə sonuclamağı qərara aldı. Bunun üçün ermənilərin silahlı təcavüzlərini genişləndirib xalqımızı radikal duruma gətirdilər.

Əhalinin sərhədləri sökmək, hakimiyyət qurumlarının fəaliyyətini pozmaq, Bakıdakı erməniləri linc etmək kimi çağırışlarla radikallaşdırılması, yuxarıdan idarə edilən siyasi fitnəkarlıqlar xalq tərəfindən Moskvaya etiraz aksiyaları kimi qəbul edilsə də, Mixail Qorbaçov bandası bunu Bakıya hərbi basqı üçün əsas kimi düşünmüşdü.

Araz boyu sərhədlərin sökülməsi, Lənkəranda və digər bölgələrdə rayon təşkilatlarının fəaliyyətinin dayandırılması, Bakıda bir neçə erməni ailəsinə naməlum adamların hücumu və s. Qorbaçova “Bakıda sovet hakimiyyətinin devrilməsi” bəhanəsi ilə şəhərə



nəhəng cəza maşını yeritmək üçün düşünülüb gerçəkləşdirilmişdi. Məqsəd isə, guya dikbaşlıq edən xalqımızı ağrıdan keyləşdirmək, ermənilərin Naxçıvanı və Qarabağı işğal etməsinə əlverişli şərait yaratmaq idı. Hadisələrin gedişi isə göstərdi ki, Azərbaycan xalqı nəinki qorxmadı, əyilmədi, geri çəkilmədi, şoka düşmədi, əksinə, bu zərbədən hamılıqla ayıldı, ayağa qalxdı, ədalət mübarizəsini azadlıq savaşına çevirdi.

Kreml cəlladı Qorbaçov bu planını məkr və xəyanətkarlıqla gerçəkləşdirdi. Təxribat və fitnəkarlıqla hazırlanmış Bakı qırğını xüsusi amansızlıqla, müstəsna məsuliyyətsizliklə törədildi. Azərbaycan xalqı küçələrə haqq-ədalət tələbi ilə çıxmışdı. Təsadüfə bax ki, 85 il əvvəl Rusiya çarının dinc xalqa qarşı törətdiyi 9 Yanvar qətliamından düz 85 il sonra bu imperiyanın davamı olan Sovet İttifaqının rəhbəri bu qəddarlığı qorxub-çəkinmədən təkrarladı. İmperiyanın mahiyyəti, “çar baba”ların xarakteri dəyişməmişdi. Hər iki qırğın qanlı Nikolaya və cəllad Mixailə olan sonuncu inamı da sarsıdaraq onların tiranlığnın sonu oldu.

Azərbaycan mediası 1988-ci ilin 13 fevralından 1990-cı ilin 20 yanvarınadək bax belə bir mürəkkəb şəraitdə fəaliyyət göstərmişdi. 70 il sovet hakimlərinin diktəsini itaətkarlıqla yerinə yetirmiş kommunist mətbuatı 2 iln içində günbəgün genişlənən xalq hərəkatı zəminində davamlı olaraq xalqa yaxınlaşmış, nəhayət, milli maraqların tərəfinə keçmişdi.


КОММУНИСТ
СӘҺӘР
№ 3—4—5 (13—14—15). 25 ЈАНВАР 1990-чы ИЛ. Гијмәти 10 гәпик.
Әзәли вә әбәди мәсләкимиз — Азәрбајчанын там суверенлији вә әрази бүтөвлүјү уғрунда шәһид олмуш күнаһсыз Вәтән övладларынын хатирәсинә һәср едилир
ВӘТӘН БУ КҮН АҒЫ ДЕЈИР...
Истәкли охучулар, 20 јанвар ганлы шәнбә күнүндә Бакыда шәһид олмуш јурддашларымызын сон мәнзилә јола салынмасы мәрасиминдән әмәкдашларымызын һазырладыглары репортаж, дәһшәтли фачиәдән бәһс едән фотошәкилләр јанварын 22-дә биздән асылы олмајан сәбәбләрә көрә чап едилмәди.

Buna görə də qanlı qırğının müəllifləri və icraçıları 19–20 yanvarda respublika mediasını susdurub misilsiz cinayəti gecənin qaranlığında və tam informasiya blokadası şəraitində gerçəkləşdirmişdilər. Teleradio mərkəzi partladılmış, qəzetlərin nəşri pozulmuşdu. Bakıda fövqəladə vəziyyət xalqı itaətsizliyə asanlıqla məhkum etmək üçün qırğından bir neçə saat sonra yalnız radio ilə elan edilmişdi.

O zaman 70 ildən bəri “Kommunist” adı ilə nəşr olunan “Xalq qəzet”nin kollektivi yanvarın 20-də toplantı keçirib M.Qorbaçovun dinc insanlara qarşı hərbi-siyasi cinayətini qəzəb və nifrətlə lənətlədi. Sovet rejiminin rəmzi olan bu qəzetin nəşrindən imtina edildi. Redaksiyanın binasının girişindəki lövhələr çıxarıldı, damdakı “Kommunist” yazılmış və şəhərin yuxarı məhəllələrindən aydın görünən 10 metr hündürlüyü olan nəhəng reklam birdəfəlik söndürüldü.

Yenidənqurma və respublikaların iqtisadi müstəqilliyi şəraitində qəzetin əlavəsi kimi bir neçə ay əvvəl yaradılmış “Səhər” adlı nəşrin buraxılışı qərara alındı. Şəhidlərin möhtəşəm dəfnindən hazırlanmış, törədilmiş qırğının dəhşətli mənzərəsini əks etdirən “Səhər” adlı xüsusi nömrə”Kommunist” qəzeti redaksiyasının və eyniadlı nəşriyyatın kollektivlərinin fədakarlığı ilə yanvarın 25-də 2 milyon nüsxə (əvvəlki tirajdan 4 dəfə çox) ilə çap edilərək abunəçilərə göndərildi və yerdə qalanı isə Şəhidlər xiyabanında, “Azadlıq” meydanında və metro stansiyalarının çıxışlarında paylandı.

“Səhər” zülmətlər içərisində xalqımıza ölkənin gələcəyi ilə bağlı işıqlı bir səhərin


ВӘТӘН БУ КҮН АҒЫ ДЕЈИР...

açıldığını müjdələdi. Düzdür, respublikanın müti kommunist rəhbərliyinin razılığı və komendant idarəçiliyinin süngüsü altında 1991-ci ilin avqustunda kommunist rejimi SSRİ-də süqut edənədək “Kommunist” adlı qəzetin nəşri zorakılıqla davam etdirildi. Lakin 20 Yanvarda 70 illik aldanışın son gecəsini yaşamış xalqımızın yanında olan qəzetin kollektivi bir daha bu riyakar və həyasız diktaturaya tərif yağdırmadı, bu qanlı hakimiyyətə qətiyyən inanmadı.

Yazıya əlavə etdiyimiz şəkil isə o dövrdə hansı şəraitdə fəaliyyət göstərdiyimizə şahidlik edir. Redaksiyanın girişində silahlı sovet əsgərləri dayanırdı. Qəzetin çapına hərbi senzorlar icazə verirdi. Gecə növbəsindən çıxıb evə gedənədək bir necə hərbi post keçməli olurduq. Maşından düşürülür, yoxlanırdıq, incidilirdik. Lakin hər nömrədə yalnız xalqa xidmət edən yazılara imza qoyurduq. Nifrət və qəzəbimiz isə günbəgün alovlanırdı.

Sonrakı il yarımda Bakı qırğını bütün mümkün üsullarla qəzetdə ittiham edildi, şəhidlərin xatirəsinə ümumxalq ehtiramı səhifələrdə geniş yer tutdu. Moskvanın ermənipərəst siyasəti pislənildi, xalqımızın “Qarabağ” mübarizəsi, azadlıq istəyi ən üstün mövzuya çevrildi.

Hər şeydən ucada olan həqiqət bu idi ki, yanvarın 20-də və sonrakı günlərdə Bakıda və bölgələrdə qırğınlar törətmiş, günahsız qanlar axıtmış sovet kommunist rejimi xalqımızın sarsılmaz iradəsi ilə toqquşaraq özü də sağalmaz yara almışdı. Qəddar rejim qanı axa-axa yalnız 1991-ci ilin avqustunadək yaşaya bildi və rüsvaycasına can verdi.

Kollektivimiz isə 1990-cı ilin 20 yanvarında verdiyi qərarı 1991-ci il avqustun 26-da gerçəkləşdirə bildi. Həmin tarixdən qəzetimiz xalqa xidmətin timsalı və məramı olaraq “Xalq qəzeti” adı ilə nəşr olunur.

***Tahir AYDINOĞLU***
***XQ***

# Qəhrəmanlığın ədəbi əbədiyyəti

**Keçmişin uğuru da, itkisi də tarix kitablarında qorunur, bədii ədəbiyyatda yaşadılır. Xalq sevincindən güc, kədərindən dərs alır. Laylalı-bayatılı, nağıllı-dastanlı, hekayəli-romanlı, şeirli poemalı ədəbiyyatımızın dil-ağız və yazılı qollarının hər ikisinin baş mövzusu sevgi və qəhrəmanlıq olub. Sevgi mövzusunda isə yurda, vətənə bağlılıq üstün yer tutub.**

Qarabağ münaqişəsinin xalqımıza gətirdiyi saysız-hesabsız bəlalar, silsilə faciələrlə bağlı ədəbi əsərlərin hamısını ortaq dəyərlər birləşdirir: yurd sevgisi, düşmənə nifrət, inam və dözüm, qeyrət və hünər. Bu baxımdan 20 Yanvar faciəsi mövzu və janr əlvanlığı, sənətkarlıq və məhsuldarlıq ölçüləri ilə bütöv və zəngin bir kitabxana təşkil edir. Bu faciənin ümumxalq kədəri və tarixi qəhrəmanlıq nümunəsi olaraq tükənməzliyi, davamlılığı ilə göz önündədir.

20 Yanvar ədəbiyyatı özü ilə yanaşı, bu mövzunun ədəbi-nəzəri yönünü də formalaşdırıb. Çoxsaylı elmi əsərlərdə və nəzəri mülahizələrdə faciəyə həsr olunmuş ədəbi əsərlər müxtəlif baxımdan araşdırılıb, sistemləşdirilib.

Bu yazılarda göstərilir ki, müdhiş şənbə gecəsinin kədəri və şərəfi görkəmli yazıçı və şairlərimizdən Bəxtiyar Vahabzadənin, Xəlil Rza Ulutürkün, Məmməd Arazın, Qabilin, Nəbi Xəzrinin, Cabir Novruzun, Anarın, Elçinin, Fikrət Qocanın, Zəlimxan Yaqubun, Sabir Rüstəmxanlının, Çingiz Abdullayevin, Mədinə Gülgünün, Məmməd Aslanın, Tofiq Mütəllibovun, Şahmar Əkbərzadənin, Nüsrət Kəsəmənlinin və digər ustad sənətkarlarımızın elegiyalarında, etiraz ruhlu şeirlərində və publisistik əsərlərində öz əksini tapıb.

Bu faciə baş verdikdən sonra şairlərimiz, yazıçılarımız qələmə sarılaraq xalqımızın fəryadını dünyaya çatdırıblar. Xalq şairi Qabilin “Mərsiyə”si, Məmməd Aslanın “Ağla, qərənfil, ağla” şeiri, Bəxtiyar Vahabzadənin “Şəhidlər” poeması, Nəriman Həsənzadənin “Şəhidlər xiyabanı” şeiri, Rafiq Səməndərin və Qulu Kəngərlinin “Şəhidlər” topluları kimi bədii-sənədli əsərlər faciənin mənzərəsini, mahiyyətini və ictimai rəydəki geniş əks-sədasını ədəbiyyatda əbədiləşdirib. Xalqımızın başına gətirilən bu müsibətin gələcək nəsillər tərəfindən unudulmamasında, yaddan çıxarılmamasında bu əsərlər misilsiz mənbədir.

20 Yanvar ədəbiyyatın araşdırılması ilə bağlı Yaşar Qarayev, Nizami Cəfərov, Vaqif Yusifli, Tehran Əlişanoğlu, Rüstəm Kamal, Elnarə Akimova, Mərziyyə Nəcəfova, Nərgiz Cabbarlı, Aynurə Paşayeva, Gülnar Səma kimi filoloqlar, digər tanınmış simalar dəyərli mülahizələr söyləmişlər.

**Vaqif Yusifli, filologiya elmləri doktoru:**

– 20 Yanvar hadisələri başlayandan bəri indiyə qədər poeziyada, publisistikada, nəsrdə bu mövzu işlənməkdədir. Bununla bağlı şikayətlənməyə dəyməz. 90-cı ilin əvvəllərində Qabilin “Mərsiyə” şeiri dillər əzbəri idi. Məmməd Aslanın “Ağla, qərənfil, ağla” şeiri hamı tərəfindən oxunurdu. Mirvarid Dilbazi, Ələkbər Salahzadə, Nüsrət Kəsəmənli və başqa şairlərin yaradıcılığında 20 Yanvar faciəsi ilə bağlı mövzu işlənməkdə idi. Zəlimxan Yaqubun bu mövzuda şeirlərini unutmaq olmaz. Yəni yara hələ təzə idi və Azərbaycan şairləri və yazıçıları daha çox 20 Yanvar müsibətinin xalqımıza, mənəviyyatımıza, tariximizə gətirdiyi bəlalardan yazırdılar.

Yadımdadır ki, Əzizə Cəfərzadə 20 Yanvar şəhidlərinin məzarı üstündə bayatılar deyirdi. 20 Yanvar faciəsinin ən klassik nümunəsini xalq şairi Bəxtiyar Vahabzadə yazdı. Şairin “Şənbə gecəsinə gedən yol” publisistik əsərində 20 Yanvar faciəsinin yaranmasının səbəbləri, mahiyyəti əks olundu. Şairin “Şəhidlər” poemasının alternativi yoxdur. Hələ bu mövzuda elə bir sanballı əsər meydana çıxmayıb ki, bu poemadakı fikirləri həm xalqın faciəsi, həm də qəhrəmanlıq tarixi kimi əks etdirsin. Füzuli də “Həqiqətüs-sühəda” əsərində “Ya şəhid olmaq gərək, ya qəhrəman olmaq gərək” deyirdi.

20 Yanvarda da xalq rus ordusunun törətdiyi vəhşilikləri heç cür unuda bilməzdi. Bu mənada Azərbaycan poeziyasında da həmin mövzu layiqli yerini tapdı. Həmçinin faciə poeziyada daha çox əks olundu. Elə bir şairimiz yoxdur ki, 20 Yanvar hadisəsinə aid şeir yazmasın. Təbii ki, yazılan bu şeirlərin, poemaların çoxu bədii nöqteyi-nəzərdən qaneedici deyil. Sadəcə, təsir məqamları var. Ancaq elə şeirlər var ki, onlar həmişə yaşayacaq.

Azərbaycan nasirləri isə demək olar ki, 20 Yanvar hadisələrini hələ layiqincə əks etdirməyiblər. Ortada Sabir Əhmədlinin “20 Yanvar” hekayələri, Arif Abdullazadənin “Qanlı yaddaş” romanı, İsi Məlikzadənin povesti var. Amma faciə poeziyada olduğu kimi nəsrdə dolğun əks olunmayıb. Publisistikada isə 20 Yanvar şəhidlərinin hər biri və yaxud bir rayonun, bir kəndin şəhidləri haqqında çoxlu yazılar var. Rafiq Səməndərin, Hidayətin və başqa publisistlərin əsərləri çap olunub.

**Elnarə Akimova, filologiya elmləri doktoru:**

– Ötən 35 ildə 20 Yanvar faciəsinə siyasi, hüquqi, mənəvi və s. baxış bucaqlarından münasibət sərgilənib. Bəs məlum faciə bizim düşüncəmizə qatdığı hansı çalarlarla xarakterizə olunur? Cavab birmənalıdır: ilk növbədə, şəhid obrazı və bu adın ehtiva etdiyi ağrı və qürur simvolikası: şəhid oğullar, şəhid anası, şəhidlər məzarlığı, şəhid şəhər, şəhid şair və s.

20 Yanvar hadisələrinin tarixi rolunu şərh edən Yaşar Qarayev yazırdı: “Zaman ən kəskin qütblərə onda parçalanır, ən təzadlı eralar bir-birini o vaxt əvəz edir ki, üst-üstə qalanan günlər və qanlar onları bir-birindən eyni vaxtda ayırır. 20 Yanvarda gün və qan bizi keçmişdən və səhvlərdən eyni vaxtda ayırdı”.

Həqiqətən, bu faciə yaşatdığı acı qədər, həm də bir xalqın tanıtım günü idi. Sınmayan qürurunun, sarsılmayan vüqarının ən yayğın atəş, odlu silah qarşısında belə qaya kimi duruşu idi. Ona görə 20 Yanvara biz təkcə qara gün kimi boylanmamalıyıq, həmin gün Azadlığa, Müstəqilliyə doğru gedən yolun təməlini qoydu. Ən başlıcası isə xalqın özünü dərk etməsinə, öz düşmənini tanımasına stimul oldu.

Fikrət Qocanın 20 Yanvar şəhidlərindən, İlham və Fərizənin nakam sevgisindən söz açan “Qarlı, qanlı qərənfillər” povestində Heydər Əliyevin həmin illərdə sərgilədiyi cəsarətli mövqe ilə bağlı məlum tarixi epizod yer alır: “Azəri türkləri, türkdillilər Azərbaycan nümayəndiliyinə gəlmişdilər. Heydər Əliyev xəstə olmasına baxmayaraq, həyatını təhlükə qarşısında qoyub oğlunun, qızının mü-


Бәхтијар Ваһабзадә
ШӘҺИДЛӘР

şayiəti ilə nümayəndəliyə gəlib. Orada jurnalistlər qarşısında çıxış edib. Kommunist Partiyası rəhbərliyini ittiham edib. Heydər Əliyev yaxşı bilirdi kommunist partiyası nələr edə bilər, nəyə qadirdi. Ona görə də o çıxışının onun özü üçün nə qədər təhlükəli olduğunu yaxşı bilirdi. Bu çıxış partlayışlar görmüş Bakıda möhtəşəm partlayış təsiri bağışlamışdı”.

20 Yanvar hadisəsi vətən üçün ölməyin, can nisar etməyin nümunəsini göstərdi. Bu qanlı gündə şəhid olan gənc Ülvi Bünyadzadənin bir şeiri var. Bu şeirdə yalnız 20 Yanvar günü sinəsini güllələrə sipər edən mərd oğullarımızın deyil, həm Birinci Qarabağ savaşında həlak olan, həm də 44 günlük İkinci Qarabağ müharibəsində böyük Zəfərimizlə tarix yazan qəhrəman əsgərlərimizin hər zaman diri qalan ruhları görünür. Bizi sabahlı gələcəyə və əbədi zəfərə inandırır.

**Aynurə Paşayeva, filologiya üzrə fəlsəfə doktoru:**

– 1990-cı illərin əvvəllərində sovet dövrünün dəyərləri ədəbiyyatımızda iflasa uğrayır, yeniləri isə o qədər asanlıqla təşəkkül tapmırdı. O zaman poeziya böhran yaşamış, şeirdə yalnız bir ovqat - milli insan ağrısı, yurd sevgisi, 20 Yanvar faciəsi, torpaq itkisi, şəhidlik acısı natural boyalarla təsvir olunmuşdu. 20 Yanvar faciəsi ədəbiyyata şəhidlik mövzusu, şəhid obrazını gətirdi. 20 Yanvar hadisələri mövzusunda ən yüksək poetik ruhlu əsərlərin müəllifi B.Vahabzadənin "Şəhidlər" poeması faciənin fəlsəfi-poetik dərkində bədii-estetik rolunu bu günədək qoruyub-saxlayır.

Həmin dövrə aid əsərlərdən Qaçay Köçərlinin "Şəhidlər xiyabanı", Zəlimxan Yaqubun "Səslərin görüşü", Tahir Talıblının "Susmuş hünərə elegiya", Vahid Əzizin "Qırğın", Sənan Çırağın "Haqq ədalət Kərəm kimi yalnız indi...", Xəzangülün "Tanrı dərgahında", Məmməd Alimin "Sahibini axtaran qol", Məmməd Alimin "20 Yanvar küçəsi", Piruz Dilənçinin "Şəhidlər xiyabanı", Oqtay Ələkbərovun "Şəhriyar nəfəsi", Xəlil Rza Ulutürkün "Sənin göz yaşların", Ələkbər Şahidin"Şəhidlər", Vidadi Babanlının "Başsağlığı", Hafiz Əlinin "Bakıda komendat saatı", Məhəmməd Aslanbəylinin "Bu il", Fikrət Qocanın "Ağlar", Əlirza Hikmətin "Şəhidlər xiyabanı" əsərləri də xüsusilə diqqət çəkir.

1990-2000-ci illər mətbuatında uşaq şəhidlərə həsr olunan şeirlər də yer almışdı. Musa Ələkbərlinin "Oxu, Zeynəbim, oxu" şeiri şəhid olmuş balaca Zeynəbin kədərli aqibətini ifadə edir. Məmməd Namazın "Körpə şəhidlərə layla" şeiri də bu qəbildəndir. 20 Yanvardan bəhs edən poeziyada faciəni törədənlər də əsas mövzular sırasına daxildir. Roza Qarabağlının əsərində sovet rəhbəri Qorbaçov "namərd" adlandırılır.

Balaş Azəroğlunun "Günahkar", Məmməd Alimin "Doxsanıncı iyirmi Yanvar", Hafiz Əlinin "Vətən şəhidləri", Rəfail İncəyurdun "Yanvar ağıları", Kamran Mehdinin "Şəhidlərə ölüm yoxdu" şeirlərində 20 Yanvar mövzusu təsirli dillə qələmə alınıb. 20 Yanvarın ayrılmaz atributlarından biri qərənfildir. Qərənfil klassik poeziyada qəmgin ovqat aşılayan güldür. 20 Yanvar 1990-cı ilə qədər Bakı kəndlərində satış məqsədi ilə yetişdirilən qərənfillərin həmin faciədən sonra taleyi dəyişdi, matəm gülü simvoluna çevrildi. Tofiq Mütəllibovun "Qərənfil məşəlləri" şeirində qərənfilin Şəhidlər xiyabanında daşlaşmış obrazı belə ifadə edilir:

**Bu adi çiçəklər, bu qərənfillər,**
**Məzarlar üstündə müqəddəsləşib.**

20 Yanvar mövzulu ədəbiyyatda ən çox diqqəti çəkən milliözünüdərk məsələsidir. Bəxtiyar Vahabzadənin "Təzədən yaratsın yaradan bizi" adlı şeirində şairi ən çox düşündürən məsələ xalqın illər boyu məruz qaldığı haqsızlıqların miqyası, eyni hüquqları daşıyan, amma millətlər içərisində ona qarşı qərəzli, ədalətsiz, ayrıseçkili münasibətdir:

**Anlaya bilmirik, astar nə, üz nə,**
**İndi baxammırıq düzün gözünə.**

Sabir Əhmədovun "Yanvar hekayələri" silsiləsindən olan "Dənizdən gələn səda" hekayəsində məzarı dəniz olan oğulun anasına ünvanlanan məktubu 20 Yanvar hadisələrində itkin düşənlərin hamısının dilindən yazılmış kimi səslənir.

***Hazırladı: T.RÜSTƏMLİ***
***XQ***

# Azadlıq qurbanlarının xatirəsi anıldı

**Bölgələrdə 20 Yanvar hadisələrinin 35 illiyi münasibətilə anım mərasimləri keçirilib. SSRİ-nin tam dağılmamışdan əvvəlki son sarsıntılarında parçalanmaqda olan imperiyanı süngülərlə xilas etmək cəhdinin hədər getdiyi, milli azadlığına qovuşmaq istəyən Azərbaycan xalqının əyilməz, sınmaz iradə və fədakarlıq göstərdiyi xüsusi vurğulanıb. Bildirilib ki, 20 Yanvar faciəsi ölkəmizin suverenliyi, müstəqilliyi və ərazi bütövlüyü naminə dəmir yumruq kimi birləşən yenilməz xalqımızın qəhrəmanlıq salnaməsidir.**

## Naxçıvan

**Yanvarın 20-də Naxçıvan Muxtar Respublikasında 20 Yanvar faciəsinin 35-ci ildönümü şəhid ruhlarına böyük ehtiramla qeyd edilib.**

Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli, dövlət və hökumət nümayəndələri, Ali Məclisin deputatları, Türkiyə Cümhuriyyəti və İran İslam Respublikasının Naxçıvan Muxtar Respublikasındakı baş konsulları, Naxçıvan Qarnizonu qoşunlarının heyətləri, "Naxçıvan Qaziləri" və "Naxçıvan Şəhid Ailələri" ictimai birliklərinin üzvləri və yüzlərlə sakin şəhidlərimizin əziz xatirəsini yad etmək üçün Naxçıvan şəhərindəki Şəhidlər xiyabanına gəliblər. Əvvəlcə hərbi orkestrin müşayiəti ilə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib. Sonra səlahiyyətli nümayəndə, dövlət və hökumət nümayəndələri şəhidlərin məzarlarını ziyarət edib, hər birinin üzərinə tər qərənfillər düzüblər.









Fuad Nəcəfli şəhidlərin ailə üzvləri ilə görüşüb, ehtiramını ifadə edib.

1918–1920-ci illərdə erməni daşnakları ilə mübarizədə Naxçıvanın köməyinə gələn qardaş Türkiyə ordusunun şəhid olmuş əsgərlərinin xatirəsinə ucaldılmış abidə və xiyabandakı Ana abidəsi də ziyarət olunub, önünə güllər düzülüb.

## Gəncə

**Nizami yurdunun Şəhidlər xiyabanında 20 Yanvar hadisələri qurbanlarının ölməz xatirəsinə elliklə anılıb.**

Əvvəlcə Azərbaycanın ərazi bütövlüyü uğrunda itkin düşmüş hərbçilərin adları əks olunan abidə ziyarət edilib, gül dəstələri düzülüb. Daha sonra "Əbədi məşəl" abidəsi önünə əklil qoyulub.

Hərbi orkestrin ifasında Dövlət Himni səsləndirilib, 20 Yanvar faciəsi ilə bağlı məlumat verilib. Daha sonra din xadimi şəhidlərin ruhuna dualar oxuyub. Saat 12:00-da Gəncə şəhərində şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad edilib, nəqliyyatın hərəkəti dayanıb, avtomobillər vasitəsilə səs siqnalları verilib.

Şah Abbas Cümə Məscidində, Aleksandr Nevski Rus Pravoslav Kilsəsində və Yəhudi Dini İcmasında 20 Yanvar şəhidlərinin ruhuna dualar oxunub.

Xatırladılıb ki, tarixə Qanlı Yanvar kimi həkk olunmuş bu hadisə xalqımızın azadlıq arzusunu və istəyini boğmaq məqsədilə həyata keçirilmiş ən ağır cinayətlərdən biridir. 20 Yanvar Azərbaycan tarixinə həm faciə, həm də qəhrəmanlıq dastanı kimi yazılıb.

## Sumqayıt

**Ötən əsrin ən dəhşətli hadisələrindən biri olan 20 Yanvar faciəsinin 35-ci ildönümü münasibətilə gənclik şəhərində anım mərasimləri böyük izdihamla keçib.**

Saat 12:00-da şəhərdə bir dəqiqəlik sükut olub və şəhidlərin ruhu ehtiramla yad edilib.

Sumqayıt Şəhər İcra Hakimiyyətinin rəhbərliyi, Milli Məclisin deputatları, hüquq-mühafizə orqanlarının əməkdaşları, idarə, müəssisə və təşkilat rəhbərləri, şəhid ailələri və qazilər, ictimaiyyət nümayəndələri Şəhidlər xiyabanında ucaldılmış "Qalib əsgər" abidəsini və Vətənimizin qəhrəman övladlarının məzarlarını ziyarət ediblər. Sonra mərasim iştirakçıları şəhidlərin məzarları üzərinə gül dəstələri düzüblər.

1990-cı ilin Yanvar hadisələri zamanı Sumqayıt-Bakı magistral yolunun 24-cü kilometrliyində, Ceyranbatan qəsəbəsi ərazisində şəhid olmuş sumqayıtlı alimlər – İbrahim İbrahimovun, İsmayıl Mirsaqulovun və Svetlana Məmmədovanın xatirə abidəsi də ziyarət edilib. Xatırladaq ki, sovet ordusuna məxsus zirehli texnika alimlər işə gedən zaman onların olduğu avtomobili əzərək, üstündən keçib. Hadisə nəticəsində hər 3 alim amansızcasına qətlə yetirilib.

Şəhərdə 20 Yanvar şəhidlərinin ruhuna ehtiram əlaməti olaraq, ehsan süfrələri də açılıb.

## Mingəçevir

**"Nur şəhəri" Mingəçevirdə izdihamlı anım mərasimi keçirilib.**

Şəhidlər xiyabanında şəhər icra hakimiyyətinin başçısı İlham İsmayılov, millət vəkili Aydın Mirzəzadə "20 Yanvar" abidə kompleksinin önünə əklil qoyaraq 1990-cı il yanvar ayının 19-dan 20-nə keçən gecə azğınlaşmış imperiya ordusunun azadlıq və suverenlik mübarizəsinə qalxan əliyalın insanlara qarşı silahlı hücumları zamanı həlak olan Vətən övladlarının xatirəsinə ehtiramlarını ifadə ediblər.

İcra başçısı aparatının işçiləri, hüquq-mühafizə orqanlarının rəhbərləri və əməkdaşları, hərbçilər, idarə və müəssisələrin kollektivləri, ictimaiyyət nümayəndələri, mətbuat işçiləri, təhsil, idman, səhiyyə və mədəniyyət sektorlarının təmsilçiləri, qazilər, müharibə və əmək veteranları abidə kompleksinin önünə qərənfillər düzüblər. Sonra tədbir iştirakçıları Azərbaycanın ərazi bütövlüyünün qorunması, torpaqlarımızın azad edilməsi, müstəqilliyi və konstitusiya quruluşunun müdafiəsi, suverenliyinin bərpa olunması uğrunda həlak olan şəhidlərin məzarlarını ziyarət edərək onlara Allahdan rəhmət diləyiblər. Din xadimləri onların ruhuna dualar oxuyublar.

Hüzn əlaməti olaraq şəhərdə Azərbaycanın dövlət bayrağı endirilib. Saat 12:00-da şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad edilib, avtomobillər vasitəsi ilə səs siqnalları verilib. Günorta saatlarında Mingəçevir Dövlət Dram Teatrında Qanlı Yanvar faciəsinin 35-ci ildönümünə həsr olunmmuş "Vətən" kompozisiyası nümayiş etdirilib. Tədbirlər planına müvafiq olaraq, şəhərin bütün idarə və müəssisələrində, təhsil-tərbiyə ocaqlarında, mədəniyyət, səhiyyə və idman müəssisələrində sislsilə tədbirlər təşkil olunub.

## Şuşa

**20 Yanvar faciəsi qurbanlarının xatirəsi respublikamızın bütün bölgələrində olduğu kimi, Şuşa şəhərində də ehtiramla yad edilib.**

Saat 12:00-da Şuşa şəhərində şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla anılıb, küçələrdə avtomobillərin hərəkəti dayandırılıb, siqnallar verilib. Şuşa rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyi və Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsinin əməkdaşları, şəhərdə fəaliyyət göstərən hüquq-mühafizə orqanlarının, idarə və müəssisələrin rəhbərləri, şəhər sakinləri şəhidlərin xatirəsini qürur və ehtiramla anıblar.

## Ağdam

**20 Yanvar faciəsinin 35-ci ildönümü Ağdam rayonunda da böyük ehtiramla yad edilib.**

Rayon icra hakimiyyətinin, Yeni Azərbaycan Partiyası Rayon Təşkilatının, hüquq-mühafizə orqanlarının, idarə, müəssisə və təşkilatların rəhbərləri, şəhid ailələri və qazilər, din xadimləri, rayon ziyalıları və ictimaiyyət nümayəndələri "Şəhidlər" abidə kompleksinin önünə tər qərənfillər düzüblər. Qəhrəman Vətən övladlarının ruhuna dualar oxunub.

Ümumrayon anım mərasimində çıxış edənlər xalqımızın azadlıq mübarizəsindən, 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə sovet ordusu tərəfindən Bakı şəhərində dinc əhaliyə divan tutulmasından, yüzlərlə insanın qətlə yetirilməsindən, faciəyə yalnız Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə dövlət səviyyəsində siyasi-hüquqi qiymət verilməsindən, Azərbaycan xalqının iradəsinin sarsılmazlığından, 20 Yanvar hadisəsinin dövlət müstəqilliyinin bərpa edilməsində dönüş nöqtəsi olmasından bəhs ediblər.

## Lənkəran

**20 Yanvar faciəsinin 35-ci ildönümü Lənkəranda da dərin hüznlə yad edilib. Səhər saatlarından başlayaraq rayon sakinləri şəhərin mərkəzində yerləşən Şəhidlər xiyabanına gəlib, 20 Yanvar faciəsi qurbanlarının xatirəsini anıblar.**

Lənkəran Şəhər İcra Hakimiyyətinin, hüquq-mühafizə orqanlarının, hərbi hissələrin, ictimai birliklərin, təhsil, səhiyyə və mədəniyyət müəssisələrinin kollektivləri, müharibə veteranları, ictimaiyyət nümayəndələri Şəhidlər abidə kompleksini ziyarət edib, abidə önünə və şəhid məzarlarının üzərinə tər güllər düzüblər.

Tədbir iştirakçıları Lənkəran Dövlət Dram Teatrında 20 Yanvar şəhidlərinin xatirəsinə həsr olunan bədii-kompozisiyaya tamaşa ediblər. Qeyd edək ki, Ümumxalq Hüzn Günü ilə əlaqədar rayon ərazisində mədəniyyət, təhsil, səhiyyə və digər qurumlarda silsilə tədbirlər, kitab və rəsm sərgiləri keçirilib, 20 Yanvar şəhidlərinin qəhrəmanlıqları səhnələşdirilərək tamaşalar nümayiş etdirilib. Şəhidlər abidə kompleksi gün ərzində ictimaiyyət nümayəndələri tərəfindən ziyarət olunub.

Saat 12:00-da rayon ərazisində şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad olunub, nəqliyyatın hərəkəti dayanıb, maşınlardan səs siqnalları verilib.

## Şirvan

**Ümumxalq Hüzn Günü Şirvan şəhərində böyük izdihamla qeyd olunub.**

Anım mərasiminin iştirakçıları öncə şəhərin mərkəzi meydanında ucalan Ulu öndər Heydər Əliyevin abidəsi ziyarət edib, önünə gül dəstələri düzüblər. Sonra Şəhidlər xiyabanında 20 Yanvar şəhidlərinin xatirə lövhəsi, Birinci Qarabağ müharibəsində itkin düşənlərin xatirəsinə ucaldılan abidə, "Əbədi məşəl" abidəsi, Birinci və İkinci Qarabağ müharibəsi şəhidlərinin məzarları ziyarət edilib.

Şirvan şəhər Şəhidlər xiyabanında keçirilən anım tədbirində şəhid analarının şərəfinə ucaldılan "Şəhid anası" memorial abidə kompleksinin qarşısına əklil qoyulub. Kompleksinin qarşısında davam edən tədbirdə natiqlər 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə Azərbaycanın suverenliyi, azadlığı uğrunda mübarizəyə qalxmış dinc sakinlərə qarşı sovet qoşunlarının törətdiyi cinayətlərdən danışıblar. Azərbaycan xalqının başına gətirilən bu faciəyə ilk siyasi-hüquqi qiymətin məhz Ümummilli lider Heydər Əliyev tərəfindən verildiyi bir daha diqqətə çatdırılıb.

Tədbirdə şagirdlər 20 Yanvar faciəsinin 35-ci ildönümünə həsr olunan ədəbi-bədii kompozisiya ilə çıxış ediblər.

## Göyçay

**Rayon mərkəzindəki Şəhidlər xiyabanında 20 Yanvar faciəsi qurbanlarının xatirəsi dərin ehtiramla yad edilib.**

Tədbirdə rayon rəsmiləri, yerli hüquq-mühafizə orqanlarının rəhbərləri, şəhid ailələri, qazilər və ictimaiyyət nümayəndələri iştirak ediblər. İcra hakimiyyətinin başçısı Natiq Ağayev Şəhidlər Xiyabanındaki şəhidlərin abidə kompleksinə gül-çiçək dəstələri düzüb, 20 yanvar şəhidləri Rauf İsayev və Mehman Muradovun məzarları önünə əklik qoyub. Sonra tədbir iştirakçıları tərəfindən vətənimizin azadlığı uğrunda canından keçən qəhrəman oğul və qızlarımızın xatirəsi anılıb.

Saat 12:00-da 20 Yanvar faciəsi şəhidlərinin, eləcə də Azərbaycanın ərazi bütövlüyü uğrunda canından keçmiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Rayon ərazisində avtomobillərin hərəkəti dayandırılıb.

*Hazırladılar:*
***Əli NƏCƏFXANLI,***
***Hamlet QASIMOV,***
***İlqar HƏSƏNOV***
***XQ***

# 20 Yanvar faciəsinin Borçalı şəhidləri

**1990-cı il Yanvar faciəsinə aparan yol azərbaycanlıların Ermənistandakı tarixi torpaqlarından növbəti kütləvi deportasiyası, Qarabağın Ermənistana birləşdirilməsi cəhdləri ilə başlayıb. Sovet rəhbərliyi bu xəyanətin qarşısını almaq əvəzinə, Azərbaycan xalqına qarşı dəhşətli cinayət işlədib. Hərbi müdaxilə nəticəsində 150 nəfər şəhid olub, 744 nəfər yaralanıb, 841 nəfər qanunsuz olaraq həbs edilib. Şəhidlər arasında Borçalıda doğulmuş soydaşlarımız da var.**

## "Ölmək istəmirəm"

Vəfadar Osman Oğlu Eminov 1966-cı il mayın 1-də Borçalı mahalının Kirəc-Muğanlı kəndində anadan olub. Bakı Dövlət Universitetinin hüquq fakültəsinin axşam şöbəsində oxuyub, gündüzlər isə 1 nömrəli tikiş fabrikində fəhlə işləyib.



O, yanvarın 21-də sessiya imtahanını verib. İmtahandan "5" aldıqdan sonra Qədirli adına xəstəxanaya gedərək yaralılara qan verib, ürəyi rahatlıq tapıb. Yanvarın 23-də növbəti dəfə qan verdikdən sonra "Olimp" mağazasının yaxınlığında snayper gülləsi ilə vurulub. Şahidlərin sözlərinə görə, yaxınlıqda olanlar Vəfadara "oradan getmə" deyiblər. Vəfadar isə onları dinləməyib...

Yaralı gənci xəstəxanada görənlər, "Bu ki bayaq qan verən oğlandır" deyiblər. Vəfadar neçə yaralıya qan verib yaşatmışdı, lakin özü namərd gülləsi ilə şəhid oldu.

Həlak olandan sonra cibindən tələbə bileti, qiymət kitabçası, cib dəsmalı, pencəyinin düyməsi, "Qarabağ" siqareti çıxıb. Maraqlıdır ki, o, siqaret çəkməyib. Bu, bir təsadüfdürmü?

Vəfadarın son sözü bu olub: "Yaşamaq istəyirəm, sağalacağammı? "Ölmək istəmirəm".



## 2 övladı yadigar qaldı

Rəşid İslam oğlu İsmayılov 1949-cu il avqustun 27-də qədim Qarayazıda–Ağtəhlə kəndində anadan olub. Rostov Dəmiryol İnstitutunu bitirib. Azərbaycan Dəmiryolu İdarəsində dispetçer vəzifəsində işləyib.

O müdhiş gecə işdən evə, balalarının yanına qayıdarkən Biləcəri qəsəbəsində qarın nahiyəsindən yaralanıb, Biləcəridəki 2 nömrəli Dəmiryol Xəstəxanasına aparılıb. Cərrahiyyə əməliyyatından sonra 3 gün yaşayıb və yanvarın 23-də 40 yaşında gözlərini əbədi yumaraq şəhidlik zirvəsinə ucalmışdır.

Rəşid İsmayılovun 2 övladı yadigar qalıb. Şəhidlər xiyabanında dəfn olunub.

## Onun 24 yaşı var idi

Ələsgər Qayıbov 1966-cı il martın 15-də Qaraçöp elinin Yormuğanlı kəndində anadan olub. Azərbaycan Dövlət İnşaat Mühəndisləri İnstitutunun ikinci kurs tələbəsi idi.

Cəmi 24 yaşın içində idi. 20 Yanvar gecəsi xeyli yaralıya kömək etmişdi.



"Gənclik" metro stansiyasının yanından 5 nömrəli xəstəxanaya bir neçə yaralı aparmışdı. Sonuncu dəfə özü yaralı kimi qayıtdı, mürəkkəb cərrahiyyə əməliyyatı aparıldı.

Yanvarın 21-də gözlərini əbədi yumaraq şəhidlik zirvəsinə ucaldı. Ələsgər Qayıbov Şəhidlər xiyabanında dəfn olunub.

## Həkim olmaq istəyirdi



Tenqiz Turabov 1966-cı ildə Bolnisi rayonunun Kəpənəkçi kəndində anadan olub. Tenqiz işləmək üçün İrkutsk vilayyətinə gedib. Eyni zamanda tibb məktəbinin birinci kurs tələbəsi idi. Həkim olmaq ən böyük arzusu olub.

O, Azərbaycandakı hadisələri daim izləyib. Məzuniyyət götürərək Bakıya gəlib. O gecə Şmidt adına zavodun qarşısında aldığı güllə yarası nəticəsində dünyasını dəyişərək şəhidlik zirvəsinə ucalıb. Şəhidlər xiyabanında dəfn edilib.

## Sonadək yaralılara kömək etdi



İlqar Hümbət oğlu Əhmədov 1965-ci ilin may ayının 25-də Borçalı mahalının Faxralı kəndində anadan olub. İlqar o vaxtlar Çingiz İldırım adına Azərbaycan Politexnik İnstitutunun 4-cü kurs tələbəsi idi.

1990-cı ilin yanvar ayının 19-dan 20-nə keçən gecə İlqar dostları ilə birlikdə Salyan kazarmasının yanında hərbçilərin dinc əhaliyə divan tutan vaxt yaralıları və ölüləri maşınlara qoyub xəstəxanaya yola salıb. İlqarın və dostlarının yaralılara kömək etmələri hərbçilərin xoşuna gəlməyib və onu da atəşə tutublar. Güllə sol gözündən dəyib. Aldığı bu ağır güllə yarasından yerindəcə dünyasını dəyişib və şəhid olub. İlqar Əhmədov Faxralı kəndində dəfn edilib.

*Hazırladı:*
***PÜNHAN***
***XQ***

# Şəhidlərimizin ruhları əbədiyaşardır

## *Onlar "Azadlıq" sözünü qanları ilə yazdılar*

**Azərbaycanın müstəqilliyə gedən yolunda verdiyi ilk qurbanlar 20 Yanvar şəhidləridir. Dünyanın müxtəlig guşələrində yaşayan soydaşlarımız bu günlər həm onların, həm də sonra ölkəmizin ərazi bütövlüyü uğrunda canlarından keçmiş bütün şəhidlərimizin xatirəsini ehtiramla anır, ruhlarına dualar oxuyurlar. Haqq, azadlıq istəklərindən doğan səslərini bütün dünyanın gözü önündə qan içində boğsalar da, xalqımız yenilmədi, qəddini dik tutdu. Bu gün hamı, hər yerdə şəhidlərimizin qəhrəmanlığından danışır...**

### Ankara

**Ankarada 20 Yanvar faciəsinin 35-ci ildönümü ilə əlaqədar "Azadlığa gedən yolda assimetrik savaş" adlı tədbir keçirilib.**

Azərbaycanın Ankaradakı səfirliyi, Türkiyə–Azərbaycan Dostluq, Əməkdaşlıq və Həmrəylik Fondu (TADİV) və Türk Dövlətləri Təşkilatı tərəfindən təşkil edilən tədbir "Şuşa" konfrans mərkəzi"ndə baş tutub. Tədbirdə şəhidlərin xatirəsi yad edilib, Türkiyə Dəyanət işləri üzrə məsul şəxs Rasim Duran tərəfindən ruhlarına dua oxunub. Sonra Azərbaycan və Türkiyənin milli himnləri səsləndirilib. 20 Yanvar faciəsinə həsr olunmuş qısa filmin nümayişindən sonra TADİV rəhbəri, professor Aygün Attar çıxış edib. O bildirib ki, həmin gün vətənlərinin azadlığı yolunda küçələrə çıxan insanlar tanklara qarşı canlarını sipər etdilər: "20 Yanvar həm də Azərbaycanın qəhrəmanlıq tarixinin yazıldığı bir gündür".

Azərbaycanın Türkiyədəki səfirliyinin siyasi məsələlər üzrə müşaviri Eldar Əliyev bildirdi ki, şəhidlər ölümü gözə alıb vətən uğrunda mübarizəyə qalxmışdılar: "Haqq səsinin dünyaya eşitdirmək istəyən insanların səsini qan içində boğdular. Amma buna baxmayaraq xalq yenilmədi. Hazırda Qafqaz İslam Ordusunun qəhrəmanlarının Şəhidlər Xiyabanında şəhidlərimizlə eyni məkanda uyumalarının da başqa bir anlamı var".

Türkiyə Prezidentinin baş müşaviri Yalçın Topçu isə 20 Yanvar hadisəsi barədə belə dedi: "20 Yanvarda dünyanın gözləri önündə böyük bir insanlıq dramı yaşandı. Biz bu günü unutmayacağıq".

Hacı Bayram Vəli Universitetinin müəllimi professor Zakir Avşar 20 Yanvar faciəsinin Azərbaycan üçün bir dönüş nöqtəsi olduğunu bildirdi: "Çünki həmin gün Azərbaycanın doğum günü, sovet imperiyasının isə məğlubiyyətə uğradığı gündür. Öləcəklərini bilə-bilə ölümün gözünün içinə baxdılar. İnsanlar vətən, namus, müstəqillik üçün həyatlarını qurban verdilər".

Azərbaycanın 20 Yanvar tarixini əsla unutmayacağını deyən Mərmərə Qrupu Strateji Tədqiqatlar Mərkəzinin sədri Akkan Süver, 30 il işğaldan sonra Azərbaycan torpaqlarının azad edilməsi ilə şəhidlərin ruhunun şad olduğunu qeyd etdi. Tədbirin davamında "Qanlı Yanvar" adlı fotosərginin açılışı edilib. Anım tədbirində Beynəlxalq Türk Mədəniyyət Təşkilatı– TÜRKSOY-un, Qazaxıstan, Qırğızıstan və Şimali Kipr Türk Respublikalarının Türkiyədəki səfirliklərinin əməkdaşları da iştirak ediblər.

### Paris

**Fransanın paytaxtı Parisdə 20 Yanvar şəhidlərinin xatirəsi anılıb. Azərbaycanın Fransadakı səfirliyinin təşkilatçılığı ilə Azərbaycan Mədəniyyət Mərkəzində keçirilən anım tədbirində diplomatik korpusun nümayəndələri, vəkillər, elm xadimləri, iş adamları, jurnalistlər iştirak ediblər.**

Tədbirdə çıxış edən Azərbaycanın Fransadakı səfiri Leyla Abdullayeva 20 Yanvar faciəsi haqqında məlumat verib, bu qanlı hadisənin ölkəmizin müstəqilliyinə aparan şərəfli yol olduğunu qeyd edib. Diplomat Azərbaycanın bu gün tam müstəqil xarici siyasətə malik, torpaqlarını işğaldan azad edərək sərhədlərinin bərpasına nail olan, regionda sülhü qoruyan güclü dövlət olduğunu xüsusi vurğulayıb.

Anım tədbirində Azərbaycan və dünya bəstəkarlarının musiqilərini pianoda azərbaycanlı pianoçu Səidə Zülfüqarova, tarda Sahib Paşazadə, violonçeldə Guillaume Martigne ifa ediblər. Musiqiçiləri soprano Omo Bello müşayiət edib.

### Mexiko

**Azərbaycanın Meksikadakı səfirliyinin təşkilatçılığı ilə 20 Yanvar faciəsinin 35-ci ildönümü ilə əlaqədar anım tədbiri düzənlənib. Səfirliyin yaydığı məlumata görə, tədbirdə "Gənc Diplomatlar Assosiasiyasının" rəhbəri Maurisio Tofoya, o cümlədən assosiasiyanın üzvləri, tələbələr, QHT təmsilçiləri, iş adamları və Azərbaycanın dostları iştirak ediblər.**

Əvvəlcə 20 Yanvar faciəsi qurbanlarının əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Tədbirdə çıxış edən səfir Məmməd Talıbov iştirakçıları 20 Yanvar faciəsi barədə məlumatlandırıb. O, həmin dövrün ictimai-siyasi vəziyyətindən, keçmiş SSRİ-nin rəhbəri Mixail Qorbaçov rejiminin Azərbaycanda törətdiyi qəddar və amansız addımlarından bəhs edərək, faciənin dünya ictimaiyyətinin diqqətinə çatdırılması mövzusunda mübarizənin əhəmiyyətini qeyd edib.

Xalqımıza qarşı törədilən bir sıra cinayətlərə, o cümlədən 20 Yanvar faciəsinə siyasi-hüquqi qiymətin verilməsində









ümummilli lider Heydər Əliyevin rolunu xüsusi vurğulayan səfir Ulu öndərin 20 Yanvar tarixinin ölkəmizdə "Ümumxalq Hüzn Günü" elan etdiyini, şəhidlərin xatirəsini əbədiləşdirmək üçün Şəhidlər Xiyabanında "Əbədi məşəl" abidə-kompleksi ucaldıldığını diqqətə çatdırıb.

Faciənin müasir dövrdə xalqımızın müstəqillik mübarizəsinə təsirlərindən danışan səfir 20 Yanvar hadisələrinin müstəqil Azərbaycan dövlətinin qurulmasında və xalqın müstəqillik əzminin daha da güclənməsindəki mühüm rolunu vurğulayıb, Azərbaycan xalqının tarixində dönüş nöqtəsi olduğunu deyib. Tədbirdə, həmçinin Azərbaycanın müstəqillik illərində keçdiyi yolda əldə etdiyi nailiyyətlər qeyd olunub, müstəqil Azərbaycanın beynəlxalq və regional rolundan söz açılıb. Ölkəmizin ətraf mühit, iqlim dəyişikliyi, mədəniyyətlərarası dialoq və digər qlobal məsələlərdə müstəsna rolundan bəhs olunub. Mərasimdə 20 Yanvar hadisələrinə həsr olunmuş videoçarx nümayiş edilib.

### Strasburq

**20 Yanvar faciəsinin 35-ci ildönümü ilə əlaqədar ölkəmizin Avropa Şurası yanında daimi nümayəndəliyində Strasburqda yaşayan Azərbaycan icmasının üzvlərinin iştirakı ilə anım tədbiri keçirilib.**

Tədbirdə əvvəlcə xalqımızın azadlığı, dövlətimizin müstəqilliyi uğrunda mübarizədə canlarından keçən həmvətənlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Anım mərasimində çıxış edən Aİ yanında daimi nümayəndə Fəxrəddin İsmayılov ölkəmizin müstəqillik mübarizəsində 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə baş vermiş hadisələrdən bəhs edib, Qara Yanvar hadisəsinin xalqımız üçün qanlı faciə olmaqla yanaşı, millətimizin qəhrəmanlığının, yenilməz iradəsinin rəmzinə çevrildiyini söyləyib. O, üstündən 35 il keçməsinə baxmayaraq, sovet qoşunlarının Azərbaycanda törətdiyi qırğının ağrı-acısının unudulmadığını, şəhidlərimizin xatirəsinin xalqımızın qəlbində əbədi yaşadığını bildirib.

Daimi nümayəndə Azərbaycanın üzləşdiyi faciənin artıq ertəsi günü Ulu Öndər Heydər Əliyevin SSRİ-nin paytaxtı Moskvada ədalətin təmin edilməsi üçün Qanlı Yanvar qırğınını törədənləri pisləyən kəskin bəyanatla çıxış etdiyini və xalqımızın başına gətirilən müsibəti dünyaya çatdırdığını qeyd edib. F.İsmayılov ölkəmizə qarşı ərazi iddialarının irəli sürülməsi və Ermənistandan azərbaycanlıların zorla qovulması ilə başlayan, 20 Yanvar faciəsi və hərbi işğalla davam edən məşəqqətli tarixi dövrün Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi sayəsində ölkəmizin ərazi bütövlüyünün, suverenliyinin tam bərpası ilə sona çatdığını, xalqımız və ölkəmiz üçün artıq yeni bir tarixi dövrün başlandığını qeyd edib.

### Kiyev

**Ukrayna xarici işlər nazirinin müavini Oleksandr Mişenko 20 Yanvar faciəsinin 35-ci ildönümü ilə bağlı bəyanat yayıb. Nazir müavini bəyanatda sovet hakimiyyətinin Bakıda törətdiyi qırğın və onun nəticələrindən bəhs edib.**

O, qeyd edib ki, bunlara baxmayaraq, 20 Yanvar faciəsi Azərbaycan xalqının öz müstəqilliyi uğrunda hərəkatına mane ola bilmədi. "Ukraynanın Azərbaycandakı keçmiş səfiri kimi sovet qoşunlarının Bakıda dinc etirazları necə yatırtmasının bəzi təfərrüatlarını bilirəm. 20 Yanvar faciəsində həlak olan azərbaycanlıları ehtiramla anır, bu matəm günündə biz də kədərlənirik", – nazir müavini O.Mişenko əlavə edib.

### Riqa

**"1990-cı ilin yanvarında Bakıda törədilmiş qırğın SSRİ-nin dağılması üçün mühüm katalizator rolunu oynadı". Bunu Latviya Seyminin deputatı Roman Naudinş bildirib.**

Onun sözlərinə görə, buna Sovet hökumətinin ittifaqa üzv ölkənin xalqlarına qarşı qeyri-insani rəftarı səbəb oldu: "Bakıdakı 20 Yanvar qırğını Sovet hökumətinin dinc əhalinin, o cümlədən qadın və uşaqların həyatına qəsd etməsinin ən bariz nümunəsi, Kremlin öz vətəndaşlarına münasibətinin tarixi sübutudur. Azərbaycan bu hadisələrə öz ədalətli qiymətini verdi və beynəlxalq ictimaiyyət də eyni qiyməti verməlidir. Azərbaycanlılar həmin dövrdə də, ondan sonra da suverenlik uğrunda əsl mübarizlik nümunəsi göstərdilər".

Latviya Seyminin deputatı "Sovet hökuməti isə növbəti dəfə əlini azərbaycanlıların qanına batırdı. Ona görə qara 20 Yanvar cinayətlərini ört-basdır etmək olmaz"– deyə əlavə edib.

### Buxarest

**Azərbaycanın Rumıniyadakı səfirliyi 20 Yanvar faciəsinin 35-ci ildönümünə həsr olunmuş anım tədbiri keçirib. Əvvəlcə 20 Yanvar – Ümumxalq Hüzn Günü ilə əlaqədar səfirliyin əməkdaşları Qanlı Yanvar həqiqətlərinin dünyaya çatdırılmasında misilsiz rolu olan ulu öndər Heydər Əliyevin Buxarestin "Tey" parkında yerləşən abidəsini ziyarət edərək önünə gül dəstələri düzüblər.**

Səfirlikdə 20 Yanvar faciəsi qurbanlarının əziz xatirəsinə həsr olunmuş tədbirdə Rumıniyada yaşayan, təhsil alan soydaşlarımız, o cümlədən Azərbaycan diasporunun nümayəndələri yaxından iştirak ediblər. Azərbaycanın Dövlət Himni səsləndirilib, 20 Yanvar Şəhidlərinin, eləcə də Vətənimizin müstəqilliyi, ərazi bütövlüyü uğrunda canından keçmiş bütün şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Tədbiri çıxış sözü ilə açan səfir Qüdsi Osmanov nitqində ötən əsrin 80-90-cı illərinin tarixi xronikasına nəzər salaraq Azərbaycan xalqının məruz qaldığı qərəzli, seçici münasibətə etiraz əlaməti olaraq iradəsini ortaya qoyması, törədilən bu qanlı cinayətlərə boyun əyməməsi və əsl birlik nümayiş etdirməsi nəticəsində suverenliyinə, müstəqilliyinə qovuşduğunu söyləyib.

20 Yanvar həqiqətlərinin dünyaya çatdırılması yolunda ümummilli lider Heydər Əliyevin göstərdiyi xidmətlərdən danışan diplomat 44 günlük Vətən müharibəsində xalqımızın Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında qazandığı qələbənin, məhz əsası tariximizin qanlı səhifələrinin qazandırdığı qırılmaz iradəmizin nəticəsi olduğunu vurğulayıb.

Daha sonra Azərbaycan Respublikası Milli Arxiv İdarəsinin, İnformasiya təminatı və elektron xidmətlər mərkəzinin Dövlət Kino-Foto Sənədləri Arxivinin materialları əsasında hazırladığı "Qanlı Yanvar – şahid sənədlər" adlı sənədli film nümayiş olunub. Həmçinin səfirlikdə Qanlı Yanvar faciəsinə həsr olunmuş fotosərgi, qonaqlar üçün ehsan süfrəsi təşkil edilib.

### Kişineu

**Moldova paytaxtında 20 Yanvar şəhidlərinin xatirəsi anılıb. Tədbirdə Moldova Xarici İşlər Nazirliyinin dövlət katibi Serju Mixov, Azərbaycanın Moldovadakı səfirliyinin diplomatları, diaspor fəalları, bu ölkədə yaşayan soydaşlarımız və tələbələr iştirak ediblər.**

Əvvəlcə Qanlı Yanvar hadisələrinə həsr olunmuş fotosərgiyə baxış keçirilib. Azərbaycanın Moldovadakı səfiri Ülvi Baxşəliyev çıxışında bildirib ki, hər il Ümumxalq Hüzn Günü kimi geniş qeyd edilən 20 Yanvar faciəsi Azərbaycanın müstəqilliyi uğrunda mübarizə tarixinə həm də qəhrəmanlıq səhifəsi kimi daxil olub. 20 Yanvar hadisəsini Azərbaycan xalqının müstəqillik mübarizəsi adlandıran Moldova–Azərbaycan parlamentlərarası dostluq qrupunun sədri Vitali Jakot qeyd edib ki, Moldova xalqı həmişə Qanlı Yanvar qurbanlarının xatirəsini yad edir, onlara ehtiramını göstərir: "Moldova xalqı adından sizi əmin etmək istəyirəm ki, bu gün biz sizinlə birlikdə kədərlənirik və Azərbaycan xalqına, onun mərdliyinə və mətanətinə dərin hörmətimizi bildiririk. Qoy bu faciə qurbanlarının xatirəsi əbədi olsun, həmrəyliyimiz, dostluğumuz möhkəm və sarsılmaz olsun".

Moldova Azərbaycanlıları Konqresinin sədri Elçin Bayramov çıxışında vurğulayıb ki, bu faciə Azərbaycanı birləşdirdi, ayağa qaldırdı: "Xalqımız qorxmadı, meydanlara, küçələrə çıxıb gücünü göstərdi. Bu gün isə haqq-ədalət bərpa olunub – ordumuz müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Qarabağı düşmən işğalından azad edib. 35 il əvvəl azadlıq uğrunda canlarını fəda edənlər, doğma vətənlərini müstəqil görmək şansı olmayanlar üçün Azərbaycan yenidən doğulub, daha da güclənib".

### Astana

**Ümumxalq Hüzn Günü ilə bağlı Azərbaycanın Qazaxıstandakı səfirliyində anım tədbiri keçirilib. Mərasimdə Qazaxıstanın elm, mədəniyyət və incəsənət xadimləri, diasporumuzun üzvləri, jurnalistlər iştirak ediblər. Əvvəl ümummilli lider Heydər Əliyevin səfirlikdəki büstü önünə gül dəstələri qoyulub, şəhidlərin ruhu bir dəqiqəlik sükutla yad edilib.**

Azərbaycanın Qazaxıstandakı səfiri Ağalar Atamoğlanov çıxışında deyib ki, 20 Yanvar Azərbaycan xalqının tarixində faciə olmaqla yanaşı, həm də qəhrəmanlıq və rəşadət rəmzi kimi anılır. Səfir nəzərə çatdırıb ki, 20 Yanvar faciəsinə dövlət səviyyəsində siyasi-hüquqi qiymətin verilməsi məsələsi Heydər Əliyevin sayəsində mümkün olub. H.Əliyev ölkə rəhbərliyinə qayıtdıqdan sonra 20 Yanvar hadisələrinin hüquqi müstəvidə əsl mahiyyəti açıqlanıb, şəhidlərin xatirəsi əbədiləşdirilib, şəhid ailələrinin sosial müdafiəsi gücləndirilib. Azərbaycan və Qazaxıstan arasında münasibətlərin yüksələn xətlə inkişaf etdiyini, strateji tərəfdaşlıq və müttəfiqlik səviyyəsinə qalxdığını qeyd edən səfir Qazaxıstanın inkişafına soydaşlarımızın öz töhfələrini verdiklərini, onların ölkə həyatının müxtəlif sahələrində fəaliyyət göstərdiklərini vurğulayıb. Diplomat 2024-cü il dekabrın 25-də AZAL-ın sərnişin təyyarəsinin Aktau şəhəri yaxınlığında qəzaya uğradıqdan dərhal sonra Qazaxıstanın aidiyyəti qurumlarının, eləcə də sadə vətəndaşların köməyə gəlməsinin xalqlarımız arasında qardaşlıq bağlarının sözdə deyil, əməldə də öz təsdiqini tapdığını vurğulayıb. Bu ölkədəki diasporumuzun nümayəndələri Mahir Rzayev və Səyyaf İsmayılov çıxışlarında 20 Yanvar faciəsinin günahkarlarını ittiham ediblər. Tədbir çərçivəsində iştirakçılar "Qara Yanvar"ı əks etdirən sərgi ilə tanış olublar.

### Düşənbə

**Azərbaycanın Tacikistandakı səfirliyinin təşkilatçılığı ilə 20 Yanvar faciəsinin 35-ci ildönümünə həsr olunan tədbir və mətbuat konfransı keçirilib. Tədbirdə səfirliyin əməkdaşları, Azərbaycan icmasının nümayəndələri, o cümlədən bu ölkədə təhsil alan azərbaycanlı tələbələr, jurnalistlər iştirak ediblər.**

Azərbaycanın Tacikistandakı səfiri Əlimirzamin Əskərov 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə keçmiş Sovet ordusunun Bakı şəhərində dinc əhaliyə qarşı misli görünməmiş qətliam törətdiyini, amma bu qanlı cinayətin insanların azadlıq eşqini sındıra bilmədiyini deyib. Səfir bildirib ki, Bakıda bu qanlı aksiyanın müəllifi SSRİ-nin o zamankı rəhbəri Mixail Qorbaçov və onun ətrafındakı ermənipərəst qüvvələr olub.

Mətbuat konfransı zamanı jurnalistlərin 20 Yanvar faciəsi, Qazaxıstanda baş vermiş təyyarə qəzası, həmvətənlərimizin Qərbi Azərbaycana qayıdışı, Azərbaycan və Ermənistan arasında sərhədlərin delimitasiyası ilə bağlı son işlər, Tacikistan–Azərbaycan əlaqələrinə dair suallarına cavab verilib. Tədbir çərçivəsində səfirlikdə "Qanlı Yanvar"a həsr olunmuş guşə yaradılıb və faciə ilə bağlı videoçarx nümayiş etdirilib.

*Səhifəni hazırladılar:*
*İmran BƏDİRXANLI,*
*Qulu KƏNGƏRLİ*
*XQ*

# Azərbaycanın tərəqqisi Davos ekranında

## *Ölkəmiz 30 ildir ki, bu nüfuzlu iqtisadi forumda fəal iştirak edir*

**Dünya İqtisadi Forumu (DİF) ölkəmizin siyasi, sosial-iqtisadi sahələrində baş verən ən mühüm dəyişiklikləri beynəlxalq ictimaiyyətə təqdim etmək üçün əhəmiyyətli bir platformadır. Hər il ənənəvi olaraq İsveçrənin Davos şəhərində keçirilən bu nüfuzlu forumda respublikamızın iştirakı dünyada cərəyan edən iqtisadi meyillər haqqında dolğun məlumatlar almağa, eyni zamanda, ölkəmizin iqtisadi potensialı, xarici investisiyaların cəlb olunması imkanlarının təqdimatına, dünyaya lazımlı mesajların verilməsinə əlverişli şərait yaradır.**




DİF isveçrəli professor Klaus Şvabın təşəbbüsü ilə 1971-ci ildə yaradılıb. K. Şvab 1971-ci ildə İsveçrənin Davos şəhərində Avropanın aparıcı 450 şirkətinin rəhbərlərini toplayaraq, dünya iqtisadiyyatının perspektivlərini müzakirə etmək və ümumi strategiya hazırlamaq məqsədilə birinci simpoziumu keçirib. Ötən əsrin 70-ci illərinin ortalarından forumun iclaslarına müxtəlif ölkələrin hakimiyyət nümayəndələri və iş dünyasının liderləri olan sahibkarlar dəvət edilməyə başlanıb. 1987-ci ildən etibarən isə forum Dünya İqtisadi Forumu adlandırılıb.

DİF-in hər il keçirilməsində əsas məqsəd dövlət və hökumət başçılarını, beynəlxalq təşkilatları, elm adamlarını, nüfuzlu siyasətçiləri, iqtisadçıları və biznesmenlərin iştirakı ilə yeni beynəlxalq iqtisadi layihələrin həyata keçirilməsini müzakirə etmək olub. 1979-cu ildən isə bu nüfuzlu forumun mütəxəssisləri tərəfindən "Dövlətlərin qlobal rəqabətə davamlılığı" adlı məruzələr hazırlanıb. Bu məruzələrdə dünyanın 100-dən çox dövləti iki əsas göstərici əsasında — potensial inkişaf və rəqabətə davamlılıq indeksi üzrə qiymətləndirilib.

İqtisadi xarakter daşımasına baxmayaraq, DİF dünya siyasətinə, beynəlxalq münasibətlərə ciddi təsirə malikdir, beynəlxalq aləmdə dünyanın iqtisadi mənzərəsi haqqında aydın təsəvvür yaradır. Toplantıda irəli sürülən yeni fikirlər, təkliflər qlobal iqtisadiyyata yeni istiqamətlər verir. Davos Forumu, eyni zamanda, iqtisadi güc mərkəzlərinin bir-biri ilə dialoqu və dünya ictimaiyyətinə hesabat xarakteri daşıyır.

Qlobal iqtisadi böhranın milyonlarla insanın yaşayışına, ayrı-ayrı dövlətlərin iqtisadiyyatına təsir edən siyasi münaqişələrin davam etdiyi, ərzaq çatışmazlığı probleminin mövcud olduğu indiki dövrdə siyasi liderləri, iş adamlarını, vətəndaş cəmiyyəti qurumlarının rəhbərlərini bir araya toplayan Davos Forumu, şübhəsiz ki, bir çox məsələlərin müzakirəsinə və vacib qərarların qəbuluna əlverişli mühit yaradır.

Ölkəmizin DİF-də iştirakı ötən əsrin 90-cı illərinin ortalarından başlayıb. 1995-ci il yanvarın 27-31-də Prezident Heydər Əliyev ilk dəfə olaraq forumda iştirak etmək üçün İsveçrənin Davos şəhərində işgüzar səfərdə olub. Azərbaycan Respublikasının DİF-də ilk dəfə iştirakı münasibətilə forum çərçivəsində ölkəmizə həsr olunan görüş keçirilib. Ümummilli lider respublikamız haqqında, onun siyasi, iqtisadi və sosial-mədəni inkişaf göstəriciləri barədə tədbir iştirakçılarına geniş məlumat verib. Dahi şəxsiyyət Azərbaycanın karbohidrogen ehtiyatları ilə zəngin olduğunu və respublikamızın bu resurslardan dünyanın gələcək inkişafı naminə istənilən ölkə ilə qarşılıqlı maraqlar əsasında yararlanmaq prinsiplərini özündə əks etdirən xarici iqtisadi siyasət xətti tutduğunu bildirib.

Ulu öndər DİF-də növbəti dəfə 2000-ci il martın 27-30-da iştirak edib. Dahi şəxsiyyət forum çərçivəsində keçirdiyi görüşlərdə ölkəmizin iqtisadi siyasətini diqqətə çatdırmaqla yanaşı, Qarabağ münaqişəsi ilə bağlı məsələləri də müzakirələrə çıxarıb.

Prezident İlham Əliyev də ötən illər ərzində DİF-də fəal iştirak edib. Dövlətimizin başçısı forum çərçivəsində ayrı-ayrı ölkələrin dövlət və hökumət başçıları, bir sıra məşhur şirkətlərin rəhbərləri ilə çoxsaylı görüşlər keçirib və müxtəlif mövzularda aktual müzakirələrə qatılıb. Ölkə rəhbəri DİF-in qlobal pandemiyadan əvvəl 2020-ci ilin yanvarında, həmçinin pandemiyadan sonra 2023-cü ilin yanvarında reallaşan toplantılarında da fəal iştirak edib.

Dövlətimizin ildən-ilə artan nüfuzu və iqtisadi imkanları, regionda baş verən hadisələr, eləcə də yeni reallıqlar fonunda keçən ilki forum ölkəmizə daha mühüm siyasi və iqtisadi dividendlər əldə etmək üçün zəmin yaradıb, dövlətimizin başçısının rəhbərliyi ilə həyata keçirilən inkişaf strategiyasının mühüm istiqamətlərindən biri olan Azərbaycan iqtisadiyyatının biznes və investisiya mühitinin daha da yaxşılaşdırılması ilə bağlı məsələlər ətrafında geniş söhbət– müzakirələr aparılıb.

Yeri gəlmişkən, COP29-un keçən il Azərbaycanda keçirilməsi ilə bağlı qərarına DİF-in ötən ilki panel müzakirələrində, eyni zamanda, ikitərəfli görüşlərdə müsbət yanaşıldı. Bu, bir tərəfdən beynəlxalq aləmi düşündürən, narahat edən məsələyə həssaslıqla yanaşılması, digər tərəfdən isə belə bir önəmli layihənin dünyada sülhpərvər mövqeyi ilə böyük nüfuz qazanan Azərbaycanda gerçəkləşdirilməsi irəli bağlı idi.

Qeyd edək ki, COP29-un Azərbaycanda keçirilməsi ilə bağlı qərar 2023 -cü il dekabrın 11-də Dubayda reallaşan adıçəkilən iqlim konfransının plenar iclasında qəbul olunub. COP iqlim dəyişikliyi ilə mübarizədə çox vacib və dünyanın ən əhəmiyyətli tədbirlərindən biridir. Azərbaycanın bu tədbirə Şərqi Avropa Qrupu ölkələri arasından yekdil qərarla ev sahibi seçilməsi ölkəmizə yüksək etimadın göstəricisi idi.

Xatırladaq ki, bərpaolunan enerji mənbələrinin elektrik enerjisi istehsalında xüsusi çəkisinin 2026-cı ilədək 24 faizə, 2030-cu ilə kimi isə 30 faizə çatdırılması Azərbaycan Respublikasının 2022–2026-cı illər üçün Sosial-İqtisadi İnkişaf Strategiyasında nəzərdə tutulub.

Energetika Nazirliyinin məlumatına əsasən, Azərbaycanın bərpaolunan enerji mənbələrinin texniki potensialı quruda 135, dənizdə 157 qiqavatdır. Bərpaolunan enerji mənbələrinin iqtisadi potensialı 27 qiqavat, o cümlədən külək enerjisi üzrə 3 min meqavat, günəş enerjisi üzrə 23 min meqavat, bioenerji potensialı 380 meqavatdır. Dağ çaylarının potensialı 520 meqavat həcmində qiymətləndirilir.

Bu məqamda onu bildirək ki, Azərbaycan dövlətinin tarazlı xarici siyasəti, əhəmiyyətli coğrafi mövqeyimiz ölkəmizdə siyasi sabitlik və davamlı iqtisadi inkişafa şərait yaradır. Lakin bununla belə təəssüf ki, həm də bir sıra region ölkələrinin, eləcə də, dünya siyasətinə təsir edən böyük dövlətlərin, beynəlxalq təşkilatların həyata keçirdikləri qeyri-adekvat siyasətləri, yanlış qərarları dünyada sülhün və təhlükəsizliyin təminatına, dayanıqlı inkişafa mane olmaqla yanaşı, mövcud münaqişələrin, iqtisadi və siyasi böhranların uzanmasına və dərinləşməsinə, yenilərinin də yaranmasına gətirib çıxarır. Ona görə də DİF ölkələr və beynəlxalq təşkilatlar arasında səmərəli dialoqun reallaşması üçün son dərəcə böyük əhəmiyyət daşıyır.

Xatırladaq ki, Dünya İqtisadi Forumu cari il yanvarın 20-dən İsveçrənin Davos-Klosters şəhərində öz işinə başlayıb və 24-dək davam edəcək. Forum qlobal çağırışları gerçəkləşdirmək və yaranan imkanları araşdırmaq üçün 350 hökumət nümayəndəsi və 60 dövlət və hökumət başçısı daxil olmaqla 130-dan çox ölkədən 3 minə yaxın lideri bir yerə toplayıb.

Forumda iqtisadi artımın yenidən başlaması, yeni texnologiyaların tətbiqi, geosiyasi gərginliklər və iqlim dəyişikliyinin sürətləndirilməsi fonunda sosial və iqtisadi dayanıqlığın gücləndirilməsi müzakirə olunacaq. 220-dən çox sessiya canlı yayımlanacaq və ictimaiyyətə müzakirələrə giriş imkanı verəcək.

### Ekspert rəyi



**Günay QULİYEVA,**
**İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin şöbə müdiri**

Dünya İqtisadi Forumunun (DİF) 2025-ci il toplantısı İsveçrənin Davos şəhərində öz işinə başlayıb. Sayca 55-ci olan forum bu il "Ağıllı əsr üçün əməkdaşlıq" devizi altında keçirilməklə hökumət, biznes və vətəndaş cəmiyyətinin ən yüksək səviyyəli liderlərini, eləcə də tanınmış alimləri və ictimai siyasi xadimləri bir araya gətirir. Builki toplantı etibarlı qlobal dialoq və əməkdaşlıq platforması kimi müxtəlif maraqlı tərəfləri birləşdirməklə mürəkkəb dövrdə əlaqələri gücləndirmək, gələcəyə yönəlmiş baxışlar və həllər təqdim etmək məqsədini daşıyır. Eyni zamanda, forum çərçivəsində "Mürəkkəblikdə liderlik" adlı xüsusi istiqamət müzakirəyə çıxarılacaq.

"Ağıllı əsr üçün əməkdaşlıq" başlığı altında keçirilən builki Davos Forumu qlobal problemlərin həlli istiqamətində beş əsas mövzunu əhatə edir:

– "İnkişafın yenidən təsəvvürü" – qlobal iqtisadi artımın yeni mənbələrinin müəyyənləşdirilməsi və daha dayanıqlı iqtisadiyyatların qurulması;

– "Ağıllı dövrdə sənayelər" – sənaye liderlərinin texnoloji dəyişikliklər və yeni sənaye dinamikaları ilə uzunmüddətli prioritetlərini tarazlaşdırmalarına kömək edilməsi;

– "İnsanlara investisiya" – insan kapitalının inkişafını və ona investisiyanı təşviq edərək dayanıqlı cəmiyyətlərin qurulmasına dəstək verilməsi;

– "Planeti qorumaq" – iqlim və təbiət problemlərinin həlli üçün innovativ tərəfdaşlıqların qurulmasını, maliyyələşdirmənin artırılmasını və qabaqcıl texnologiyaların tətbiqinin əhatə edilməsi;

– "Etimadın yenidən qurulması" – beynəlxalq arenada və cəmiyyət daxilində etimadın bərpası üçün yeni əməkdaşlıq yollarının araşdırılması.

Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Dünya İqtisadi Forumunun mühüm tərəfdaşlarından birinə çevrilib. 2020-ci il yanvarın 21-də Davosda imzalanan niyyət protokolu əsasında ölkəmiz Dördüncü Sənaye İnqilabı Mərkəzləri Şəbəkəsinə qoşulub və qlobal innovasiya proseslərində fəal rol oynamağa başlayıb. Bu təşəbbüs çərçivəsində İqtisadiyyat Nazirliyinin tabeliyində 2022-ci ildə fəaliyyətə başlayan Dördüncü Sənaye İnqilabı Mərkəzi (4SİM) həm qlobal miqyasda, həm də yerli iqtisadi transformasiya layihələrinin həyata keçirilməsində əhəmiyyətli rol oynayıb.

Qeyd edək ki, Prezident İlham Əliyev hazırda Davosdadır və artıq Forumun bir neçə mühüm müzakirəsində iştirak edib. Bununla yanaşı, yanvarın 23-də keçiriləcək "Caspian Crossroads and Currents" adlı paneldə də dövlət başçısının iştirakı nəzərdə tutulur. Bu panel çərçivəsində regionun strateji əhəmiyyətini artıran əsas iqtisadi və siyasi məsələlər gündəliyə gətiriləcək. Prezident İlham Əliyevin indiyədək forum çərçivəsində apardığı müzakirələr regional əməkdaşlıq, enerji təhlükəsizliyi və iqtisadi inkişaf məsələlərinə dair dərin analitik baxışların təqdim olunmasına mühüm töhfə verib və onun növbəti çıxışı da beynəlxalq ekspertlər tərəfindən böyük maraqla gözlənilir.

Dünya İqtisadi Forumunun 2025-ci il toplantısı qlobal problemlərə kollektiv həll yolları axtarışında əhəmiyyətli bir mərhələdir. Azərbaycan bu tədbirdə aktiv iştirakı ilə öz mövqeyini möhkəmləndirərək beynəlxalq əməkdaşlığa töhfəsini davam etdirir.

# Karbamid zavodu ölkəmizin tələbatını tam ödəyir

## *Xaricə də xeyli məhsul satılır*

**2025-ci ildə SOCAR Karbamid zavodunda 592 min ton məhsul istehsal ediləcəyi proqnozlaşdırılır. Bu barədə Azərbaycan Dövlət Neft Şirkətindən məlumat verilib.**



Bildirilib ki, bu il zavodda bir sıra mühüm tədbirlərin həyata keçirilməsi nəzərdə tutulur. Belə ki, il ərzində beynəlxaq standartlara uyğun olaraq aktivlərin performans idarəetməsinin qurulması ilə bağlı işlərin davam etdirilməsi ilə yanaşı, qabaqcıl proses idarəetməsi və avtomatik idarəetmə sistemləri yenilənəcək, eləcə də proseslərin rəqəmsal analizi üçün "Digital twin (əkiz)" yaradılacaq, robotik proseslər avtomatlaşdırılacaq, "Emissiyaların idarə edilməsi layihəsi" üzrə yeni monitorinq sistemi quraşdırılacaq. Bununla yanaşı, il ərzində müəssisədə mühəndislik sənədləri və layihələrin idarə edilməsi, eləcə də digər layihələrin icrası sahəsində də mühüm işlər görüləcək.

Dövlət Neft Şirkətinin məlumatına görə, ötən il zavodda 652 min 339 ton karbamid məhsulu istehsal edilib. Hazırda Karbamid zavodunun anbarlarında açıq şəkildə, təqribən, 50 min 760 ton və qablaşdırılmış şəkildə 23 min 746 ton olmaqla, ümumilikdə, 74 min 506 tondan çox məhsul saxlanılır. Fəaliyyətə başlayandan bəri isə zavodda 2 milyon 288 min 990 ton karbamid məhsulu istehsal edilib.

Xatırladaq ki, ölkəmizin karbamidə olan tələbatını tam ödəyən zavodun təməli 2011-ci ildə qoyulub. Sumqayıt Kimya Sənaye Parkının ərazisində yerləşən zavodun layihələndirilməsi və tikintisi ammonyak istehsalı üzrə Danimarkanın "Haldor Topsoe" və karbamid istehsalı üzrə Niderlandın "Stamicarbon B.V" şirkətlərinin texnologiyası əsasında Cənubi Koreyanın "Samsung Engineering" şirkəti tərəfindən həyata keçirilib. Finlandiyanın "Neste Engineering Solutions" şirkəti isə layihənin idarə edilməsi üzrə məsləhət və müstəqil təftiş xidmətləri göstərib. Tikintinin pik vaxtında zavodun inşasına, ümumilikdə, 3 min 600 nəfərdən artıq işçi cəlb olunub və 18 milyon adam-saatdan çox iş həcmi qəzasız şəraitdə yerinə yetirilib.

2019-cu il yanvarın 16-da istifadəyə verilmiş SOCAR Karbamid zavodu ölkədə qeyri-neft sektorunda həyata keçirilmiş ən böyük layihələrdən biridir. Layihənin maliyyələşdirilməsi ilkin dövrdə dövlət büdcəsindən ayrılan maliyyə vəsaiti hesabına həyata keçirilib. Daha sonra Cənubi Koreyanın İxrac-idxal Bankından, habelə "Societe Generale" (Fransa), "Deutsche Bank" (Almaniya) və "UniCredit" (Avstriya) banklarından dövlət zəmanəti əsasında 500 milyon avro məbləğində vəsait cəlb edilib. Bununla yanaşı, layihə ilə bağlı vergi və rüsumların, habelə digər xərclərin ödənilməsi məqsədilə Dövlət Neft Şirkəti tərəfindən, təxminən, 100 milyon avro məbləğində vəsait ayrılıb.

Hazırda zavod il ərzində 435 milyon kubmetr təbii qaz həcmindən xammal kimi istifadə etməklə 650-660 min ton karbamid məhsulu istehsal etmək gücünə malikdir. Karbamid zavodu istismara veriləndək ölkəmiz azot gübrələrini idxal edildiyi halda hazırda bu müəssisə həm daxili bazarın tələbatını tam ödəyə bilir, həm də istehsal etdiyi məhsulun 70 faizindən çox hissəsini ixrac edir. Nəticədə, daha əvvəl idxal üçün sərf edilən milyonlarla valyuta vəsaiti ölkədə qalır. Bununla yanaşı, zavod ölkənin qeyri-neft ixrac gəlirlərinin artırılmasına da mühüm töhfələr verir.

# Sığorta bazarının həcmi 1,4 milyard manata çatıb

**2024-cü ildə Azərbaycanda sığorta bazarının həcmi 1,4 milyard manata yaxınlaşıb. Bu barədə Mərkəzi Bankın sığorta fəaliyyətinə nəzarət departamentinin direktoru Vüsal Qurbanov məlumat verib.**



Onun sözlərinə görə, ötən il sığorta sektoru üzrə ümumi sığorta haqları 1 milyard 353 milyon manat, sığorta ödənişləri isə 753 milyon manat təşkil edib. Sığorta haqları ötən ilin eyni dövrü ilə müqayisədə 11 faiz, sığorta ödənişləri isə 28 faiz artıb.

V. Qurbanov bildirib ki, sığorta haqlarının 75 faizi könüllü, 25 faizi isə icbari sığorta növlərinin payına düşür. Hesabat dövründə sığorta haqlarının 54 faizini həyat, 46 faizini isə qeyri-həyat sığorta sahəsi üzrə yığımlar təşkil edib. "Mərkəzi Bank tərəfindən atılan addımların və görülən işlərin sığorta bazarının inkişaf etdirilməsinə xidmət etdiyini nəzərə alaraq qeyd olunan göstəricilərin növbəti ildə də müsbət dinamika ilə inkişaf edəcəyini söyləmək mümkündür", – deyə o əlavə edib.

# İllik iqtisadi sərmayə – 21 milyard 435 milyon manat

**2024-cü ildə Azərbaycanda əsas kapitala 21 milyard 435 milyon manat investisiya yönəldilib. Dövlət Statistika Komitəsinin bu barədə məlumatında daha sonra qeyd edilib ki, son 1 ildə neft-qaz sektoruna investisiyalar 10,2 faiz azalıb, qeyri neft-qaz sektoruna yönəldilmiş investisiyalar isə 3,3 faiz çoxalıb.**



Ötən il istifadə olunmuş investisiyanın 10 milyard 641 milyon manatı və yaxud 49,6 faizi məhsul istehsalı sahələrinə, 8 milyard 221 milyon manatı və yaxud 38,4 faizi xidmət sahələrinə, 2 milyard 573 milyon manatı və yaxud 12 faizi isə yaşayış evlərinin tikintisinə sərf olunub.

Hesabat dövründə əsas kapitala yönəldilmiş investisiyaların 18 milyard 146 milyon manatı və yaxud 84,7 faizi daxili investisiyalar olub, 15 milyard 524,9 milyon manatı və yaxud 72,4 faizi isə bilavasitə tikinti-quraşdırma işlərinin yerinə yetirilməsinə sərf edilib.

*Səhifəni hazırladılar:*
***Vaqif BAYRAMOV,***
***Mirbağır YAQUBZADƏ***
***XQ***

İzimiz-sorağımız

# Qaraxanlılar dövləti

**Qaraxanlılar Dövləti və ya Qaraxanlılar Xaqanlığının mədəniyyətində və cəmiyyətdə İslam dini əsas rol oynayıb, türk adət-ənənələrinin inkişafına güclü təsir göstərib. Bu dövlətdə Yusif Balasaqun, Mahmud Qaşğarlı, Xoca Əhməd Yasəvi, Əhməd Yuknəki... kimi tanınmış şairlər, alimlər, rəssamlar, sənətkarlar yetişib, türk dilini, ədəbiyyatını və mədəniyyətini inkişaf etdiriblər. X əsrin sonu, XI əsrin əvvəllərində türk xalqlarının tarixində ilk dəfə olaraq Quranın şərhləri olan “Təfsir” türk dilinə məhz Qaraxanlılar dövləti dövründə tərcümə olunub.**

Böyük İpək yolu bu dövlətin ərazisindən keçdiyindən Səmərqənd və Buxara İslam mədəniyyətinin aparıcı mərkəzlərinə çevrilib, bu şəhərlərdə minarələr, məscidlər, karvansaralar tikilib.

Buxaranın simvoluna çevrilən Kalon minarəsi və ya Böyük Buxara minarəsi 1127-ci ildə Qaraxanlılar dövlətinin hökmdarı Arslan xan tərəfindən tikilən ən qədim məbədlərdən biridir və 900 ilə yaxındır ki, təmir olunmayıb.

1078-1079-cu illərdə Şəmsmülk böyük Rabat Məlik karvansarasını, Buxarada məscid və Şəmsabad sarayını tikdirib.

Səmərqənddə Qaraxanlılar dövrünün möhtəşəm abidəsi XII əsrdə tikilmiş İbrahim ibn Hüseyn (1178-1202) sarayıdır.

1072-1074-cü illərdə Mahmud Kaşğarlı “Türk ləhcələri lüğəti”ni tərtib edib. Ensiklopedik alim bu əsərdə türk xalqlarının 400-dən çox atalar sözü, məsəl, qəhrəmanlıq dastanından fraqmentlər toplayıb.

Məşhur tarixçi alim Məcidəddin əs-Surxakati Səmərqənddə Qaraxanlılar sülaləsinin tarixini əks etdirən “Türküstan tarixi” əsərini yazıb.

*

840–1212-ci illərdə Türküstanda mövcud olan Qaraxanlılar dövlətinin rəsmi dili türk dili, ünsiyyət dilləri Qaraxanlı türkcəsi, fars dili olub. Qaraxanlılar dövləti Balxaş gölündən Hindiquş dağlarına qədər olan geniş torpaqları – təqribən 3 milyon kvadratkilometr ərazini əhatə edib.

Şaş (indiki Daşkənd), Talas, İsficab (Çimkənd), Yeddisu bölgəsi, Fərqanə vadisinin bir hissəsi, Ordukənd, yaxud Qaşqar, Yarkənd, Balasaqun, Almalıq, Təklə-Məkan səhrası, Xotən şəhəri, Hindiquş və Qaraqorum dağları arasındakı Gilgit şəhəri Qaraxanlılar dövlətinin ərazilərinə daxil olub.

940-1130-cu illərdə Balasaqun, 1130–1211-ci illərdə Qaşqar, 1040–1212-ci illərdə Səmərqənd, 1141–1212-ci illərdə Uzqen şəhərləri dövlətin paytaxtları olub.

Dövlətin milli tərkibini uyğurlar, cığataylar, digər türk tayfaları, qara monqollar və s. təşkil edib.

Türk dünyasında İslam dinini ilk dəfə qəbul edən Qaraxanlılar dövlətinin 11 hökmdarı olub. Sonra isə bütün xaqanlıq İslamı qəbul edib.

Qaraxanlı hökmdarlarının sülaləsi qədim Türğişxaqanlar nəslindəndir. Qərbi Göytürk Xaqanlığının son hökmdarları bu nəsildəndir.

Qaraxanlılar dövlətinin böyük hökmdarları:

**Qutluq Bilgə Qul Qədir xan**, (840–893).

Dövlətin əsasını Qutluq Bilgə Qul Qədir xan qoyb. O özünə “Qara xan”, yəni “Böyük xan” dediyi üçün dövlətin də adı Qaraxanlılar adlandırılıb.

840-cı ildə Uyğur Xaqanlığı qırğızlar tərəfindən süqut etdirildikdən sonra dövlətdə hərc-mərclik başlayıb, 850-ci ildə isə İsficab şəhərinin hakimi Bilgə Qədir xan qarluqlar tərəfindən xaqan elan olunub. 53 illik hakimiyyəti dövründə Samanilərlə müharibə edib.

Qədir xanın iki oğlu olub: Bazir Arslan xan və Oğulcaq xan. Hər ikisi sonralar xaqanlıq ediblər.

**Bazir Arslan xan** (893–920), dövlətin II xaqanı. Qutluq Bilgə Qul Qədir xanın oğlu. Bazir Arslan xanın Satıq Buğra xan adlı oğlu olub və o, kiçik xaqan kimi tanınıb.

**Oğulcaq xan** (893–940), Qaraxanlılar dövlətinin III xaqanı, Qutluq Bilgə Qul Qədir xanın oğlu. Oğulcaq xanın 47 illik hakimiyyəti dövründə həyatı münaqişələrdə keçib. O, qardaşı oğlu, şahzadə Satıq Buğranın müsəlman olmasını eşitdikdə ona Tenqri məbədi hazırlamağı əmr edir. Məbəd hazır olduqdan sonra Satıq Buğra xan açıq şəkildə əmisi Oğulcaq xana qarşı çıxır və onu öldürüb taxta yiyələnir.

**Satıq Buğra xan** (940–955), dövlətin IV xaqanı, Bazir Arslan xanın oğlu. Satıq Buğra xanın Musa Baytaş Buğra xan adlı oğlu olub.

Satıq Buğra xan 932-ci ildə İslamı qəbul edərək ilk müsəlman Türk xaqanı kimi tarixə düşüb. Bundan sonrakı xaqanlar və xaqanlıq kütləvi surətdə İslamı qəbul edib. Satıq Buğra xanın dövründə İslam dövlətin rəsmi dini elan olunub. Bu, türk və İslam tarixi üçün əhəmiyyətli bir addım olduğundan bu haqda “Satıq Buğra xan” dastanı da yaradılıb. X əsrdə yaşayan ərəb səyyahı və alimi Əhməd ibn Fədlan yazır ki, miladi 960-cı ildə təxminən 200 min çadırlıq Türk dövləti (Qaraxanlılar) İslam dinini qəbul edib. Onun hakimiyyəti dövründə Qaşqar, Fərqanə və Türküstanın bir sıra böyük şəhərləri ələ keçirilib.






Satıq Buğra Xan Türbəsi (Şərqi Türküstan Qaşqar şəhəri)

Satıq Buğra xan 955-ci idə Artuçda vəfat edib, qəbrinin üstündə böyük türbə tikilib.

**Musa Baytaş Buğra xan** (955–970), dövlətin V xaqanı, Satıq Buğra xanın oğlu.

15 illik hakimiyyəti illərində Qaraxanlılar dövlətinin ərazisində İslam dininin yayılmasını davam etdirib. Xanzadə Əli xan Qaraxanlı adında oğlu, Xanzadə Nəsr bin Əli xan, Xanzadə Əhməd xan, Xanzadə Mənsur Arslan xan adlı nəvələri olub.

**I Harun Buğra xan** (970–993), Qaraxanlılar dövlətinin VI xaqanı, Satıq Buğra xanın nəvəsi. I Harun Buğra xan Mavəraünnəhri ilk fəth edən Qaraxanlı hökmdarı kimi tarixə düşüb. 990-cı ildə İsficabı (indiki Çimkənd), iki il sonra Samanilərin paytaxtı Buxaranı işğal edib. Buğra xan Qaşqara dönərkən 992-ci ildə yolda vəfat edir.

II Əhməd xan və Yusif Qadir xan adlı oğlanları olub.

**Nəsr bin Əli xan** (993–999), Qaraxanlıların VII xaqanı, 993-cü ildə əmisi I Harun Buğra xanın ölümündən sonra taxta çıxıb. Nəsr bin Əli xanın dövründə Qaraxanlılar dövləti Abbasi xəlifəsi tərəfindən İslam dövləti kimi tanınıb.

Nəsr bin Əli xan 999-cu ildə vəfat edib, Məhəmməd xan Qaraxanilı və İbrahim Tamğaç xan adlı övladları olub.

**I Əhməd xan** (999–1015), Qaraxanlıların VIII xaqanı, qardaşı Nəsr bin Əli xanın ölümündən sonra hakimiyyətə keçib.

**Mənsur Arslan xan** (1015–1024), Qaraxanlılar dövlətinin IX xaqanı. 1015-ci ildə qardaşı Əhməd xanın ölümündən sonra hakimiyyətə gəlib.

**II Əhməd xan** (1024–1026), Qaraxanlılar dövlətinin X xaqanı. 1024-cü ildə əmisi oğlu Mənsur Arslan xanın ölümündən sonra hakimiyyətə keçib.

**Yusif Qadir xan** (1026–1041), XI xaqan, Harun Buğra xanın oğlu. Yusif Qadir xan taxta çıxandan sonra hakimiyyət uğrunda gedən müharibələrə son qoyulub, bununla belə Yusif Qadir xan 1032-ci ildə Qaşqarda vəfat etdikdən sonra onun oğlanları və əmisi oğlu Nəsr bin Əli xanın oğlanları arasında hakimiyyət üstündə gedən müharibələr nəhəng Qaraxanlılar dövlətini iki yerə – Şərqi Qaraxanlılar dövlətinə və Qərbi Qaraxanlılar dövlətinə bölüb.

**Şərqi Qaraxanlılar dövləti**.

Qaraxanlılar iki yerə bölündükdən sonra 1032-1211-ci illərdə hökmdarlıq edən türk xanlığı. Dini İslam, dili türk dili. 1032-1130-cu illərdə xanlığın paytaxtı Balasaqun, 1130-1211-cu illərdə Qaşqar olub. Balasaqun isə təntənəli mərasimlər şəhərinə çevrilib. Xanlıqda kargüzarlıq türk və ərəb dillərində aparılıb. 1139-cu ildə xanlıq qarakitayların nəzarətinə keçsə də, dövlət kimi mövcudluğu qalıb. 1141-ci ildə xanlığın qalan hissəsinin paytaxtı Özkənd şəhəri olub.

Qaraxanlılar dövlətində Böyük Xaqan kimi tanınan Şərəfüddövle ləqəbli Süleyman Arslan xan mərkəzi Balasaqun və Qaşqar şəhərlərini öz xanlığının tərkibində saxlayıb, qardaşı II Buğra xan Məhəmmədə Taraz ilə İsficabı (Çimkənd), Mahmuda isə Arslan Tigin ləqəbi ilə ölkənin şərqini verib. Bununla belə torpaq üstündə qardaşlar arasında mübarizə və müharibələr ara verməyib.

1050-ci illərin əvvəlindən qardaşlar arasında dövlətin sərhədləri, taxt-tac uğrunda müharibələr daha da güclənib. Eyni zamanda, Səlcuqlular və Qəznəvilərlə davamlı toqquşmalar olub.1062-ci ildə Çinin Sonq İmperiyası ilə siyasi və ticarət əlaqələri qurulub. Yalnız 1068-ci ildə Qərbi Qaraxanlılar xanlığı ilə müqavilə bağlanıb və bu müqaviləyə əsasən Seyxun çayı dövlətlər arasında sərhəd olub.

1075–1102-ci illər xanlıqda siyasi, iqtisadi və mədəni yüksəliş dövrü sayılıb. 1102-ci ildə parçalanan iki Qaraxanlı xanlığının birləşdirilməsinə cəhd edilsə də, 1103-cü ildə Səlcuqlulara qarşı döyüşdə Cəbrayıl Qədir xan ölür, bundan sonra köçərilərlə müharibələr nəticəsində dövlətin zəifləməsi prosesi başlayır.

1128-ci ildə qarakitaylarla müharibələr başlanır, 1130-cu ildə II Xaqan İbrahim müvəqqəti Qərbi Qaraxanlılar xanlığını yenidən fəth edə bilir, bununla belə 2 ildən sonra geri çəkilmək məcburiyyətində qalır. 1133-cü ilə qədər qarakitayların hücumu nəticəsində paytaxt Balasaqunla birlikdə şimal torpaqları da itirilir. 1141-ci ilə qədər Şərqi Qaraxanlılar xanlığı Qaraxanlıların üstünlüyünü tanıyır.

1178-ci ildə Uzgenli III İbrahim Boqra xan Qərbi Qaraxanlılar xanlığını fəth edir.

1211-ci ildə Qaşqar mülkü ilə birgə Qarakitay xanlığına birləşdirilir. Eyni zamanda, 1209-cu ildə uzgenli Əhməd Qədir xan Xarəzmin üstünlüyünü tanıyır. 1213-cü ildə Mahmud Arslan xanın dövründə Uzgen mülkü ilə birgə Qarakitay dövlətinə birləşdirilir, bununla da Şərqi Qaraxanlılar xanlığının mövcudluğuna son qoyulur.

**Balasaqunda Şərqi Qaraxanlılar dövlətinin xanları:**

Süleyman Arslan xan (1032–1055).
II Məhəmməd Buğra xan (1055–1057).
I İbrahim Buğra xan (1057–1059).
Mahmud Toğrul xan (1059–1074).
Ömər Toğrul xan (1074–1075).
II Harun Buğra xan (1075–1102).
Cəbrayıl Qədir xan (1102–1103).
Əhməd Arslan xan (1103–1130).

**Qaşqarda Şərqi Qaraxanlılar dövlətinin xanları:**

II İbrahim Buğra xan (1130–1156).
III Məhəmməd Buğra xan (1156–1180).
II Yusif Tamğaç xan (1180–1205).
IV Məhəmməd Buğra xan (1205-1211).

**Özkənddə Şərqi Qaraxanlılar dövlətinin xanları:**

Hüseyn xan (1141–1156).
Mahmud xan (1156–1162).



Ayşa Bibi məqbərəsi (Qazaxıstanın Taraz şəhəri)

İbrahim Buğra xan (1162–1178).
Əhməd xan (1178–1210).
Mahmud xan (1210–1212).

Şərqi Qaraxanlılar xanlığında Qaraxanlılar dövlətində əvvəllər mövcud olan idarəetmə sistemi qorunub saxlanıb. Bütün məsələlər Divanda (Məclis) həll edilib və Divanın başında Xaqan dayanıb.

Xanlığın iqtisadiyyatının əsasını əkinçilik, maldarlıq və ticarət təşkil edib. Şəhərlər sürətlə inkişaf yolu tutub, Fərab, Kazıkurt kimi yeni şəhərlər tikilib. Çinlə güclü iqtisadi əlaqələrin qurulması ticarətin inkişafına meydan açıb.

**Qərbi Qaraxanlılar dövləti** və ya **Qərbi Qaraxanlılar xaqanlığı.** Dövlət 1040-1212-ci illərdə fəaliyyət göstərib, paytaxtı əvvəl Özkənd, sonra Səmərqənd olub.



Dövlətin bayrağı

Türküstanda Qaraxanlılar dövlətində hakimiyyət uğrunda gedən qarşıdurma zəminində dövlətin Şərq və Qərb xanlıqlarına parçalanması nəticəsində yaranan türk dövləti. Qərbi Qaraxanlılar dövlətinin banisi İbrahim Nəsr Tabqaç xan sayılır, 1040-1068-cı illərdə xaqan olub.

Nəsr Tabqaç xanın dövründə dövlətin inkişaf dövrü başlanıb. Sonra Nəsr Tabqaç xanın oğlu Şəmsmülk Nəsr xan (1068-1080) atasının siyasətini davam etdirib.

Şəmsmülkün varisi Xızır xan Qaraxanlı 1080-1087-ci illərdə hakimiyyətdə olub.

Mavəraünnəhr ərazisi və Fərqanənin qərb hissəsi Qərbi Qaraxanlılar xaqanlığının tərkibinə daxil olub. Xaqanlıq arasındakı sərhəd Sırdəryadan keçib və bu torpaqlar uğrunda onlar arasında daim mübarizə gedib.

1089-cu ildə Səlcuq sultanı Məlik şah böyük bir ordu ilə Səmərqənd şəhərini işğal edir. Bununla da Qərbi Qaraxanlılar dövləti Böyük Səlcuqi İmperiyasının hakimiyyəti altına girməyə məcbur olur.

**Qərbi Qaraxanlılar dövlətinin xanları:**

I Nəsr xan (999 - 1012).
Əhməd xan (1012 - 1016).
Məhəmməd xan (1016 – 1024).
Əli-tegin xan ( 1024 - 1034).
Yusif xan (1034).
Hüseyn xan (1034 - 1038).
Məhəmməd xan (1038 - 1040).
İbrahim Nəsr Tabqaç xan (1040 - 1068).
Şəmsmülk xan (1068 - 1080).
Xızır xan (1080 - 1087).
Əbülmüzəffər Əhməd xan (1087 - 1095).
Mahmud xan (1095 - 1097).
Süleyman-Təkin xan (1097 - 1098).
Cəbrayıl Qədir xan (1098 - 1102).
Məhəmməd tegin xan (1102 - 1129).
III Nəsr xan (1129).
Əhməd xan (1129 - 1130, 1132).
II İbrahim Buğra xan (1130 - 1132, 1141 - 1156).
III Mahmud xan (1132 - 1141).
Əli xan ( 1156 - 1163).
Məsud xan (1163 - 1178).
III İbrahim Boğra xan (1178 - 1201).
Osman İbrahim xan (1201 - 1212).

XII əsrin ortalarından başlayaraq hakimiyyət uğrunda hökmdarların daxili müharibələri Qərbi Qaraxanlılar dövlətini zəiflətməyə başlayır. 1156-cı ildə hakimiyyət Həsənilər sülaləsinin əlinə keçir. Qərb qanadının sonuncu xaqanı Osman İbrahim xan 1212-ci ildə vəfat edir, XIII əsrin əvvəllərində Qaraxanlılar sülaləsinin hakimiyyəti sona çatır. Bununla da tarixdə, ümumilikdə, 372 il yaşayan, dünyaya meydan oxuyan böyük Qaraxanlılar Dövləti tarixin səhnəsindən silinir.

*Qulu KƏNGƏRLİ,*
*XQ-nin Türküstan üzrə xüsusi müxbiri*
**Daşkənd**

Vasif Səmədov – 75

# Mənəviyyat adamı

**Onsuz varlığının sevinci qədər, yoxluğu acıtdı, həm də təkcə doğmalarını deyil, onu tanıyan hər kəsi... Vasif Səmədovun hansı keyfiyyətləri, dəyərləri, özəllikləri idi ürəkləri sızladan? Bir cavabı var: Vasif müəllim çox səmimi insan idi. Məfkurə adamı kimi dəyişməz idi, hər zaman özü olaraq qaldı.**



Uşaqlıq və ilk gənclik çağları Masallıda keçib. Sonra ADU-nun jurnalistika fakültəsindən keçən tələbəlik, Ukraynada əsgərlik illəri, "Azərbaycan pioneri"nin səhifələrindən başlanan, tele-radio komitəsindən, "Azərbaycan gəncləri", "Kommunist", "İzvestiya", "Rossiyski fermer" qəzetlərindən keçən, "Oqonyok"dan və "Literaturnaya qazeta"dan şaxələnən jurnalistlik fəaliyyəti, "Oqonyok" jurnalının və "Literaturnaya qazeta"nın Mərkəzi, Qərbi Asiya ölkələri üzrə xüsusi müxbiri və müxbir bürosunun müdiri, "Kaspian-İzvestiya" Beynəlxalq İnformasiya Agentliyinin prezidenti vəzifələri onun tərcümeyi-halının səhifələridir.

Vasif Səmədov 50 ildən artıq fəaliyyəti dövründə xalqımızın dünəni və bugünü haqqında həqiqətləri, Azərbaycan elm və mədəniyyətinin uğurlarını, layiqli həmvətənlərimizi dünyaya tanıtdırmış, erməni məkrinə qarşı vətəndaş təəssübkeşliyi ilə mübarizə aparmış qələm adamıdır. Onun 20 Yanvar faciəsindən bəhs edən "Müdaxilə", Azərbaycanın milli qəhrəmanlarının, şəhidlərimizin həyat yolunu əks etdirən "Təki Vətən yaşasın", "Vətən üçün lazım gəlsə" kitablarının tarixi, siyasi, tərbiyəvi dəyəri olduqca böyükdür. "İzvestiya" qəzetinin səhifələrində çap olunan və sonra Azərbaycan və rus dillərində nəşr edilən "Müdaxilə", "Vtorjeniye" silsilə yazıları 20 Yanvar həqiqətləri ilə yanaşı, ermənilərin əsassız ərazi iddialarını, planlı fitnəkarlıqlarını da beynəlxalq auditoriyaya geniş açıqlayıb.

Beynəlxalq Jurnalistlər Konfederasiyasının, Azərbaycan Yazıçılar və Jurnalistlər birliklərinin üzvü, Əməkdar jurnalist, "Kamil sənətkar", "Qızıl qələm", "Zərdabi", "Araz", "Qafqazda sülh uğrunda" mükafatlarına sahib, "Oqonyok" jurnalının laureatı, Amerika Biblioqrafiya İnstitutunun Direktorlar Şurasının tərtib etdiyi "Dünyanın 1000 nüfuzlu şəxsi" adlı biblioqrafik sorğu kitabında jurnalistika üzrə Azərbaycanı təmsil edən Vasif Səmədov dünya mətbuatında ölkəmizin haqq səsi idi. Transmilli medianın azərbaycanlı jurnalisti kimi şöhrət qazanmışdı.

Publisistik yaradıcılığı ilə yanaşı, pedaqoji fəaliyyətlə məşğul olan Vasif müəllim zəngin təcrübəsini tələbələrlə bölüşməkdən heç zaman yorulmayıb. Beynəlxalq jurnalistikanın nəzəri məsələlərinə dair məqalələri, "Beynəlxalq kütləvi informasiya vasitələri" kitabını ərsəyə gətirib.

Vasif Səmədov informasiya blokadasını qıran, Qarabağ həqiqətlərini dünyaya yayan ilk jurnalistlərimizdən olub. O, "Oqonyok" jurnalının Azərbaycan, İran və Türkiyə üzrə xüsusi müxbiri kimi müstəqil dövlətimizin daxili və xarici siyasətinin rusdilli, transmilli media vasitəsilə dünyaya çatdırılması işində fəaliyyətini daha da genişləndirdi. Həmçinin, "Literaturnaya qazeta"nın xüsusi müxbiri olaraq müstəqil Azərbaycan dövlətinin uğurlarını, mövcud problemlərimizin həlli, ölkəmizin beynəlxalq nüfuzunun artırılması üzrə ölkə rəhbərliyinin apardığı siyasəti doğru-düzgün işıqlandırıb, prinsipiallığı və obyektivliyi ilə seçilib. Öz yazıları ilə xalqının, ölkəsinin mənafeyinə xidmət edən vətəndaş mövqeyini, jurnalist fədakarlığını, yüksək intellekt və mədəniyyətini daim təsdiq edib, geniş oxucu kütləsinin rəğbətini, məhəbbətini qazanıb.

1990-cı ilin Qanlı Yanvar günlərində informasiya blokadasına salınmış, təcrid edilmiş Azərbaycanın gerçəkliklərini, ölkədə baş verən misli görünməmiş faciələr haqqında həqiqətləri keçmiş SSRİ-nin ən çox oxunan mətbu orqanlarından biri olan "İzvestiya" qəzeti vasitəsi ilə dünyaya car çəkmək bacarığı, peşəkarlığı da bu dəyərli insanın Vətən sevgisini əks etdirirdi.

Ermənilərin anti-Azərbaycan təbliğatının hökm sürdüyü bir vaxtda – 1996-cı ildə "Oqonyok" jurnalının bütöv bir nömrəsinin Azərbaycan Respublikasına, onun bugününə və tarixinə, nailiyyətlərinin və problemlərinin təhlilinə həsr edilməsi, ən əsası Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü və ərazisinin 20 faizinin işğal edilməsi, bu təcavüzün ağır nəticələri barədə materialların yer alması Vasif Səmədovun vətəndaş mövqeyinin bariz nümunəsi idi. Ümummilli lider Heydər Əliyev bu tarixi hadisəni təqdimat mərasimində söylədiyi nitqdə qiymətləndirərək demişdi: "Bu, sadəcə olaraq, jurnalın bir nömrəsi deyil, Azərbaycan haqqında kitabdır, həm də çox yaxşı kitabdır". Bu hadisə peşəkar jurnalistin həm də bir diplomat obrazını səciyyələndirir.

Onu da qeyd edək ki, həqiqi vətənpərvər Vasif Səmədovun da böyük əməyi, xidməti olan "Odlar diyarı" filmi Almaniyada böyük uğur qazanıb. Bundan başqa o, İsveçrə televiziyasının Azərbaycana həsr etdiyi daha bir filmin ssenarisinin həmmüəllifi olub.

Vasif Səmədov ulu öndər Heydər Əliyevin Azərbaycana rəhbərliyi dövründə dəfələrlə onunla müsahibələr aparıb, xarici səfərlərdə müşayiət edib, ən mühüm hadisə və görüşlər zamanı dahi şəxsiyyətlə təmasda olub. Heydər Əliyevin fəaliyyəti kontekstində dövlətimizin xarici siyasətini, Dağlıq Qarabağ probleminin həllində Azərbaycanın dəyişməz mövqeyini beynəlxalq arenada işıqlandırıb. Onun təşkilatçılığı ilə Rusiyanın aparıcı KİV təmsilçilərinin 3 dəfə Heydər Əliyevlə görüşü keçirilib.

Yazıların sadə, axıcı və lakonik dili, müqayisəli təhlil mədəniyyəti, dəmir məntiq Vasif müəllimin yaradıcılığını şərtləndirən əsas məziyyətlərdir. Onun qələmindən çıxan məqalələrin siyasi, ideoloji, mənəvi mahiyyəti, məzmun konkretliyi daim diqqəti cəlb edir. "Oqonyok" jurnalında Azərbaycan xalqının mənəvi dəyərlərini, mental xüsusiyyətlərini ifadə edən yazıları elmi-fəlsəfi təhlili ilə seçilir.

Yazıçı-publisistin müəllifi olduğu "Leyla Əliyeva: "Xocalıya ədalət!" (Beynəlxalq erməni terroruna qarşı yeni strateji model)" üçcildliyi gərgin araşdırmaların, yorulmaz tədqiqatların nəticəsində ərsəyə gələn dəyərli mənbədir. Xocalı faciəsinin əsl mahiyyətini, cinayətkarları və onların havadarlarını dünyaya bəyan etmək, ikili standarta söykənən ayrı-ayrı dövlətləri, bəzi beynəlxalq təşkilatları haqqın səsinə səs verməyə çağırmaq, onları beynəlxalq qurumların qərarlarına hörmətlə yanaşmağa səsləmək, həm beynəlxalq hüquq normaları çərçivəsində, həm də əxlaqlı, saf siyasi yanaşma yolu ilə Xocalı faciəsinə hüquqi və siyasi qiymət vermək – bu böyük və dəyərli tədqiqatın əsas mahiyyəti budur.

Vasif müəllim sədaqətli dost, ədalətli müəllim, prinsipial, qayğıkeş, xeyirxah insan idi. Bu keyfiyyətlər kontekstində müəllimim haqqında başqa bir müəllimim – professor Cahangir Məmmədlinin danışdığı bir detalı xatırlamaq yerinə düşər: "Universitetin jurnalistika fakültəsində Vasif Səmədovla görüş keçirilirdi. Tələbələrlə çox səmimi söhbət-dialoq vaxtı kamera yoxluğu ucbatından görüşün lentə alınmadığını hiss edən Vasif müəllim səhəri gün tələbələrə diktofonlar və videokamera göndərdi".

Ömür vəfa etsəydi, hələ deyəcəyi söz, tamamlayacağı kitab vardı. Qarabağın Zəfəri ilə bağlı kitabı yazıb tamamlaya bilməsə də, Vasif müəllim bu dünyadakı missiyasını şərəflə, ləyaqətlə tamamladı.

Bütün əxlaqi məziyyətləri ilə adını ürəklərdə həkk edən mənəviyyat adamı – Vasif Səmədov haqq dünyasına qovuşsa da, onu tanıyanların, tələbələrinin, professor-müəllim heyətinin, söz ordusunun qəlbində yaşayacaq!

***Leyla RƏŞİD,***
***filologiya üzrə fəlsəfə doktoru***

Fəxrəddin Şahbazov – 75

**Bu gün cəmi 41 il yaşamış və bunun 20 ilini fasiləsiz olaraq Azərbaycan Teleradio Şirkətində operator peşəsində çalışmış Milli Qəhrəman Fəxrəddin Şahbazovun 75 yaşı tamam olur. Son dərəcə vətənpərvər olduğuna görə onu da torpaq iddiasında olan nankor ermənilərin Azərbaycana qarşı açıq silahlı basqınları daim narahat edirdi və fürsət düşən kimi cəbhəyə gedərək qaynar döyüş meydanlarından reportajlar hazırlayar, efirə verərdi.**

# Onun silahı kamerası idi



Fəxrəddin cəbhə bölgəsində dəfələrlə təhlükə ilə üzləşsə də, ora getməkdə davam edirdi və bu səfərlərin biri onun üçün axırıncı oldu. 1991-ci ildə ermənilər Xocavənd rayonunda ağlasığmaz vəhşiliklər törədən ermənilər dinc sakinləri qətlə yetirmiş, kəndləri yandırmışdılar. Həmin vaxt – noyabrın 20-də dövlət nümayəndələri və başqa bir neçə adam hadisəni araşdırmaq üçün Mİ-8 vertolyotu ilə Xocavəndə yola düşdü. AzTV-nin müxbiri Alı Mustafayev və operator Fəxrəddin Şahbazov da onlarla idi. Qarakənd yaxınlığında işğalçı və separatçı haylar vertolyotu iri çaplı pulemyotlardan atəşə tutdular. Vertolyot yerə düşərək parçalandı və bütün heyət həlak oldu. Şəhidlərin arasında Alı ilə Fəxrəddin də vardı.

...Televiziyada birgə çalışdığımız vaxtlar idi. Elə o faciə ərəfəsində Fəxrəddinlə respublika stadionunun qarşısında keçirilən kartinq (miniatür avtomobil) yarışından reportaj hazırlamağa getmişdik. Kiçik trassda maraqlı idman mübarizəsi gedir, mühərrik səsləri qulaq batırırdı. Fəxrəddin isə bir qədər narahat təsir bağışlayır, sanki harasa tələsirdi. Həyəcan dolu anları kamerasının yaddaşına köçürəndən sonra tez geriyə qayıtmağımızı xahiş etdi. Sən demə, Qarabağa növbəti səfəri varmış.

Ertəsi gün süjetimiz efirə getdi, sonra isə Fəxrəddingilin Qarakənd səmasında vurulması xəbəri hamını yandırıb-yaxdı. Onda düşündüm ki, yəqin, yarışını çəkdiyimiz kartinqlərin mühərrikləri də elə ətrafa yayılan səsləri ilə Fəxrəddinə "Getmə, getmə!" deyə haray salırmış. O isə tələsik getdi və bir daha geri qayıtmadı...

Getməyə də bilərdi. Çünki bir neçə gün əvvəl Qarabağda ezamiyyətdə olmuşdu. Ağdam rayon ictimaiyyəti ilə respublikanın rəhbər işçilərinin görüşündən reportajın çəkilişlərini etmişdi. Qaydaya görə isə bu dəfə başqası getməli idi. Amma fədakar Fəxrəddin özü təkid etmişdi.

O, Çingiz Mustafayev kimi, Sirac Abışov da onun kimi kamerasını silah edib vuruşub. Ölümü ilə ölməzlik qazanmaq budur.

Əslən Lerik rayonunun Kəlvəz kəndindən olan Fəxrəddin Bakı Neft Texnikumunda oxumuş, təhsilini yarımçıq qoyaraq ordu sıralarına həqiqi hərbi xidmətə yollanmışdı. 1971-ci ildə əsgərlikdən qayıtdıqdan sonra texnikumu bitirsə də, neft sahəsində deyil, televiziyada işə düzəlmişdi. Sevimli işində xeyli ustalaşmışdı, buna görə də ən məsuliyyətli çəkilişlərə göndərilir, öhdəsindən bacarıqla gəlirdi. Elə operativlik tələb olunan "Günün ekranı" xəbərlər proqramına keçirilməsində də bu keyfiyyəti əsas götürülmüşdü. Başının üstünü qara buludlar alan Qarabağdan döyüş salnamələri yazan Fəxrəddin özü sonda salnamənin qəhrəmanı oldu. Tofiq İsmayılov, İsmət Qayıbov, Məhəmməd Əsədov, Vaqif Cəfərov, Vəli Məmmədov, Zülfi Hacıyev, Osman Mirzəyev, Qurban Namazəliyev, Saylau Serikov, Alı Mustafayev, Arif Hüseynzadə – ümumilikdə 21 nəfərlə birlikdə adını tarixə yazmış Fəxrəddin Şahbazova 1992-ci il 4 dekabr tarixli Prezident fərmanı ilə ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" adı verildi.

Bakının ən uca yerində – Şəhidlər xiyabanında dəfn edilib Fəxrəddin. Lerikin Kəlvəz kənd tam orta məktəbi onun adını daşıyır, Xırdalanda, İmişlidə və paytaxtın Rəsulzadə qəsəbəsində adına küçə var. Ondan söz düşəndə orta boylu, lopa bığlı, çevik, ciddi, işgüzar obrazı gözlərimiz önündə canlanır...

***Əli NƏCƏFXANLI***
***XQ***

# Xalq şairinin xatirəsi ehtiramla anıldı

**Doğmaları, dostları, qədirbilən oxucuları Zəlimxan Yaqubun anadan olmasının 75-ci ildönümü günündə xalq şairinin Fəxri xiyabandakı məzarını ziyarət ediblər.**



Mərasimi giriş sözü ilə açan Zəlimxan Yaqub irsinin araşdırıcısı, Əməkdar mədəniyyət işçsi Musa Nəbioğlu görkəmli sənətkarın həyat və yaradıcılığı haqqında məlumat verib, son illərdə nəşr olunan kitablarından danışıb. O bildirib ki, bugünlərdə şairin daha 2 kitab nəşr olunub. "Məqalələr, müsahibələr" toplusunda onun ömrünün son illərində yazdığı məqalələri və kütləvi informasiya vasitələrinə verdiyi müsahibələr, "Zəlimxan özü var xatirələrdə" adlı kitabda isə ölümündən sonra haqqında yazılmış məqalələr və ona ithaf olunmuş şeirlər yer alıb.

Sonra çıxış edən AMEA-nın müxbir üzvü, Riyaziyyat və Mexanika İnstititunun direktoru Misir Mərdanov, görkəmli dövlət xadimi Həsən Həsənov, "Xalq qəzeti"nin baş redaktoru Əflatun Amaşov, professor Vidadi Orucov, Əməkdar jurnalist İsmayıl Ömərov, şairlərdən Qılman İman, Sabir Sadaxlı, Təbriz İman, Binəli Bayram və Sənan Hüseynov şairlə bağlı xatirələrini bölüçüblər, onun milli poeziyamızın inkişafına göstərdiyi sanballı xidmətlərindən söz açıblar.

Aşıqlardan Əməkdar mədəniyyət işçisi Ədalət Dəlidağlı və Ramin Qarayev müxtəlif saz havaları üstündə şairin şeirlərini səsləndiriblər.

Şairin oğlu Bəhlul Yaqubov ailələri adından tədbirin təşkilatçılarına və iştirak edənlərə minnətdarlığını bildirib.

***XQ***

# Bir gəncin yeni yazılan həyat hekayəsi

## *Aktauda təyyarə qəzasında sağ qalmış balakənli soydaşımız*

**"Yeni Balakən" qəzetinin baş redaktoru Ramazan Abalovdan Məhəmmədi soruşanda "Onu kim tanımır ki? – dedi. – Balakəndə kimdən soruşsanız, möcüzə nəticəsində sağ qalan bu cavan haqqında sevinclə danışar".**

İki aydan sonra iyirmi yaşı tamam olacaq. Yeni Şərif kəndində doğulub. Orta məktəbi bitirəndən sonra Qroznı şəhərinə gedib. Bu da təsadüfi deyil. Çünki kafel ustası olan atası Eyvaz Papaxovun ailəsi oraya köçüb. Məhəmməd burada Moskva Hüquq Kollecinin Qroznı filialına daxil olub. 2023-cü ildə hərbi xidmətə getmək üçün Balakənə qayıdıb. Ordu sıralarında xidmət edib. Keçən ilin oktyabrında isə hərbi xidmətini başa vurub.

Bu yazdıqlarım 20 yaşlı bir gəncin kiçik həyat hekayəsidir, amma Məhəmmədin heç ağlına da gəlməzdi ki, 2024-cü il dekabr ayının 25-də onun bu həyat hekayəsinə heç vaxt unuda bilməyəcəyi bir səhifə də yazılacaq…

Yeni Şərif kəndində Papaxovların evini tapmaq o qədər də çətin olmur. Ramazanın dediyi kimi, soruşduğumuz hər kəsin üzünə təbəssüm qonur, yolu nişan verir.

Bu da Məhəmmədin yaşadığı ev. Onu soruşuruq. "Evdədir, – deyirlər, – içəri keçin". Stol arxasında oturub gözləyirik. Süfrəyə hər şey düzülüb. Son günlər Papaxovların evi qonaq-qaralı olduğundan bu yerlərin süfrəsinin şahı sayılan maxaraya qədər var. Budur, hündürboylu, yaraşıqlı bir oğlan o biri otaqdan keçib, bizə sarı gəlir. İllərin tanışı kimi görüşüb öpüşürük, bağrıma basıram. Söhbət edirik. Yuxarıda xatırlatdığımız kimi, hərbi xidmətdən qayıdıb, bir müddət istirahət edəndən sonra təhsilini davam etdirmək üçün dekabrın 25-də yenidən Qroznıya getməyi qərara alıb. Dekabrın 24-də avtobusla Bakıya yola düşüb.

– Təyyarədəkilərin bəzilərini tanıyırdım, – deyir. – Bir neçəsi ilə elə hava limanında tanış oldum. Biletim 30-cu yerə idi. Gedib əyləşdim. Mən bu yolu çox getmişəm. Elə də uzaq deyil, təxminən bir saatlıq yoldur. Odur ki, adam heç yatmaq həvəsində də olmur. Dəqiq deyə bilmərəm, nə qədər vaxt keçmişdi, birdən möhkəm səs eşitdik. Düzü, əhəmiyyət vermədim, fikirləşdim ki, yəqin təyyarədə nəsə nasazlıq əmələ gəlib. Amma sonra hiss etdim ki, ciddi bir hadisə baş verib. Bir az keçdi, artıq açıq-aşkar görünürdü ki, əməlli-başlı gərginlik var. Vəziyyət o qədər də ürəkaçan deyil.Təyyarə bələdçisinin "Bütün qaydalara, təlimata uyğun əməl edin, narahat olmayın, hər şey yaxşı olacaq" sözləri, düzü, ürəyimə su səpdi.

Elə bu vaxt arxada, 31-ci yerdə əyləşən gənc bir qadının əlini çiynimə toxundurub, "Xahiş edirəm, gəlib yanımda oturun, qorxuram" – deməsi yenə məndə narahatlıq yaratdı. Durub arxaya keçdim. Leyla adlı bu xanım başını çiynimə qoyub, əllərimi sıxaraq ağlayırdı, "İki balam yetim qalacaq" – deyirdi. Onu sakitləşdirməyə çalışırdım, amma bacarmadım. Adını sonralar bildiyim bələdçi Hökümə Əliyevanın qarşıda dayanıb sərnişinləri təmkinli olmağa çağırması və konkret olaraq nə iş görəcəyimizi bizə izah etməsi və bir də son günlər hamının dillər əzbəri olan "Hər şey yaxşı olacaq" sözlərini təkrarlaması bizə toxtaqlıq gətirirdi…

Arxasını danışa bilmir, gözləri dolur. Anası Pirdas xanım gərginliyi yumşaltmaq istəyir, "Bəlkə çayınızı dəyişim, – deyir, – Xahiş edirəm, heç olmasa maxaradan dadın, qonşumuz bişirib, heç meyvə də yemədiniz".

Məhəmmədin gözlərinə baxıram – bir nöqtəyə dikilib. Qarşısındakı soyumuş çaydan bir qurtum alır, yenə söhbətinə davam edir:

– Pəncərədən təyyarənin çırpılmağa doğru getdiyini açıq aydın görürdüm, bundan sonra heç nəyi xatırlamıram. Özümə gələndə gördüm ki, hər tərəfdən əməlli-başlı sıxılmışam.Yanımda oturan Leyla xanımın isə bir əlini gördüm. Özümü imkan daxilində sinəmə qədər çıxara bildim. Bir nəfər mənə kömək elədi, amma onun kim olmasını, düzü, bilmədim. Bilmədim ki, sərnişinlərdən idi, yoxsa oranın xilasedicilərindən idi…

Məhəmmədi təcili Aktauda xəstəxanaya yerləşdirdilər, elə bu vaxt vatsap nömrəsinə zəng gəldi. Yaxşısı budur, Pirdas xanım özü danışsın:

– Ürəyimdə bir narahatlıq var idi, – deyir. – Gecə də pis yatmışdım. Səhər yuxudan durub üzümü dağlara tutub o qədər dua eləmişəm ki… Evdə özümə yer tapa bilmirdim. Tez-tez həyətə çıxırdım. Görəsən, indiyə kimi niyə xəbər yoxdur? Axı oğlum çoxdan çatmalı idi. İnanın, dayanmadan yığırdım və birdən...

Qəhər onu boğur. Bayaqdan, yuxarıda dediyim kimi, vəziyyəti yumşaltmaq istəyən Pirdas xanım indi özü danışa bilmir. Söhbəti yenə Məhəmməd davam etdirir:

– Gördüm anamdır, tez telefonu açdım.



İlk sualı bu oldu: "Ay oğul, hardasan, bayaqdan sənə zəng çatmır. Həyəcanlı olduğunu açıq-aydın hiss edirdim. Odur ki, hər şey qaydasındadır, – dedim. – Xəstəxanadayam, yüngül xəsarət almışam. Mən hardan biləydim ki, təyyarənin qəzaya düşməsindən onun xəbəri yoxdur…

Hörmətli oxucu, mən burda bu sözlərdən sonra Pirdas xanımın hansı hisslər keçirdiyini, hansı vəziyyətə düşdüyünü yazıb sizi kövrəltmək istəmirəm. Yeni Şərif Bələdiyyəsinin sədri Murtuzəli Nuriyevin söylədiklərini, gələcəkdə Balakəndən olan yazıların hansındasa xatırlayarıq.

Soruşa bilərsiniz, bəs Məhəmmədin atası Eyvaz Papaxovla niyə görüşmədiniz? Bunun da günahı, təbii ki, bizdəydi. Gərək əvvəlcədən xəbərdarlıq edərdik. Bu hadisəni eşidib Azərbaycana qayıdan Eyvaz, bəlkə, desək də, evdə olmayacaqdı. Çünki həmin gün o hərbi xidmətdə olan, qardaşı Məhəmmədi görmək üçün məzuniyyətə gələn o biri oğlu Muradı yola salmağa getmişdi.

Ayrılanda Məhəmmədə bir sual verirəm:

– Baş vermiş dəhşətli qəza heç yuxuna girirmi?

Bir kəlmə ilə cavab verir: "Yox".

Sağollaşırıq. Həyət qapısına çatanda isə başqa sual yadıma düşür:

– Sənin yanında olan o xanımla maraqlandınmı?

Sualıma sualla cavab verir:

– Məni yanına çağırmaqla həyatımı xilas edən Leyla xanımı deyirsiniz? Əlbəttə, xatırlayıram. Allah bilir, arxa oturacağa keçməsəydim, nə olacaqdı. Bakıda xəstəxanada olanda birinci onunla maraqlandım, Allaha çox şükür, – dedilər, – sağdır. Dünən zəng vurmuşdu.

***İlqar HƏSƏNOV,***
***"Xalq qəzeti"nin bölgə müxbiri***

**Balakən**

# Tramp Ağ evə qayıtdı

**Yanvarın 20-də Vaşinqtonda Birləşmiş Ştatların 47-ci Prezidenti Donald Trampın (həm də 45-ci dövlət başçısı olub–müəllif) inaqurasiyası keçirilib. Mərasim canlı yayımlanıb və planetin, demək olar ki, hər bir guşəsində milyonlarla insan proseduru izləyib. Tədbirin təşkili üçün isə rekord miqdarda, 250 milyon dollardan çox vəsait xərclənib. Necə deyərlər, varlığa nə darlıq?!**

Qeyd edək ki, mərasim 40 ildən sonra ilk dəfə təxminən min nəfərin yerləşə biləcəyi Konqresin mərkəzi salonu Rotondada baş tutub. D.Tramp Konstitusiyaya və İncil kitabına əlini qoyaraq ölkəsinə sədaqət andı içib. Bununla da o, ABŞ tarixində fasilə ilə ən yüksək dövlət vəzifəsini tutan ikinci prezident olub. Əvvəllər buna yalnız Qrover Klivlend (1885–1889-cu və 1893-1897-ci illərdə) nail olmuşdur. Trampla bərabər, 40 yaşlı Ceyms Devid Vens də vitse-prezident kimi and içib.



And içdikdən sonra Tramp alqışlarla müşayiət olunan geniş nitq söyləyib və "Amerikanı birinci yerdə" qoyacağını vəd edib. "Amerikanın qızıl dövrü indi başlanır", – deyə o bəyan edib.

Yeri gəlmişkən, Tramp nitqinin əvvəlində mərasimə qatılan sabiq prezidentlərə, o cümlədən prezident Co Baydenə minnətdarlığını ifadə edib. Lakin ilkin ifadələrdən



sonra keçmiş siyasi rəqiblərin ünvanına tənqidlər səsləndirib və ölkə siyasətində nəzərdə tutulan əsaslı dəyişikliklərin anonsunu verib.

Tramp sələfinin administrasiyasının "daxildə adi böhranla ayaqlaşa bilmədiyini" və "xaricdəki fəlakətli" olayların öhdəsindən gəlmədiyini vurğulayıb.

O, "milli uğur erası"nın başlanğıcında özünün "arxayın və nikbin" olduğunu söyləyib. Ölkənin böyük dəyişikliklər astanasında olduğunu qeyd edərək Amerikanın fürsəti qaçırmayacağına diqqət çəkib.

Tramp administrasiyası ABŞ-ni super güc kimi daha da gücləndirmək əzmindədir. Lakin son illər qlobal qüvvələr nisbətində kəskin dəyişikliklər baş verib. Yeni regional və qlobal aktorlar meydana çıxıb. Onların əksəriyyəti bir çox hallarda Vaşinqtonla hesablaşmaq istəmir. Beləcə, Yer kürəsinin siyasi həyatında böhranlı vəziyyət yaranıb. Ağ evin yeni sahibinin dünyanı yeni qaydalarla nizamlamağa gücü çatacaqmı? Bunu indidən demək çətindir.

Qayıdaq Trampın mərasimdəki nitqinə. O, əvvəlcə ölkənin daxili prioritetlərini dilə gətirib. Deyib ki, yeni administrasiya Amerikda iri biznes üçün normal şərait yaradacaq və bununla da inflyasiyanın aşağı düşməsinə nail olacaq. Tramp həmvətənlərini ciddi narahat edən miqrantlar probleminə də toxunub. Bildirib ki, Meksika ilə sərhəddə fövqəladə vəziyyət elan edəcək.

Tramp beynəlxalq siyasətdən də danışıb. Onun sözlərinə görə, Vaşinqton hazırda dünyanı bürüyən müharibələrə tezliklə son qoyacaq. Artıq İsraillə HƏMAS arasında barışıq əldə olunub. Tramp bunu özünün ilk iş gününün ilk parlaq qələbəsi adlandırıb. Deyib ki, Amerika sülh və təhlükəsizliyin tərəfdarıdır və mənasız silahlı qarşıdurmalara son qoyulmalıdır.

Bir çox təhlilçilər qeyd edirlər ki, Trampın daxili və xarici siyasət sahələrini əhatə edən proqramları ilk baxışda nə qədər cəlbedici görünsə də, onları icra etmək bir o qədər də asan olmaycaq. Ən ciddi rəqib isə ABŞ-ni bütün sahələrdə daban-dabana izləyən Çindir. "Səmavi dövlət" öz imperiyasını qurmaq üçün planlar cızır. Məqsəd ABŞ-ı dünya hökmranlığına son qoymaqdır. Amerikalılar isə belə bir perspektivi özləri üçün qorxulu yuxu hesab edirlər.

Təkcə ABŞ və Çin deyil, Rusiya, Fransa, Böyük Britaniya da keçmiş imperiyalarını bərpa etmək arzusundadırlar. Bir çox təhlilçilər Böyük Turanı da bu siyahıya daxil edirlər. Belə çıxır ki, yaxın gələcəkdə dünyada imperiyaların paradı başlaya bilər.

İmperiyalar isə göyə buraxılan raketlər kimidir. Onlar fəzada uçarkən heç bir vəchlə dayanıb nəfəs dərə bilməzlər. Onlar qalaktikalar kimi, daim genişlənməsələr, məhv olarlar.

Görünür, məhz ABŞ-ni böyütmək üçün Tramp Qrenlandiya adasına və Panama kanalında iddia edir. Hətta ərazisinə görə dünyanın 2-ci böyük dövləti olan Kanadanı ABŞ-nin 51-ci ştatı kimi görmək arzusundadır. Təbii ki, Kanada və Panama dövlətləri qəti surətdə bunun əleyhinə çıxırlar.

Hazırda planetimiz cəngəlliklər qanunu ilə idarə olunur. Ali qanun kimi yalnız gücün iradəsi qəbul edilir. Kim güclüdür, o da haqlıdır! Bir vaxtlar fundamental dəyərlər kimi qəbul edilən insan haqları, söz və mətbuat azadlığı, demokratiya ilə və s. bağlı arzular xəyal qırıqlığına gömülür.

Yeri gəlmişkən, dünən ABŞ Prezidenti Donald Tramp Birləşmiş Ştatlatın Ümumdünya Səhiyyə Təşkilatından (ÜST) çıxması haqqında fərman imzalayıb.

Amerika lideri, prezidentlik dövründə təxminən 350 milyon əhalisi olan ABŞ-nin ÜST-ə üzvlüyünə görə 500 milyon dollar, əhalisi 1,4 milyarddan çox olan Çinin isə təxminən 39 milyon dollar ödədiyini bildirib. "Mənə elə gəldi ki, bu, bir az ədalətsizdir. Səbəb bu, deyildi, amma mən ÜST-dən ayrıldım", - Tramp deyib.

ABŞ Prezidenti Donald Tramp ölkənin Paris İqlim Sazişindən yenidən çıxması haqqında da fərman imzalayıb. Pespublikaçı qlobal istiləşmə konsepsiyasının elmi etibarlılığına dair şübhələrini dəfələrlə dilə gətirib. O, 2017-ci ildə ABŞ-ni Paris İqlim Sazişindən çıxarıb. 2020-ci ilin noyabrına qədər ölkə razılaşmadan çıxma prosesini başa çatdırıb, lakin 2021-ci ilin yanvarında ABŞ Prezidenti vəzifəsinin icrasına başlayan Co Bayden Vaşinqtonun Paris Sazişinə qayıtması haqqında fərman imzalayıb.

Bəli, bu gün ABŞ-də fərmanları 47-ci prezident Tramp imzalayır. Onun bir çox qərarları ölkənin özündə və xaricdə mübahisə doğursa da, Ağ evin yeni sahibi öz baxış bucağından dünyaya baxır və uyğun olaraq hərəkət edir. Nəyi düz, nəyi səhv etdiyini isə Zaman göstərəcək.

*Məsaim ABDULLAYEV*
*XQ*

# Torpaq şəhid qanı ilə Vətən olur

**Şəhid oğlunun cənazəsi başında donub qalmış ata ürəyində düşünürdü: "Təki sən yaşa, Vətən! Bu yolda oğlum canından keçdi, şəhid oldu". 20 yaşlı oğlunun yerinə üçrəngli bayrağı bağrına basıb təsəlli tapırdı.**

Müharibənin acı qanunları belədir, atalar oğulların deyil, oğullar ataların çiynində gedir son mənzilə. Bəxtiyar kişi oğlunu Gülövşə kəndinin qəbristanlığına qədər çiynində apardı. Əsgəri uğrunda şəhid olduğu vətən torpağına tapşırdı. Həmin gün təkcə İsmayılzadələr ailəsi deyil, ətraf kəndlərdə yaşayanlar da Vətən oğlunu kədər və ehtiramla son mənzilə yola saldı.



Böyük arzularla, ümidlərlə böyütmüşdülər onu, evin tək oğlu, bircə bacısının güvənci idi Əsgər. İgid şəhidi torpağa əmanət edib geri dönəndən sonra kədərə boyun əymədilər. Başlarını dik tutdular. Ürəyinə köz basılmış ana da "Vətən sağ olsun" dedi.

Əsgər İsmayılzadə 22 yanvar 2000-ci ildə Yevlax rayonunun Gülövşə kəndində anadan olmuşdu. Mehriban, halal zəhmətlə yaşayan bir ailədə böyümüşdü. Gülövşə kənd məktəbinin müəlliminin sözləri qulalağımda səslənir: "Ona 5 il riyaziyyat fənnindən dərs demişəm. İstəyirdim riyaziyyatın sirlərinə dərindən bələd olsun. O isə bizə Vətən sevgisi dərsi verdi".

Əsgər 2005-ci ildə 1-ci sinfə gedib. Sakit təbiəti, çalışqanlığı və tərbiyəsi ilə seçilən şagird olub. İdman oyunlarına da maraq göstərib. 2014-cu ildə 9-cu sinfi bitirərək Mingəçevir Turizm Kollecinə daxil olub. 2019-cu ildə ixtisas təhsilini başa vuraraq hərbi xidmətə gedib. Cəlilabad



rayonunda öz arzusu ilə Xüsusi Təyinatlı Qüvvələrdə qulluq edib.

Xidmətini bitirməyə 3 ay qalmış – 27 sentyabr 2020-ci ildə başlayan Vətən müharibəsinin ilk günündən Xüsusi Təyinatlı Qüvvələrin tərkibində ön cəbhəyə yollanıb. Murov yüksəkliklərinin alınmasında və Füzuli istiqamətində gedən döyüşlərdə qəhrəmanlıqla vuruşub. Cəbrayıl rayonunun Xındıqlar yaşayış məntəqəsinin ətrafında "Qüllə" adlanan ərazidə düşməni mövqelərini tərk etməyə məcbur edib, 5 erməni hərbçisini məhv edib. Düşmənin Qışlaq yaşayış məntəqəsində yerləşən Qızıl Qaya yüksəkliyindən qovulmasında fədakarlıqla döyüşüb.

20 yaşlı gənc 3 oktyabr 2020-ci ildə Füzuli–Cəbrayıl istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olub. Onun ölmək deyil, yaşamaq, arzularını həyata keçirmək, ata-anasına oğul, bacısı Leylaya qardaş olmaq vaxtı idi. Amma Əsgər Vətənə oğul olmağı seçdi. Vətənin yaşaması üçün özünün yaşamaq hüququndan keçdi. Gözünün yaşı qurumayan, ürəyi dağ-dağ olub yanan Şəkər ana deyir:

– Əsgərin yoxluğu məni çox ağrıdır, amma bir təsəllim var ki, oğlum Vətənə qurban gedib. Əsgərin şəhidlik zirvəsi məni Allaha daha yaxın etdi. Kəndimizin gediş-gəlişli yerində Əsgərin adına bulaq tikdirdik. Ağır günlərimizdə bizi heç vaxt tək qoymayan kənd camaatı da əlindən gələni etdi. Sağ olsun dövlətimizi, qayğımıza qalır. Əsgərin döyüş yoldaşları da gəlib-gedirlər. Kənd məktəbində Gülövşə şəhidlərinin şərəfinə abidə ucaldılıb. Mənim ciyərparam da onların arasındadır.

Bu ailəyə dəfələrlə getmişik, ata-ananın ağrı-acılarını paylaşmışıq, onlara təsəlli vermişik. Qəlbləri o qədər zəngindir ki,



övladlarına da bundan çox pay düşüb. Yaşasaydı, bu gün Əsgərin 25 yaşı olacaqdı, amma onun yerinə Vətən zəfər təntənəsi yaşayır. Elə ailəsi də bundan təsəlli tapır. Yaxşı bilirlər ki, torpaq şəhid qanı ilə Vətən olur.

İsmayılzadə Əsgər Bəxtiyar oğlu ölümündən sonra 3-cü dərəcəli "Rəşadət" ordeni, "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" və "Cəsur döyüşçü" medalları ilə təltif olunub.

*Əminə YUSİFQIZI,*
*Əməkdar jurnalist*

# Makron niyə ordunu gücləndirmək istəyir?

**Fransa prezidenti Emmanuel Makron ölkənin silahlı qüvvələrinin potensialını gücləndirmək istəyir. Bu məqsədlə daha çox gənc könüllülərin cəlb olunması layihəsini elan edib. By barədə "Le Monde" qəzeti yazıb.**

Makron Cesson–Sevignedə hərbçilər qarşısında çıxışı zamanı deyib: "Biz könüllüləri müəyyən etmək üçün daha yaxşı iş görməliyik ki, onlara təlim keçək və ordunu materik Fransada və ya başqa yerlərdə gücləndirmək vaxtı gələndə səfərbər edə bilək".

Fransa lideri gənclərə xidmət etmək üçün "seçim vermək" istədiyini söyləyib. Jurnalistlər qeyd ediblər ki, Makron hələlik təşəbbüsünün dəqiq təfərrüatlarını açıqlamayıb. Bununla yanaşı, o, Fransanın müdafiə prioritetlərinin yenilənmiş strateji icmalını da təqdim edib. Makron müvafiq tədbirləri "yaranmış təhdidlər"lə əlaqələndirib. Bu, ilk növbədə, Ukraynadakı müharibə ilə bağlıdır. "Amerikalı müttəfiqimiz döyüş gəmilərini Aralıq dənizindən çıxarsa, sabah Avropada nə edəcəyik?", – o deyib. Makron iddia edir ki, Rusiya–Ukrayna müharibəsi "sabah və ya ertəsi gün" bitməyəcək: "Gəlin özümüzü aldatmayaq".



Makronun fikrincə, müharibə bitdikdən sonra da Avropanın təhlükəsizliyinə təhdidlər aradan qalxmayacaq, bəlkə də daha da artacaq. Fransa lideri həmçinin Avropa ölkələrini dünya səhnəsində qüvvələr balansında dəyişikliklərə hazır olmağa çağırıb. Vurğulayıb ki, gələcək sülh danışıqlarında Ukraynanın mövqeyini gücləndirmək üçün ona fəal yardım prioritet hesab edilməlidir: "Bugünün problemi Ukraynaya sağ qalmaq üçün güclü mövqedən gələcək danışıqlara başlamaq imkanı verməkdir".

Fransa lideri deyib ki, gələcəkdə hərbi əməliyyatlar dayandırıldıqdan sonra əsas vəzifə Ukraynaya öz ərazisində istənilən döyüşün bərpasına qarşı təminat vermək, həmçinin Avropanın təhlükəsizliyini artırmaq olacaq. Makron Ukraynaya təminatın verilməsini orada Avropa qoşunlarının, o cümlədən Fransa hərbçilərinin yerləşdirilməsində görür. Bunun üçün də Fransanın ordunu "başqa yerlərdə gücləndirmək vaxtı gələndə" gəncləri səfərbər etməyə, yəni ehtiyat qüvvələrə ehtiyacı olacaq.

Qeyd edək ki, Ukrayna prezidenti Volodimir Zelenski fransalı həmkarının ölkə ərazisinə xarici qoşunların yerləşdirilməsi təşəbbüsünü təminatlardan biri adlandırıb. Dekabrda "The Wall Street Journal" mənbələrə istinadən yazmışdı ki, Tramp atəşkəs rejiminə nəzarət missiyasını yerinə yetirmək məqsədi ilə Ukraynada Avropa qoşunlarını yerləşdirmək istəyir. Respublikaçı bu arzusunu Parisdə Zelenski və Makronla görüşdə səsləndirib.

Rusiya prezidentinin mətbuat katibi Dmitri Peskov Ukraynaya avropalı sülhməramlıların göndərilməsinin mümkünlüyünün danışıqlar zamanı müzakirə oluna biləcəyini etiraf edib, lakin hazırda onlar üçün heç bir ilkin şərtlərin olmadığını vurğulayıb. Onun sözlərinə görə, Rusiya dəfələrlə atəşkəs yox, sülh tərəfdarı olduğunu və sülhün onun şərtləri yerinə yetirildikdən və məqsədlərinə çatdıqdan sonra gələcəyini bildirib.

Fransa prezidentinin ordunu gücləndirmək istəyi həm də keçmiş müstəmləkələrində zəifləmiş mövqeyi ilə bağlıdır. Ötən dövrdə Yelisey sarayı Fransa qoşunlarını Mali, Niger, Burkina Faso və Mərkəzi Afrika Respublikasından geri çəkib. Artıq Çaddan da fransız hərbçiləri çəkilir. Bu ölkələr ərazilərində başqa dövlətlərin hərbi bazalarını istəmirlər. Onlar rəsmi Parisin cinayətlərinə şahiddirlər. Bu ölkələr zəngin xammal yataqlarına sahib olsalar da, dünyanın ən kasıbları arasındadırlar. Paris onların inkişafı ilə deyil, talan edilməsi ilə məşğul olub.

Artıq Yeni Kaledoniya, Mayotta və Reyunyon adaları Fransanın müstəmləkə zülmündən azad olmaq uğrunda mübarizə aparırlar. Bu adalar Fransa tərəfindən istismar olunur, xammaları talan edilir. Azadlıq hərəkatını yatırmaq üçün isə Fransa gənclərin səfərbərliyinə önəm verir.

Makron hərbçilər qarşısınada çıxışı zamanı Avropanı "strateji oyanış"a da çağırıb və bildirib ki, avropalılar özləri bununla məşğul olmalıdırlar. Əks halda sülh və təhlükəsizlik olmayacaq: "Avropa təhlükəsizlik məsələlərini ABŞ-a həvalə etməyi dayandırmalıdır. Qitənin geosiyasi səhnədən yoxa çıxmaması üçün hərəkətə keçmək vaxtı çatıb. Avropalılar olmadan qitədə sülh və təhlükəsizlik ola bilməz".

O qeyd edib ki, NATO təhlükəsizlik sahəsində əsas rol oynayır və avropalılar da öz töhfəsini vermək istəyirlər: "NATO-ya Avropanın dəstəyi alyansın əhəmiyyətini azaltmır, lakin biz strateji "oyanış" üçün məsuliyyəti öz üzərimizə götürməliyik. Avropa İttifaqı dünyanın digər ölkələrinə... öz suveren sərhədlərinə hücum etməyə icazə verə bilməz. Bizə güclü ordu lazımdır".

Belə bir şəraitdə Fransa da daxil olmaqla Avropa müdafiə xərclərini artırmağa hazırlaşır. Bu məqsədlə hərbi xərcləri maliyyələşdirmək planları genişlənir. ABŞ-nin töhfəsinin azalacağını gözləyən Avropa İttifaqı xərcləri 500 milyard avro dəyərində zəmanətli istiqrazlarla maliyyələşdirəcək.

Eyni zamanda, Avropadan olan NATO üzvləri məqsədyönlü xərclərin ÜDM-in 2 faizdən 3 faizə qədər artırılmasını müzakirə edirlər. Bu nisbət hələ də ABŞ prezidenti Donald Trampın onlardan istədiyi 5 faizdən çox aşağıdır. O bildirmişdi ki, Avropa tərəfindən müdafiə üçün xərclərin kifayət qədər olmaması alyansın təhlükəsizliyini zəifldir. Trampın sözlərinə görə, Vaşinqton administrasiyası gələcəkdə ölkə vətəndaşlarına izah edə bilməyəcək ki, amerikalılar xarici ölkələrdə öz həyatlarını qurban verməkdə davam etdikləri halda, nəyə görə bəzi ölkələr NATO üzrə kollektiv müdafiə işinə öz töhfələrini vermək istəmirlər.

Deməli, ABŞ Avropanın təhlükəsizliyini öz üzərinə götürmək istəmir. Avropalılar öz təhlükəsizliklərinə cavabdehlik daşıyacaqlar.

İstənilən halda, bir vaxtlar dünyaya hökm edənlərdən olmuş Fransa artıq qlobal miqyasda çöküşünü yaşayır. Güclü ordu da onu xilas edə bilməyəcək.

*P.ƏFƏNDİYEV*
*XQ*

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 13 (30707) 22 yanvar 2025-ci il, çərşənbə

# Stalindən qorxmayan ilahi aşiqi

*O, kim idi: yazıçı, həkim, cadugər, peyğəmbər, yoxsa... narkoman?*

**Mixail Bulqakov Stalinə ünvanladığı məktubda belə yazırdı: "Mən ilahi qüvvəyə inanan yazıçıyam. Dünyanın insanlar tərəfindən deyil, görünməz qüvvələr tərəfindən idarə olunduğuna əminəm. Yəqin ki, mənimlə razılaşarsınız ki, dünya yalnız insanın ümidinə qalsaydı, bizə qədər gəlib sağ çıxmazdı, lap çoxdan məhv edilmiş olardı).**

Stalin bu cümlələrin altından qırmızı qələmlə xətt çəkərək dərkənarda yazır: "Keşiş ruhunu abırlı yazıçı geyimi altında gizlədən yoldaş M. Bulqakovla dərindən və ciddi şəkildə maraqlanmalı."

Bu dərkənardan sonra Bulqakovun sağ qalma şansı sıfıra bərabər idi. Görəsən, bolşeviklərin qırğınlarından onu saxlayan elə inandığı ilahi qüvvəydimi? Bu yazıçının əsərlərində sehrlə örtülmüş, deyəsən, sonadək gizli qalası sirlər, tapmacavari məqamlar yetərincədir.

Bu sirli-sehrli olaylar onun şəxsi həyatında da vaxt-bivaxt özünü büruzə verirdi. Onu əhatə edən insanların isə bu olayları qorxu ilə izləməkdən başqa əllərindən bir iş gəlmirdi. Onları qınamaq da düz deyil. Axı bu izaholunmaz təzahürləri nəyə əsaslanaraq hara yoza bilərdilər ki?!

1916-cı ildə M. Bulqakov Kiyev Universitetinin tibb fakültəsini bitirir və Smolensk quberniyasına həkim kimi təyinat alır. Vyazmada dövlət xəstəxanasında, eləcə də müstəqil həkim kimi Moskvada, sonra isə Kiyevdə öz peşəsini davam etdirir. 1925–1926-cı illərdə "Gənc həkimin qeydləri" adı ilə çap etdirdiyi kitabda Bulqakov məhz 1916-cı ildən üzü bəri həkimlik praktikasında rastlaşdığı hadisələrdən söz açır. Təzəcə qələmə əl atan gənc "mistik yazıçı"nın bu hekayələr toplusundakı əsərlərdə artıq Bulqakov mistikasının nişanələri, əlamətləri özünü göstərməyə başlayır.

Bütün peşə sahiblərindən daha çox həkimlər bu dünya ilə o dünya arasındakı səddin nə qədər döZümsüz olduğunu daha yaxşı bilir, baş verən bu qəçılmaz gerçəkliyin səbəblərini axtarıb-tapmağa cəhd edirlər. Onlar yaxşı bilirlər ki, iynələr, dərmanlar insanı qorumaq məsələsində çox vaxt bir işə yaramır, insanı qoruyan başqa bir qüvvə var, deyəsən...

Bulqakov əyalət həkimi işləyəndə o, morfi aludəçisinə çevrilir. Ara-sıra bu bəladan uzaqlaşsa da, az keçməmiş əli yenə morfi ampulasına uzanır. Onun "Morfi" hekayəsini xatırlayırsınızmı? Hekayənin qəhrəmanı elə Bulqakovun özüdür. O, nəhayət, morfidən canını qurtara bilir, damarlarını dəlmə-deşik etmir, ancaq uzun müddət kokain iyləməklə kifayətlənir.

Müasirləri kimi Bulqakov da elə sanırdı ki, narkotikanın qəbulundan sonra qarabasmalar şüurun sərhədlərinin genişlənməsi nəticəsində baş verir. Amma ömrünün ikinci yarısında zərərli vərdişlərdən əl çəkmişdi və bütün varlığıyla Tanrıya iman gətirmişdi. Bu inamı onun qəlbindən heç kəs silmək iqtidarında deyildi.

Sözarası deyim ki, Bulqakov cəmi 49 il yaşayıb və onun ömrünün birinci yarısı? sən demə, 25 yaşında artıq tamamlanıbmış. O, gündəliyində həmin ərəfədə yazırdı:




"Bəlkə də, güclü və özünə hədsiz inamı olan adamlara Allah lazım deyil. Ancaq şəxsən mən böyük yaradana inamsız qətiyyən keçinə bilmərəm".

Bulqakovun adamları heyrətə gətirən yaradıcılıq istedadını onun qeyri-adi şəkildə təzahür edən duyma, hissetmə, görmə qabiliyyətindən ayırmaq mümkünsüzdür. Xeyir, o cadugər-zad deyildi, amma başqaları kimi əlini əlinin üstünə qoyub oturmurdu, inadla göy üzünün sirli-sehrli qapılarını döyməyə davam edirdi.

Ona peyğəmbərlik iddiasına düşmüş dəli kimi baxanlar da olmuşdu. Amma olacaqları qabaqcadan duyub xəbər verməsini də sükutla qarşılamaq olmur. Bəzən elə olurdu ki, gələcəkdə başlarına nə gələcəklərini bilmək üçün ona üz tutanlara əsəbi şəkildə "mən nə cadugər, nə də peyğəmbər deyiləm" deməklə qapını göstərirdi.

Bulqakov görünməyən dünyayla təmaslarında daha çox özüylə, öz gələcəyilə maraqlanırdı, nəsə eşələyib çıxarmağa çalışırdı. O, dəfələrlə "Usta və Marqarita" əsərinin əlyazmasını yandırmaq istəsə də, roman hər dəfə dirilən ölü kimi həyata qayıdır.



Volandın Ustaya dediyi "əlyazmalar yanmır" məşhur ifadəsini xatırlayırsınızmı? Bulqakov "Teatrvari roman"ını da yandırmışdı, amma bu roman da möcüzəli şəkildə sanki sonralar yoxdan var olur, tapılır.

Yelena Sergeyevna gündəliklərində yazır: "O, çarpayıya uzanaraq "Usta və Marqarita" romanındakı Berlozun evində baş verən yanğın hadisəsini diktə edirdi. Mixail diktəsini bitirəndə gecə saat 2 idi. Nəsə yemək istəyirdik. Bax elə bundan sonra baş verənlər Mixailin diktə etdiyi hadisələrin canlı şəkildə təkrarına çevrildi. Əhvalı nədənsə pozulmuş qulluqçu qadın kerosinlə yanan peçin üstündəki tası hirslə tulladı. Tas qapağı örtülməmiş qalan kerosin bidonunu aşıran kimi alov bir anda hər yeri bürüdü".

Bulqakov ayaqyalın, bir köynəkdə içəri qaçır, birtəhər yanğın söndürülür. Bu hadisədən sonra xeyli müddət Bulqakov özünə gələ bilmirdi. "Bu, böyük bir xəbərdarlıqdır" deyirdi.

Ölümündən bir neçə ay əvvəl yazıçı Valentin Katayev onu yoluxmağa gəlir. Bulqakovun ona dediklərini Katayev sonralar belə xatırlayır: "O mənə "tezliklə öləcəyəm" dedi. Sonra dedi ki, ölümümdən sonra nələrin baş verəcəyini də deyə bilərəm. Mən tabutda uzanacağam. Evdən mənim tabutumu çıxaranda tabut əllərdən sürüşüb az qala yerə düşəcək, amma buna imkan verməyəcəksiniz. Altda yaşayan qonşum Romaşovun qapısına tabutumun sağ küncü dəyəcək və orada onun izi uzun müddət qalacaq. O, bunları söyləyəndə mən cavabında "sən Allah, qoy oturmuşuq görək, ölüm hardan sənin beyninə girib?" dedim.

O, tezliklə öldü və hər şey onun dediyi kimi düz çıxdı – tabutu sürüşdü, Romaşovun qapısında isə onun tabutunun izi hələ də qalır."

***Kənan HACI,***
***yazıçı-publisist***

Sosial şəbəkələrdən nümunələr

## Xoşbəxtlik – əl tutmağın sevinci

**Sosial şəbəkələrdə dostluğumda olan Şəmsiyyə Kərimova adlı xanım həmkarım bugünlərdə özünün "Facebook" səhifəsində maraqlı bir paylaşım edib. Düşünürəm ki, bu, ibrətamiz hekayət oxucuların da diqqətini özünə cəlb edəcək. Orada yazılır:**



"Məşhur jurnalistlərdən biri hindistanlı milyarder Ratan Tataya belə bir sual verir:

**– Cənab Tata, həyatda ən xoşbəxt olduğunuz anı necə xatırlayırsınız?**

Tata belə cavab verir:

– Həyatda xoşbəxtliyin 4 mərhələsindən keçdim və nəhayət, gerçək xoşbəxtliyin nə olduğunu anladım.

İlk mərhələ sərvət və ehtiyat toplamaq idi. Amma bu mərhələdə istədiyim xoşbəxtliyi əldə edə bilmədim. Sonra qiymətli əşyaların toplanması olan 2-ci mərhələ gəldi. Amma bunun təsirinin də keçici olduğunu və qiymətli şeylərin parıltısının uzun sürmədiyini fərq etdim. Ardından böyük bir ticari layihə olan 3-cü mərhələ başladı. O zaman Hindistan və Afrikadakı dizel yataqlarının 95 faizinə sahib idim. Ayrıca Hindistan və Asiyadakı ən böyük polad zavodunun da sahibi idim. Amma burada da xəyal etdiyim xoşbəxtliyi əldə edə bilmədim.

4-cü addım bir dostumun məndən bəzi əlil uşaqlar üçün təkərli əlil arabası almağımı istəməsi oldu. 200-ə yaxın uşaq üçün. Dostumun tövsiyəsi ilə həmən təkərli əl arabalarını aldım. Amma dostum onunla getməyimi və əlil arabalarını uşaqlara verməyimi israr etdi. Mən də hazırlaşıb onunla getdim. Orada bu uşaqlara əlil arabalarını öz əllərimlə verdim. Bu uşaqların üzlərində qəribə bir xoşbəxtlik parıltısı gördüm. Hamısını əlil arabalarında oturarkən, dolaşarkən və əylənərkən gördüm. Onlar, sanki, bu hədiyyəni qeyd etmələri üçün bir şadlıq yerinə gəlmiş kimi idilər. Məhz o anda gerçək xoşbəxtliyi içimdə hiss etdim.

Ayrılmağa qərar verəndə uşaqlardan biri ayağımdan tutdu. Ayaqlarımı yavaşca çəkməyə çalışdım, amma uşaq üzümə baxdı və ayaqlarımı yenidən bərk-bərk tutdu. Əyilib uşaqdan soruşdum:

**– Başqa bir şeyə ehtiyacın varmı?**

Bu uşağın verdiyi cavab məni, sadəcə, sarsıtmadı, həyata baxışımı da tamamən dəyişdirdi.

Bu uşaq dedi:

– Üzünü yadda saxlamaq istəyirəm ki, cənnətdə görüşəndə səni tanıyıb bir daha təşəkkür edə bilim".

**P.S. Çox təsirli səhnədir. Hər bir bəşər övladı üçün onun köməyinə, yardımına ehtiyacı olanlara əl tutmaqdan, yaxşılıq etməkdən böyük bir səadət varmı? Təbii ki, yoxdur, ola da da bilməz!**

***Təqdim etdi:***
***M.HACIXANLI***
***XQ***

Hava

## Yenə yağmursuz və dumanlı...

**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin verdiyi məlumata əsasən, yanvarın 22-də Bakıda və Abşeron yarımadasında havanın dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Lakin axşam bəzi yerlərdə arabir yağış yağacağı ehtimalı var.**



Gecə və səhər bəzi yerlərdə duman olacaq. Cənub-şərq küləyi əsəcək. Gecə 3-5°, gündüz 8-10° isti olacaq. Atmosfer təzyiqi normadan yüksək 773 mm civə sütunu ,nisbi rütubət 70-80 faiz olacaq. Azərbaycanın rayonlarında əsasən yağmursuz keçəcək.

Lakin axşam bəzi şərq rayonlarında arabir yağıntılı olacağı ehtimalı var. Bəzi yerlərdə arabir duman olacaq. Mülayim şərq küləyi əsəcək.Havanın temperaturu gecə 3° şaxtadan 2°-dək isti, gündüz 8-13° isti, dağlarda gecə 5-10° şaxta,gündüz 1-6° isti olacaq.

***Q.QASIMOV***
***XQ***

İdman

## "Arpaçay open"in karate turniri



**20 Yanvar faciəsinin 35-ci ildönümünə həsr olunmuş X "Arpaçay open" karate turniri keçirilib.**

Bakı Şəhər Gənclər və İdman İdarəsi ilə Azərbaycan Karate Federasiyasının birgə təşkilatçılığı ilə Bakı İdman Sarayında keçirilən turnirdə təmsilçilərimizlə yanaşı, Türkiyə, İran, Çexiya, Gürcüstan, Qazaxıstan, Küveyt, Özbəkistan və Rusiya idmançıları da mübarizə aparıblar. Kata, kumite və komanda-kumite yarışlarında, ümumilikdə, 800-ə yaxın idmançı gücünü sınayıb.

65 idman klubunun iştirak etdiyi turnirdə ümumi nəticələrə görə, Azərbaycan təmsilçisi "Qara qaplan" qalib olub. Digər klubumuz "Qara brilyant" 2-ci, Qazaxıstanın Cambul vilayətinin idman klubu isə 3-cü yerləri tutublar.

***L.QURBANOVA***
***XQ***

Sağlamlıq

## Limonlu su – şirin yuxu

**Türkiyəli professor, doktor Canan Karatay suyun orqanizmdə mühüm yeri olduğunu və sağlam həyat üçün kifayət qədər maye qəbulunun vacibliyini vurğulayıb.**



Suyun sağlamlığımız üçün əhəmiyyətindən danışan Karatay minerallarla dolu su içməyi məsləhət görüb. Deyib ki, su ilə yanaşı, kifayət qədər heyvani yağ və zülal da qəbul etmək lazımdır. Bunun xəstəliklərdən qorunma və mövcud yoluxmalardan qurtulma prosesini sürətləndirdiyini bildirib.

Gündəlik həyatda limonlu su içməyin faydasından bəhs edərək bunun insanın enerji ehtiyacını ödəməkdə təsirli olduğunu vurğulayıb.

Limonlu suyun faydalarından danışan Karatayın fikrincə, belə su bağırsaqların aktiv işləməsinə kömək edərək həzmi asanlaşdırır. Eyni zamanda, qəbizlik kimi problemlərdə də təsir göstərir.

Limonlu suyun müntəzəm içilməsi yağların yandırılmasını da sürətləndirir və sidik ifrazı ilə ödemi aradan qaldırmağa kömək edir.

Limon tərkibindəki vitamin və minerallarla sağlamlığa kömək edir, C vitamini və limon turşusu sayəsində orqanizmdə dəmirin udulmasını artıraraq qan azlığına qarşı fayda verir.

Həkim Karatay hər axşam yeməyindən sonra limon suyu içməyin həzm sisteminə tənzimləyici təsir göstərdiyini bildirib və bunun daha sağlam yuxu üçün zəmin yaratdığını vurğulayıb.

***Z.HÜSEYNLİ***
***XQ***


## "Kapital Bank" ASC səhmdarlarının nəzərinə!

25 fevral 2025-ci il saat 11.00-da "Kapital Bank" ASC səhmdarlarının növbədənkənar ümumi yığıncağı keçiriləcəkdir. Yığıncağın gündəliyinə aşağıdakı məsələlər daxildir:

• Bankın Nizamnaməsinə dəyişiklik edilməsi.
• Bankın Müşahidə Şurasının əsasnaməsinə dəyişiklik edilməsi.
• Bankın Müşahidə Şurasının tərkibində dəyişiklik edilməsi.
• Digər məsələlər

Telefon – (994 12) 598 12 95 (daxili: N/A)
Web: www.kapitalbank.az
Ünvan – Bakı şəhəri, Füzuli küçəsi 71.

***"Kapital Bank"ın baş ofisi***


## ALLAH RƏHMƏT ELƏSİN

Azərbaycan Respublikası Hərbi Prokurorluğunun rəhbərliyi və kollektivi Bakının hərbi prokuroru Fərid Şükürova atası

**ƏLİ MÜƏLLİMİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

"Sabirabad-konserv "ASC idarə heyətinin sədri Əlabbas Şıxəliyev "Azərsun holding"in prezidenti

**ABDOLBARİ GOZALIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

"Xalq qəzeti"nin kollektivi iş yoldaşları Zərifə Bəşirqızına əzizi

**ELMİRA NAMAZOVANIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.


BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75 Mühasibatlıq: 498-85-29
Məsul katib: 493-61-02 E-mail: xalqqazeti@gmail.com
Texniki şöbə: 493-59-64 info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 2943
SİFARİŞ 139
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Mirbağır YAQUBZADƏ

Çapa imzalanmışdır 00:00